**ELDAR ƏZİZOV**

# DİFAİ

XX əsrin əvvəllərində erməni-azərbaycanlı
münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri

**Bakı – 2009**

**Eldar Əzizov**
**DİFAİ** XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri,
Bakı – 2009. 364 səh.

Eldar Əziz oglu Əzizovun bu kitabında erməni millətçi təşkilatlarının terrorçu fəaliyyətinə cavab olaraq Azərbaycanda ilk milli təşkilat "Difai" (Müdafiə) Partiyasının yaradılması və fəaliyyəti tarixi tədqiq edilir. Ən müxtəlif mənbələrdən cəlb edilmiş zəngin faktiki materialın təhlili və ümumiləşdirilməsi əsasında bu mövzunu ideoloji ehkamlardan və milli-subyektiv baxışlardan asılı olmadan işıqlandırmağa cəhd edilmişdir. **Əsərdə "Difai"nin fəaliyyəti erməni-azərbaycanlı ziddiyyətlərinin yaranmasının ilkin tarixi şərtləri və səbəbləri fonunda nəzərdən keçirilir. Çar Rusiyasının XVIII əsrin birinci rübündən başlayaraq Cənubi Qafqaza hərbi-siyasi ekspansiyası bu ziddiyyətlərin əsasını qoymuşdur. Həmin siyasətin həyata keçməsində erməni amilinə İmperiyanın regionda sosial dayağı, müsəlman dövlətləri olan Türkiyə və İrana qarşı mübarizədə isə xristian forpostu rolu ayrılırdı.** Məhz **bu** siyasət nəticəsində XX əsrin əvvəlində erməni-azərbaycanlı ziddiyyətləri kulminasiya nöqtəsinə çataraq, açıq qanlı qarşıdurmaya çevrilmişdir. Azərbaycanlı əhalinin erməni terrorundan qorunmasında "Difai" partiyasının rolunun obyektiv və əsaslandırılmış şəkildə işıqlandırılması zərurəti müasir dövrdə bu araşdırmanın əhəmiyyətini və aktuallığını şərtləndirir.

**000000000000**
**Ə ------------------- 2009**
**036-09**

**© Eldar Əzizov, 2009**

# MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................................... 4**

**XX əsrin əvvəlində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri ........... 30**

**1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi “Difai” partiyasının yaranmasının əsas səbəbi kimi .. 41**

**“Difai” partiyasının yaranması .................................... 82**

**“Qarabağ Birlik Məclisi”: təşkilati strukturu və proqramı ............................................................... 102**

**1906-1908-ci illərdə “Qarabağ Birlik Məclisi” - “Difai”nin fəaliyyəti ............................................. 118**

**Nəticə .................................................................................. 147**

**Əlavələr....................................................................3 21**

**İstifadə edilmiş ədəbiyyatın siyahısı ........................... 355**

# GİRİŞ

Son 20 ildə xalqımızın həyatında sözün həqiqi mənasında epoxal əhəmiyyət kəsb edən hadisələr baş vermişdir. Bu illərdə biz ən gözlənilməz, ən sensasiyalı hadisələr burulğanına cəlb edildik. Kommunist imperiyası süqut etdi, vaxtilə hər şeyə qadir olan Sov.İKP tarix səhnəsindən həmişəlik silindi, SSRİ məkanında yeni müstəqil, suveren dövlətlər yarandı, bütün dəyərlərə münasibət kökündən dəyişdi. Bu illər ərzində insanların şüurunda da çox böyük irəliləyiş olmuşdu. SSRİ dağılandan sonra postsovet məkanında yaranmış yeni dövlətlərin xalqları öz tarixini yenidən dərk etməyə ehtiyac duyurdular.

Azərbaycan tarixi ilə bağlı problemlər çoxcildlik monoqrafiyaların səhifələrində, çoxsaylı məqalələrdə öz əksini tapmışdır. Buna baxmayaraq, ölkəmizin keçmişi ilə bağlı bir sıra məsələlər və süjetlər hələ də özünün obyektiv və ətraflı işıqlandırılmasını gözləyir. 70 il müddətində SSRİ xalqları arasında əvvəllər baş vermiş hər hansı münaqişələrin hətta adının çəkilməsinə belə, sözün həqiqi mənasında, tabu qoyulmuşdu. “Bizim ümumi evimizdə” hər şeyin heç də istənilən səviyyədə olmaması barədə fikir yarada biləcək bütün məqamlar elmi ədəbiyyatdan və dövri nəşrlərin səhifələrindən səylə çıxarılırdı. Bununla belə, həmin qeyri-sağlam vəziyyət, süni şəkildə gizlədilən problemlər üst-üstə yığılaraq, nəticə etibarilə, tarixən belə hallarda olduğu kimi, sonradan çoxsaylı fəlakətlərə və itkilərə səbəb oldu. Bunun nəticəsində XX əsrin 80-ci

illərinin ikinci yarısında SSRİ-də millətlərarası ziddiyyətlərin güclənməsi ilə əlaqədar baş vermiş faciəli hadisələr xalqlar dostluğunun sarsılmaz olması barədə mifləri tamamilə alt-üst etdi.

Xoşbəxtlikdən, bu gün Azərbaycan tarix elmi başqa şəraitdə fəaliyyət göstərir: tarixçilərimizin indiki nəslinin taleyinə müstəqil Azərbaycan Respublikasının, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş prinsiplər sayəsində uğurla inkişaf edən dövlətin rifahı naminə yaşamaq və işləmək kimi böyük və şərəfli bir vəzifə düşmüşdür. Bu sözlər, Azərbaycanın işğal edilmiş ərazilərinin erməni təcavüzkarlarından azad edilməsinə yönəlmiş hücum diplomatiyası siyasətinə, dövlətçiliyin daha da möhkəmləndirilməsinə, ordunun inkişaf etdirilməsinə, ölkənin iqtisadi potensialının artırılmasına da aiddir. Hazırda Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət ölkəmiz üçün müasir dövrün çağırışlarına ən real cavabdır. Tarixi faktları öyrənmək və müvafiq nəticələr çıxarmaqla bir sıra problemləri başqa cür həll etmək olardı. Lakin təəssüf ki, 1988-ci ildən 1993-cü ilə qədər real idarəetmə strukturlarının mövcud olmasına baxmayaraq, xalqımız və onun torpaqları növbəti dəfə təcavüz, terror və soyqırım siyasətinin qurbanı oldu. Azərbaycanın geosiyasi əhəmiyyəti tarix boyu fövqəldövlətlərin maraqlarının toqquşmasına səbəb olmuşdur. Əfsuslar olsun ki, heç də həmişə dövlətimizin başında bu rəqabətdən Azərbaycanın xeyrinə istifadə edə biləcək Heydər Əliyev kimi liderlər olmamışdır. Ölkəmizin tarixi isə çox vaxt mürəkkəb məqamlardan keçmiş və ən dəhşətlisi, Azərbaycan xalqına qarşı soyqırım, bir qayda olaraq, öz tariximizə qarşı "soyqırım" ilə müşayiət olunmuşdur. Əgər 1993-cü ilin

yayında Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın taleyinin necə olacağını müasirlərimizin çoxu təsəvvürlərinə belə gətirmir.

İndi biz öz keçmişimizi yenidən qazanırıq. Keçmişi məlum olmayan xalqın gələcəyi yoxdur. Biz keçmişdə yol verdiyimiz səhvləri bir daha təkrarlamamaq üçün tarixin ibrət dərslərini dönə-dönə öyrənməli, onun bəzən faciəli, acı və qanlı səhifələrini yenidən vərəqləməliyik ki, gələcəyimiz üçün zəruri dərs alaq. Ermənistanla Azərbaycan arasında bu gün də davam edən münaqişənin mənbələrini hər dəfə təhlil etdikdə, 1905-1906-cı illərin hadisələri diqqəti cəlb edir. Bir sıra mənbələrdə həmin hadisələri "erməni-tatar qırğını" adlandırırlar. Bu hadisələr Azərbaycan xalqının tarixində qanlı, sağalmaz yara kimi qalmışdır. Həmin dövrdə xalqımız bəlkə də ilk dəfə erməni millətçiliyi, erməni terroru ilə bilavasitə üzləşdi. O vaxt erməni dövlətinin əsasına çevrilə biləcək xalis erməni anklavları yaratmaq məqsədilə azərbaycanlıları öz tarixi torpaqlarından zorla qovmaq planı real cizgilər kəsb etmiş və həyata keçirilməyə başlanmışdı. Məhz həmin illərdə daşnaklar Cənubi Qafqazda özlərinin ekspansionist planlarının həyata keçirilməsi üçün əsas vasitə olan güclü və çoxşaxəli təşkilat yaradırlar.

1905-1906-cı illərin qanlı erməni-azərbaycanlı münaqişəsi mövzusu Azərbaycan tarixşünaslığında artıq "qadağan olunmuş" və arzuolunmaz mövzu deyil. Lakin o illərin hadisələri bugünkü Azərbaycan tarixşünaslığında işıqlandırılarkən, çox vaxt elə təsəvvür yaradılır ki, guya həmin hadisələrdə azərbaycanlılar yalnız köməksiz qurbanlar rolunda çıxış etmiş, onların erməni terroruna qarşı

mütəşəkkil müqavimət göstərmək imkanı olmamışdır. Buna görə də mən, ixtisasca tarixçi olan bir şəxs kimi, dəyirmi masanın tapşırığı ilə xalqımızın tarixinin qəsdən unutdurulmuş səhifələrindən birini – erməni terroruna cavab olaraq Azərbaycanda yaradılmış "Difai" (Müdafiə) partiyasının fəaliyyətini ən müxtəlif mənbələrdən toplanmış faktiki məlumatların təhlili və ümumiləşdirilməsi əsasında ideoloji doqmalardan və subyektiv millətçi baxışlardan təmizləyib yenidən işıqlandırmağa cəhd göstərmişəm. "Difai" partiyasının yaranması tarixini və onun fəaliyyətini obyektiv və kifayət qədər əsaslandırılmış şəkildə işıqlandırmaqla mövcud boşluqları doldurmaq, əsl tarixi reallığı yenidən dərk etmək zərurəti bu tədqiqatın əhəmiyyətini və aktuallığını şərtləndirir.

Azərbaycan sovet tarixşünaslığında məhz 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsinə həsr edilmiş fundamental araşdırmalar tapmaq mümkün deyil. 70 il müddətində SSRİ xalqlarının milli tarixinin öyrənilməsinə yuxarıdan müəyyən edilən yanaşma "qaydaları" sovet tarixşünaslığında 1905-1906-cı illər hadisələrinin və bu hadisələrdə milli partiyaların və təşkilatların mövqelərinin reprezentasiyasına çox güclü təsir göstərmişdir. XX əsrin əvvəllərində Rusiya İmperiyasının milli ucqarlarında baş vermiş hadisələr ideoloji diktat və senzur şəraitində yalnız 1905-1907-ci illərin Birinci Rus İnqilabı prizmasından təhlil edilmişdir. Bu baxımdan, millətlərarası münasibətlərlə bağlı süjetlərin müzakirəsində və reprezentasiyasında əsas diqqət çarizmin "parçala və hökm et" siyasətinin mahiyyətinə yönəlirdi. Sovet tarixçiləri XX əsrin əvvəlində erməni-azərbaycanlı münaqişəsinin əsas səbəbi kimi məhz Mərkəzin imperiya siyasətini göstərirdilər.

Tarixi hadisələri təsvir edərkən, hökmən vurğulanırdı ki, bu, iki "qardaş" xalqın "qardaş qırğını" olmuşdur. Ümumiyyətlə, həmin araşdırmalarda bu hadisələr barədə verilən çox cüzi məlumatlar 1905-1907-ci illərdə Rusiyada inqilabi proseslər, bu prosesdə bolşeviklərin yeri və rolu kontekstində təqdim edilirdi. Hadisələrin bu cür interpretasiyası, bir tərəfdən, hamılıqla qəbul edilmiş, sovet tarixşünaslığının dönmədən və dəqiq riayət etdiyi siyasi və ideoloji konyunkturla müəyyən edilirdi. Bu halda münaqişənin səbəblərini hərtərəfli təhlil edib üzə çıxarmağa cəhd göstərilməmişdir, çünki SSRİ ərazisində yaşayan xalqlar arasında dərin ziddiyyətlərin mövcud olması barədə ən cüzi eyhamlar belə, rəsmi ideologiya baxımından qeyri-məqbul hesab edilirdi. Digər tərəfdən, sovet rəhbərliyinin "ədalətli" milli siyasəti müqabilində çarizmin milli siyasətinin imperiya mahiyyətini ifşa etmək zərurəti üzündən, belə qəbul etdirilmişdi ki, baş vermiş münaqişələrin əsas səbəbi mütləqiyyətin qızışdırıcı və təhrikçi siyasəti idi. Rəsmi versiyada deyilirdi: "İnqilabi hərəkatın geniş vüsət almasından təşvişə düşmüş çar hökuməti fəhlə və kəndlilərin sinfi şüurunu kütləşdirmək, onları inqilabi mübarizədən yayındırmaq üçün Azərbaycan və erməni burjuaziyası ilə birləşərək, millətləri münaqişələrə təhrik etməyə başlamışdı".[1] Beləliklə, həmin dövrdə münaqişə tərəflərinin hər ikisində xalqın xeyrinə çıxış edən müxtəlif cərəyanlar və partiyalar millətçi elan edilir və amansız tənqidə məruz qalırdı.

Sovet dövründə siyasi partiyaların və təşkilatların tarixi ilə əlaqədar mövzulara çox diqqət yetirilmirdi. Bu

[1] История Азербайджана. В 3-х томах, т.2. Баку, 1960, с.555.

vəziyyət onunla əlaqədar idi ki, sovet tarixşünaslığında Rusiya İmperiyasının siyasi partiyalarının fəaliyyəti iki tezis əsasında şərh olunurdu: a) tarixi öyrənilməyə layiq olan yeganə partiya Sov.İKP-dir; b) bütün başqa partiyalar isə həm özlərinin proqram-taktiki məqsədlərinə, həm də Rusiyanın tarixində oynadıqları rola görə mürtəce partiyalardır. Tədqiqatlar da məhz bu tezisi təsdiq etməli idi. Siyasi partiyaların tarixinə aid ədəbiyyatın əsas hissəsi bolşeviklərin qeyri-proletar partiyalara qarşı mübarizəsinə həsr edilmişdi. Araşdırmaların əsas məzmunu ondan ibarət idi ki, qeyri-proletar partiyalar lap əvvəldən qüsurlu və bacarıqsızdırlar, bu isə onları labüd olaraq iflasa aparıb çıxardır, leninçi bolşevizm ideyaları isə zəhmətkeşlərin bütün amallarını təcəssüm etdirən, buna görə də uğur qazanacağı əvvəlcədən müəyyən olunmuş ideyaların təntənəsi idi. Nəticədə Azərbaycan tarixşünaslığında Azərbaycanın yeni və ən yeni tarixinin bütün siyasi hadisələri 1991-ci ilə qədər sovet cəmiyyətinin "rəhbər və istiqamətləndirici qüvvəsi" kimi qələmə verilən vahid Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının yaranması və fəaliyyəti fonunda nəzərdən keçirilmişdir. Tarix elminin ideolojiləşdirilməsi, onun birpartiyalı diktata tabe edilməsi son nəticədə elmi tədqiqatlarda siyasi partiyaların təsnifatı stereotipinin yaranmasına gətirib çıxarmışdır. Bu təsnifata görə, bolşevik düşərgəsinə daxil olmayan bütün partiyalar "qeyri-proletar", "burjua" partiyaları adlandırılırdı. Nəticədə Azərbaycanın bütün millətçi və millətçi-demokratik təşkilatları, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş siyasi partiyalar da "əksinqilabçı", "millətçi" partiyalar elan edilmiş, onların ümu-

miyyətlə “xalq düşmənlərindən” ibarət olması təsəvvürü yaradılmışdı. Hətta XX əsrin əvvəlində fəaliyyətdə olmuş milli partiyaların qısa xarakteristikası verilən işlərdə də həmin partiyaların Azərbaycanın siyasi tarixində rolunun obyektiv qiymətləndirildiyini deyə bilmərik. “Difai”, “Müdafiə”, “Müsavat” və başqa milli partiya və təşkilatların fəaliyyəti Azərbaycan xalq kütlələrini həqiqi siyasi mübarizədən yayındırmaq, milli ayrı-seçkiliyi qızışdırmaq, panislamizm ideyalarını yaymaq məqsədi güdən burjua-millətçi hərəkatların təzahürü hesab edilirdi. Müəlliflər 1905-1906-cı illərin qanlı hadisələrində həm “Daşnaksutyun” partiyasını, həm də onun təcavüzünə müqavimət göstərən Azərbaycan milli partiyalarını eyni dərəcədə günahlandırırdılar.[1] Beləliklə, azərbaycanlıların milli mənlik şüurunun oyanması prosesi, milli partiyalar yaratmaq hərəkatı burjua millətçiliyi kimi, Azərbaycan xalqının həqiqi arzuları və amallarına heç bir aidiyyəti olmayan məhdud sinfi mənafelərin təzahürünün nəticəsi kimi qiymətləndirilirdi. Bu qəbildən olan araşdirmalarda qiymətli faktiki materiallar olduğuna baxmayaraq, onlarda sovet ideoloji məqamların üstünlük təşkil etməsi bu tədqiqatların elmi dəyərini azaltmaya bilməzdi. Bununla belə, o dövrdə Milli partiyalar haqqında arxiv materiallarından istifadə olunmasında mövcud olan məhdudiyyətlər bu araşdırmaların müəlliflərini dəlillərə əsaslanmayan nəticələrə gətirib çıxartmışdı.

---

[1] Ибрагимов З. Революция 1905-1907 гг. в Азербайджане. Баку, 1955; Самедов В. Распространение марксизма-ленинизма в Азербайджане. В 2-х частях. ч.2, Баку, 1966; Mustafayev Q. XX əsrin əvvələrində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, 1973

“Difai” partiyasının tarixinin öyrənilməsinə ilk dəfə 1905-ci il inqilabının 20 illiyi münasibətilə Ə. Əhmədovun yazdığı, lakin sovet dövründə dərc edilməmiş monoqrafiyada cəhd göstərilmişdir. Müəllif bu işdə çar arxivlərinin dərc olunmuş və olunmamış zəngin materiallarından, rəsmi hesabatlardan, müxtəlif dövri nəşrlərdən istifadə etməklə, Çar Rusiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətinin bir sıra aspektlərini işıqlandırmış, milli siyasi partiyaların və təşkilatların, o cümlədən “Difai” partiyasının yaranması ilə bağlı bəzi məsələləri açıqlamışdır. Müəllif bu qənaətə gəlmişdir ki, “Difai” ermənilərin “Daşnaksutyun” partiyasının bir növ prototipi olmuş, siyasi mübarizənin taktika və metodlarını bütünlüklə daşnaklardan əxz etmişdir. Ə. Əhmədovun fikrincə, fərq yalnız bundan ibarət idi ki, “Daşnaksutyun” Avropa proletariatını çaşdırmaq məqsədilə öz fəaliyyətində sosializmi əldə bayraq etmiş, “Difai”nin proqramının əsasını isə şəriət prinsipləri təşkil etmişdir.[1] Burada birmənalı şəkildə deyə bilərik ki, müəllifin fikri ilə razılaşmaq çətindir: məlum olduğu kimi, “Daşnaksutyun” lap əvvəldən yeni ərazilər iddiasında olan, terror metodu seçmiş, öz etnosunun müstəsnalığını bəyan edən bir partiya kimi yaranmışdır. “Difai” isə bu hərəkətlərə cavab olaraq, antiterror təşkilatı kimi yaradılmışdır. Bu məqamlar partiyanın adından da, onun fəaliyyət proqramının məzmunundan da görünür. “Difai” partiyasına o dövrün ən yüksək təhsilli, Avropanın ən yaxşı universitetlərini bitirmiş adamlar rəhbərlik edirdi. Onlar sonralar Qafqazda ilk sivil türk dövləti yaratmağı qarşılarına məqsəd kimi qoymuşdular. “Difai”nin proqra-

---

[1] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г. Баку , 2002,с.290.

mının ayrı-ayrı məqamları müsəlman əhalinin əsas kütləsini bu partiyaya cəlb etmək nəzərdə tuturdu. “Daşnaksutyun” o dövrdə həm erməni ziyalıları arasında, həm də geniş xalq kütlələri arasında rəğbət hissi doğuran sosializm şüarlarından həvəslə istifadə edirdi. Lakin əslində onlar bu sosialist anturajından özlərinin məhdud millətçi məqsədlərinə çatmaq üçün istifadə edirdilər. Ölkədə ümumi inqilabi yüksəliş şəraitində “Daşnaksutyun” müvafiq mütərəqqi inqilabi şüarlar irəli sürməsəydi, uğur qazanmağa ümid bəsləyə bilməzdi. Bu fikri təsdiqləmək üçün “Daşnaksutyun” partiyasının 1907-ci ildə qəbul etdiyi minimum proqrama müraciət etmək kifayətdir. Həmin proqramda deyilir: “Daşnaksutyun” “inqilabi və sosialist partiya olmaqla, erməni zəhmətkeş kütlələrinin iqtisadi, siyasi və milli maraqlarını müdafiə etməyi, monarxiyanı xalq hakimiyyəti ilə, kapitalizmi isə əmək alətlərinin və istehsal vasitələrinin sosialistləşdirilməsi ilə əvəz etməyi nəzərdə tutur”. Bundan əlavə, sözügedən proqramda həm fəhlələr, həm kəndlilər, həm də ziyalılar üçün müxtəlif hüquq və azadlıqlara dair bolluca vədlər vardı”.[1] Başqa cür ola da bilməzdi: daşnaklar öz proqramında bütün bu mütərəqqi prinsip və müddəaları təsbit etmədən erməni əhalisinin xeyli hissəsini öz sıralarına heç vaxt cəlb edə bilməz, cəlb etdiklərini də saxlaya bilməzdilər. Lakin bütün bu demokratik vədlər “Daşnaksutyun”un parad fasadından başqa bir şey deyildi, həmin fasadın arxasında isə ermənilərin milli müstəsnalığı barədə iddialar, qonşu xalqlara nifrət hissləri, bu xalqların əraziləri hesabına varlanmaq cəhdləri gizlənirdi.

[1] Дашнаки (Из материалов департамента полиции). Баку, 1990,с. 27-29.

Ə.Əhmədovun həmin əsəri yalnız 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyi bərpa ediləndən sonra işıq üzü görmüşdüsə, XX əsrin 30-cu illərində Bakı şəhərinin 132 №-li orta məktəbinin tarix müəllimi A.Ağalarov tərəfindən yazılmış, “Difai” partiyasının tarixinə həsr edilmiş başqa bir iş isə hələ də nəşr edilməmişdir. Buna görə də həmin tədqiqat üzərində daha ətraflı dayanmağı zəruri hesab edirəm. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivinin fondlarında saxlanılan bu əsər iki mənbə əsasında yazılmışdır: **Azərbaycan Xalq Cümhuriyyətinin** Xarici İşlər Nazirliyi yanında rusların ucqarlarda siyasətinə dair materialların toplanması üzrə Xüsusi Komissiyanın arxiv fondu və 1905-ci ildə senator Kuzminski tərəfindən Bakı şəhərində və Bakı quberniyasında aparılmış təftiş haqqında hesabat. Müəllif özü də etiraf edir ki, tədqiqatın mənbələr bazası bu cür məhdud olduğuna görə, orada “Difai” partiyası haqqında məlumatlar fraqmentar olması ilə fərqlənir. Məsələnin səthi işıqlandırılması müəllifin “Difai” partiyasının yaranmasının ilkin şərtlərini obyektiv araşdırmasına, partiyanın daxili təşkilini və onun fəaliyyətinin xarakterini daha ətraflı işıqlandırmasına imkan verməmişdir. A.Ağalarov partiyanın yaranma səbəblərini, onun məqsədlərini və Azərbaycan xalqının milli hərəkatı tarixində rolunu açıqlayaraq yazır: “Türklər arasında kapitalizmin inkişaf etməsi və sənaye burjuaziyasının yaranması əvvəllər də mövcud olan daha güclü erməni burjuaziyası ilə iqtisadi rəqabəti kəskinləşdirməyə bilməzdi. Bu iki xalqın bir-biri ilə düşmənçilik edən burjua sinifləri, eləcə də çarizmin Zaqafqaziyadakı

siyasəti 1905-1906-cı illərdə milli zəmində toqquşmalara gətirib çıxardı. Bu hadisələr türk burjua mühitində bu diyarın başqa xalqlarına qarşı birləşmək ideyalarının inkişaf etməsinə ciddi təkan verdi”. Müəllifin fikrincə, Azərbaycanda millətçilik ideyalarının inkişafı burjuaziya-nın yaranması ilə əlaqədardır, kapitalist münasibətlərinin inkişafı nəticəsində isə başda iri mülkiyyətçilər olmaqla mili hərəkat yarandı. Müəllif belə hesab edir ki, “Difai” partiyası “ermənilərlə yeni milli toqquşmalar baş verəcəyi təqdirdə türk burjuaziyasının öz mülkiyyətinə və ticarət dövriyyəsinə görə təşviş və qorxu keçirməsi” nəticəsində yaranmışdır və burjuaziya “öz əmlakını əldə saxlamaq və ticarət-sənaye maraqları ilə əlaqədar olaraq azadlıq hərəkatına başçılıq edirdi”. Beləliklə, müəllif “Difai” partiyasının yaranması səbəblərini açıqlayarkən tarixi hadisələrin işıqlandırılmasında marksizm ideologiyası çərçivəsindən kənara çıxa bilməmiş və bu problemə sinfi mövqedən yanaşmışdır. Müəllifin fikrincə, “Difai” öz sosial tərkibinə görə xırda burjua partiyası, “türk ziyalılarının liberal-demokratik əhval-ruhiyyəli hissəsi tərəfindən təşviq edilən və iri kapitalla bir qədər bağlı olan millətçi partiya” olmuşdur. Ağalarov “Difai”ni sözün həqiqi mənasında partiya hesab etmirdi, çünki “onun dəqiq siyasi proqramı, qəti taktikası, aydın partiya xətti yox idi”. Bundan başqa “mövcud olduğu çox qısa dövrdə partiya hələ təşkilatlanma dövrünü keçirir, əsasən türklərin milli həyatının ən ümdə hadisələrinə münasibət bildirirdi”. Müəllif partiyanın öz fəaliyyətinə xitam verməsinin səbəbləri haqqında söhbət açaraq qeyd edir ki, “1905-ci il

inqilabından sonra Rusiyada başlanmış irtica" nəticəsində geniş miqyas almış repressiyalarla yanaşı, "partiyanın əhalidən aldığı güclü töycülər, əhali arasında məyusluq və müqavimətə səbəb olmuş", bu isə partiyanın fəaliyyətinə xitam verilməsində az rol oynamamışdır.[1]

Azərbaycan sovet tarixşünaslığında məxsusi olaraq "Difai" partiyasının tarixinə həsr edilmiş və dərc olunmuş yeganə əsər V.A.Lernerin məqaləsi idi. Bu məqalə sovet ideologiyasının güclü təsiri altında yazılmışdır.[2]

1905-1906-cı illərdə azərbaycanlılarla ermənilər arasında qanlı toqquşmalar "Difai" partiyasının yaradılmasında həlledici rol oynamışdır. Ona görə də bu işdə həmin hadisələrin səbəblərinə toxunmamaq olmaz. Bu gün tarix elmində əvvəllər "sarsılmaz xalqlar dostluğu"na xələl gətirmək cəhdləri ilə əlaqədar ittihamlara təhrik edə biləcək məsələlərə səmimi yanaşmaq mümkündür. Vaxtilə baş vermiş hadisələrin çoxu əvvəlki tarix dərsliklərində və monoqrafiyalarda birtərəfli təsvir edildiyindən tamam başqa şəkildə qarşıya çıxır. O vaxtlar erməni-azərbaycanlı münaqişələri barədə yalnız ötəri, necə deyərlər, sözarası söhbət açmaq olardı.

1905-1906-cı illərin hadisələrinin tarixinə dair tam və

---

[1] Агаларов А. Краткий очерк из истории Тюркской партии «Дифаи» // Государственный Архив Политических партий и Общественных движений Азербайджанской Республики (ГАППОДАР): Ф.456, оп.10, д. 109, л. 1-39.

[2] Лернер В.А. К вопросу о деятельности в Азербайджане буржуазно-националистической организации "Дифаи". Доклады АН Азерб.ССР. т.XXXV. №1. 1979, с.92 -96.

ümumiləşdirici mənbələrdən biri (arxiv materiallarından əlavə) Azərbaycanın görkəmli yazıçısı Məmməd Səid Ordubadinin sənədlər əsasında yazdığı kitab hesab edilməlidir. Bu kitab 1911-ci ildə çap edilmiş, lakin sonralar, sovet hakimiyyəti dövründə təkrar nəşr olunmamış, onun adı heç yerdə çəkilməmişdir, hətta belə bir kitabın mövcud olması faktını da unutdurmağa çalışırdılar. Bu da təəccüblü deyil, çünki həmin kitabda toplanmış faktlar son dərəcə hiddətləndirici olmaqla, sosializmin təbliğ etdiyi Cənubi Qafqaz xalqlarının "əsrlər boyu dost olması" barədə konsepsiyaya əsla uyğun gəlmirdi. Erməni millətçilərinin təqsiri üzündən Azərbaycan xalqının başına gətirilmiş fəlakətlər haqqında qərəzsiz, sözün tam mənasında sənədlərə əsaslanan hekayət oxucunu sarsıdırdı. Bu kitab yalnız 1991-ci ildə təkrar nəşr edilmiş və geniş oxucu auditoriyasının sərəncamına verilmişdir.

M.S.Ordubadinin həmin hadisələrdən dərhal sonra yazılmış kitabının əsasını çoxsaylı şahid ifadələri və 245 müxbir məktubu təşkil edir. Yazıçı hadisələri qərəzsiz mövqedən şərhinə çalışaraq münaqişənin hər iki tərəfinin təqdim etdiyi materiallardan bəhrələnmişdir. Məsələn, Ordubadi 1905-ci ildə Yelizavetpolda baş vermiş qanlı hadisələr haqqında Ələkbər bəy Rəfibəyov tərəfindən ona göndərilmiş materiallardan istifadə etmişdir. O, erməni jurnalisti, Yelizavetpoldakı qanlı hadisələrdə azərbaycanlıları əsas təqsirkar hesab edən İ.Əlibəyovun yazılarına da münasibət bildirmişdir.[1] 1905-1906-cı illərin faciəli hadi-

---

[1] Ordubadi M.S. Qanlı illər. Bakı , 1991, s.89; Алибегов И. Елизаветпольские кровавые дни перед судом общества. http: //www.armenianhouse.org/;

sələrinin canlı şahidi olmuş Ordubadi millətlərarası münaqişələrə və qan tökülməsinə gətirib çıxarmış səbəblər barədə öz mülahizələrini şərh edir: 1) "Daşnaksutyun" partiyasının tətbiq etdiyi despotik idarəetmə üslubu Qafqazda bir sıra qanlı hadisələrə səbəb olmuşdur; 2) münaqişələr dövründə hökumət məmurlarının tam acizliyi; 3) Azərbaycanlıların avamlığı və geridə qalması; 4) ermənilərin muxtariyyət haqqında arzuları.[1]

M.M.Nəvvab 1905-1906-cı illər dövründə Qarabağda baş vermiş hadisələrin canlı şahidi olmuşdur. Bu hadisələr barədə məlumat verən müəllif general-qubernator Qoloşşapovun şəxsiyyəti üzərində ətraflı dayanır, onun Şuşada azərbaycanlı əhaliyə qarşı törətdiyi mənfur əməlləri açıqlayır, icraçıların adını çəkmədən ona sui-qəsd edilməsi faktına toxunur.[2] İnqilabdan əvvəlki dövrdə yazılmış işlər arasında Şərqi Türkiyənin müxtəlif şəhərlərində Çar Rusiyasının vitse-konsul olmuş A.F.Mayevskinin işini də qeyd etmək lazımdır. Bu işin əhəmiyyəti ondan ibarətdir ki, müəllif, Çar Rusiyası hökumətinin mənafelərini təmsil edən məmur XX əsrin əvvəlində azərbaycanlılarla ermənilər arasında qanlı toqquşmaların səbəblərini obyektiv təsvir edir.[3] XX əsrin əvvəlində Şimali Azərbaycanda baş vermiş hadisələr, erməni-azərbaycanlı münaqişələrinin səbəbləri, siyasi partiyaların yaranması məsələləri M.Ə.Rəsulzadə,

---

[1] Ordubadi M.S. Qanlı illər, s. 8-10.
[2] Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993.
[3] Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как, один из фазисов армянского вопроса. Баку, 1993.

M.B.Məmmədzadə, A.Ziyadxanov, N.Şeyxzamanlı (Keykur) və C.Zeynaloğlunun əsərlərində də ətraflı işıqlandırılmışdır.[1]

İ.Bağırovanın əsəri Şimali Azərbaycanda milli siyasi partiyaların tarixinin öyrənilməsində yeni mərhələ olmuşdur. Bu əsərdə ilk dəfə olaraq geniş mənbəşünaslıq materiallarını elmi dövriyyəyə cəlb etmək əsasında 1900-1917-ci illərdə Azərbaycanın siyasi partiyalarının bütün palitrası ətraflı işıqlandırılır.[2] D.B.Seyidzadənin doktorluq dissertasiyası onun hələ sovet dövründə dərc edilmiş, elmdə ideoloji çərçivələrin mövcud olduğu şəraitdə Azərbaycanda burjua hərəkatının əsas problemlərinin tədqiq edildiyi, XIX əsrin sonu - XX əsrin əvvəlində milli burjuaziyanın görkəmli nümayəndələrinin səciyyələndirildiyi monoqrafiyanın məntiqi davamıdır. Dissertasiya işində Çar Rusiyasının siyasi həyatının ən müxtəlif sahələrində Azərbaycan burjuaziyasının fəaliyyəti, onun milli hərəkatda rolu təhlil edilir. Bununla bərabər, müəllif Azərbaycanda milli partiyaların yaranması haqqında xeyli məlumat verir.[3] Müəllif “Difai”, “Müdafiə”, “Müsavat” partiyalarının fəaliyyəti

---

[1] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992; Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992; Ziyadxanov A. Azərbaycan. Bakı, 1993; Şeyxzamanlı (Keykur) N. Azerbaycan istiklal mucadelesinin hatiralari. Bakı, 1997;

[2] Багирова И.И. Политические партии и организации Азербайджана в начале XX века. Баку, 1997.

[3] Сеидзаде Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века Баку, 1978; Её же. Общественно-политическая деятельность азербайджанской буржуазии (1905-февраль1917 гг.). Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1993;

üzərində daha ətraflı dayanır. A.Balayev, X.Məmmədov, H.Baykara və S.Süleymanovanın əsərlərində "Difai" partiyasının yaranması və fəaliyyəti XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələr fonunda işıqlandırılır, bu partiyanın müsəlman əhalinin ermənilər tərəfindən qırılmaqdan qorunmasında, Çar Rusiyasının inzibati orqanlarının repressiyalarından müdafiə olunmasında rolu qeyd edilir.[1]

Postsovet erməni tarixşünaslığında erməni-azərbaycanlı münaqişəsinin səbəbləri izah edilərkən əsas diqqət pantürkizm və panislamizm ideyalarının mövcud olmasına yönəldilir və bu ideyalar nəinki XX əsrin əvvəlində, hətta müasir mərhələdə də iki xalq arasında qanlı qarşıdurmanın əsas mənbəyi kimi təqdim olunur. Ümumiyyətlə, müasir erməni tarixşünaslığı indiki mərhələdə erməni-azərbaycanlı münaqişəsini "1890-cı ildən 1923-cü ilə qədər erməni-türk (osmanlı) düşmənçiliyinin üzvi davamı kimi, Ermənistan-Azərbaycan münaqişəsini isə bu münaqişənin tərkib hissəsi" kimi təqdim edir.[2]

---

[1] Baykara H. Azərbaycan istiqlal mübarizəsi. Bakı, 1992; Məmmədov X. Azərbaycan milli hərəkatı 1875-1918-ci illər. Bakı,1996; Балаев А. Национальное движение в Азербайджане 1917-1918 гг. Баку, 1998; Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvələri) Bakı, 1999; Мусаев Д.М., Раджабов Р.А., Мустафаев Д.М. Из общественно-политической истории Азербайджана XX столетия Баку, 1999.

[2] Айвазян А. Урегулирование карабахского конфликта и стратегическая безопасность Армении, Ереван, 1998, с. 19 ; См: Варданян Т. Коллективная память и репрезентация истории в контексте трансформирующихся потребностей социума. (На основе материалов репрезентации истории армяно-татарских столкновений 1905-1906 гг. в контексте потребностей современного армянского и

Müasir erməni tarixşünaslığı 1905-1906-cı illər hadisələrinin səbəblərini tədqiq edərək, bu nəticəyə gəlmişdir: çarizm etnoslararası ayrı-seçkiliyin şiddətlənməsində qızışdırıcı rol oynamış olsa da, sovet tarixşünaslığı bu məsələdə çarizmin "xidmətlərini" aşkar şişirtmişdir. Erməni müəlliflər öz əsərlərində tarixi faktları təhrif edir, arzu etdiklərini həqiqət kimi qələmə verərək, 1905-1906-cı illərin toqquşmaları dövründə bu və ya digər quberniya, qəza və kəndlərin "dinc erməni sakinləri"nin "qılıncdan keçirilməsi" hallarını əlvan boyalarla təsvir edirlər. Guya bu cür münaqişələr "sivilizasiyadan bixəbər", "vəhşi", "fanatik", "cahil" tatarlara (azərbaycanlılara) xas olan davranışın nəticəsidir. Müasir tarixşünaslıqda, xüsusən publisistlər və yazıçılar arasında belə bir tezis üstünlük təşkil edir ki, əgər ermənilərlə azərbaycanlılar arasında etnik uyuşmazlıq olmasaydı, onları bu cür qanlı hadisələrə təhrik etmək mümkün olmazdı.[1] Erməni millətçiləri ermənilərlə azərbaycanlıların milli uyuşmazlığı barəsində bu cür ritorika vasitəsilə bu gün Dağlıq Qarabağ ətrafında yaranmış ərazi-etnik, mahiyyət etibarilə geosiyasi münaqişəni bir-birini qarşılıqlı istisna edən iki milli identikliyin və hətta iki dini konfessiyanın münaqişə forması kimi qələmə verməyə çalışırlar. Bu cür mühakimələrdən irqçilik qoxusu gəlir, çünki təbiətdə etnoslararası uyuşmazlıq yoxdur. Uyuşmazlıq ideyası siyasi düşmənlər tərəfindən və hadisələrin məcmusunun təsiri ilə süni şəkildə yaradıla bilər. Nəzərdən keçirdiyimiz dövrdə

---

азербайджанского социумов): http: //old.eu.spb.ru/reset/files/vardanyan.pdf

[1] Шехтман Б. Пламя давних пожаров. Опубликовано в журнале "Pro Armenia" (Москва), 1992-1993 гг. http: //www.armenianhouse.org/shekhtman/docs-ru/result.html

Qafqazın bütün müsəlman xalqları imperiyanın və erməni millətçilərinin nəzərində düşmən kimi qələmə verilmiş, bu xalqların hamısı həmin qarşıdurmada müəyyən dərəcədə iştirak etmişlər. XVIII əsrdə xristian din xadimlərindən biri yazırdı: “Qədim kitablarda xonlar, sonradan isə ləzgilər adlanan lek tayfası lap əvvəldən bizim Atropatakan ölkəsinin, erməni xalqının və bizim dinimizin təbii düşmənləridir”.[1] Göründüyü kimi, hətta çoxsaylı başqa fikirlərdə Qafqaz müsəlmanlarına münasibətdə onların “düşmən” adlandırılması adi hal idi, qarşı tərəfdən isə bu cür münasibətin əlamətləri müşahidə edilmir.

Haqqında söhbət gedən münaqişələr zamanı regionda ermənilərə qarşı ənənəvi “oyunçu” və özünün əsas müttəfiqi hesab etdiyi Zaqafqaziya tatarlarının (azərbaycanlıların. – **Müəllif**) Türkiyə tərəfindən açıq dəstəklənməsi mövzusuna erməni tarixşünaslığında xüsusi diqqət yetirilir.[2] Bu qəbildən olan yazılarda XX əsrin əvvəlində münaqişə tərəflərinin davranışının tarixi sələfliyi məsələsinə xüsusi diqqət yetirilir və Qarabağ münaqişəsi ilə paralel müqayisə aparılır. Bildirilir ki, hərbi əməliyyatların təşəbbüsçüsü olmayan erməni tərəfi gərginliyin şiddətlənməsi prosesində özünün qüvvələrini və resurslarını uğurlu müdafiə və əks-hücum əməliyyatları üzərində cəmləşdirə bilmişdir. Müasir erməni publisistikasında və elmi ədəbiyyatda 1905-1906-cı illər hadisələrinin reprezentasiyası

---

[1] Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722 гг.). Редактор акад. З.М. Буниятов, Баку, Элм. 1989, 48 с.; http: // www.preslib.az/ru/view/ebooks/kh/

[2] Варданян Т. Проявление татарского национализма в Закавказье в начале 20-го века, Вестник Ереванского госуниверситета, Ереван, 2000, с.3 http: //old.eu.spb.ru/reset/files/vardanyan.pdf

sovet dövrünə xas olan “sinfi” xarakter əvəzinə, aşkar milli cizgilər kəsb edir. Erməni tarixşünaslığında “özlərini türklərin hücumlarından qorumaq məcburiyyətində qalmış sülhsevər və daha sivil erməni” modelinin qavranılmasını fəallaşdıran məqamlara xüsusi diqqət yetirilir (burada türklər, tatarlar, azərbaycanlılar vahid müstəvidə qəbul edilirlər).

Müasir mərhələdə erməni tarixşünaslığı “Daşnaksutyun” partiyasının fəaliyyətini qəhrəmanlıq kimi təsvir edir, halbuki erməni sovet tarixşünaslığında bu məsələ vaxtilə tamam əks mövqedən şərh olunurdu. Erməni tarixçisi Q.Simonyan yazır: “Erməni xalqının “Daşnaksutyun” kimi bir inqilabi təşkilati “öz ağuşunda qoruyub saxlaması” erməni xalqı üçün taleyüklü bir təsadüf idi. Dəhşətli fəlakətlər dövründə “Daşnaksutyun” vəziyyəti düzgün qiymətləndirmiş, öz missiyasını dərk etmiş və heyrətamiz bir çevikliklə özünün bütün qüvvələrini Qafqaz ermənilərinin xilas edilməsi işinə yönəltmişdir”.[1] Burada əsas diqqət belə bir tezisə cəlb edilir ki, məcburi, lakin uğurlu özünümüdafiə münaqişə tərəflərinin sosial-iqtisadi, siyasi və mədəni inkişaf səviyyəsinin müxtəlif olmasının nəticəsidir. Erməni tədqiqatçılar qərb müəlliflərinin Rusiya İmperiyasında yaşamış müsəlmanların (həm Zaqafqaziya, həm də Krım mənşəli müsəlmanların) milli mənlik şüuru-

---

[1] Симонян Г. На путях освободительной борьбы, в 4-х книгах, кн. 1, Ереван, 2003, с. 312 См: Варданян Т. Коллективная память и репрезентация истории в контексте трансформирующихся потребностей социума. (На основе материалов репрезентации истории армяно-татарских столкновений 1905-1906 гг. в контексте потребностей современного армянского и азербайджанского социумов): http: //old.eu.spb.ru/reset/files/vardanyan.pdf

nun dirçəlməsi proseslərinin öyrənilməsinə həsr edilmiş əsərlərindən sitatlar gətirirlər. Həmin müəlliflər bu yolla “Daşnaksutyun” partiyasının və onun sözügedən qanlı hadisələrə görə birbaşa məsuliyyət daşıyan silahlı qruplarının törətdiyi cinayətləri gizlətməyə çalışırlar. 1905-1906-cı illər hadisələrinin reprezentasiyasında sadalanan bütün aspektlər erməni müəlliflər üçün son iyirmi ildə Qarabağda davam edən Ermənistan-Azərbaycan münaqişəsini “tarixin təkrarlanması” kimi qələmə vermək məqsədilə istifadə olunan çox güclü təbliğat vasitəsidir.

Postsovet Rusiya tarixşünaslığında da Rusiya İmperiyasında milli məsələnin həllinin dolğun tarixi mənzərəsini yaratmağa cəhdlər olmuşdur. Bəzi mütəxəssislər Rusiya İmperiyasının inkişafında milli problemlərin rolunu Rusiya İmperiyası ərazisində etnoslararası münaqişə məsələləri kontekstində nəzərdən keçirirlər. Tədqiqatçılar Rusiya İmperiyasında etnoslararası ziddiyyətlərin öyrənilməsi çərçivəsində, əvvələn, millətlərarası ziddiyyətlərin səbəbləri və onların polietnik dövlətin davamlılığına təsiri barədə suallara cavab verməyə və ikincisi, etnoslararası münaqişələrdə iqtidarın davranışını təhlil etməyə çalışırlar. Məsələn, L.S.Qataqova öz məqaləsində XX əsrdə Qafqazda etnik ziddiyyətlər yaranmasının aşağıdakı əsas səbəblərini göstərir: coğrafi amillər (ərazinin məhdudluğu), sərt təbii-iqlim şəraiti, etnik amillər (eyni ərazidə məskunlaşmış etnosların çox olması), konfessional amillər (xristianlıqla islamın həddən artıq yaxın qonşuluğu), köçürmə siyasəti (torpaq məsələsində köçkünlərə güzəştlər və həvəsləndirmələr sistemi hesabına yerli əhalinin torpaq hüquqlarının tapdalanması), elitaların qarşılıqlı təsiri və s. Müəllifin çıxardığı nəticə maraqlıdır: onun fikrincə, Qafqazda etnik

münaqişələr etnoslardaxili parçalanmanı aradan qaldırmağa, etnosların birləşməsinə və etnik mənlik şüurunun inkişafına kömək etmişdir. Bununla bərabər, müəllif qeyd edir ki, imperiya hakimiyyətinin bu münaqişələri qızışdırmağa obyektiv marağı yox idi və çox vaxt hökumətin yeritdiyi xətt, daha doğrusu, məmurların bu və ya digər oriyentasiyası, onların səriştəsiz və yöndəmsiz hərəkətləri münaqişələr üçün ciddi əsasların mənbəyi olurdu. [1] Y.Vorobyova "özgə xalqın nümayəndəsi" termininin məzmununu və Rusiya İmperiyasında onun inkişaf yolunu təhlil etmişdir. Müəllifin fikrincə, hakim dairələrdə özgə xalqın nümayəndələri ilə bağlı bu və ya digər məsələnin vaciblik dərəcəsi qiymətləndirilərkən, onların həmin məsələyə münasibəti bütövlükdə siyasi xətti əks etdirmir və ayrı-ayrı etnoslar mühitində hökumətə qarşı əhval-ruhiyyənin inkişaf dərəcəsindən asılı olurdu, çünki məhz həmin etnoslar hakimiyyətin nəzərində dövlətin vəhdəti üçün daha təhlükəli hesab edilirdi. Müəllif belə hesab edir ki, XX əsrin əvvəlində hökumətin mövqeyi daha da müəyyənləşmişdir. Bu dövrdə özgə xalqın nümayəndələri 1905-ci il inqilabının sınağından keçmiş, onların ölkənin siyasi həyatında iştirak etmək imkanları "yoxlanmış", bu inqilab hakim dairələrin nəzərində bir növ loyallıq testi olmuşdur. Vorobyova yazır ki, "İqtidarın fikrincə, özgə xalqın nümayəndələri arasında ən az təhlükə mənbəyi sayılan müsəlmanlar idi. Hökumət bunu polyaklar, ermənilər, finlər, almanlarla müqayisədə müsəlmanların "mədəni geriliyi" ilə izah edirdi. Bu "mədəni gerilik" nəticəsində müsəlmanlar millətçilik, yəni "separatist" ideyalara

---

[1] Гатагова Л.С. Кавказ после Кавказской войны: этноконфликтный аспект // Россия и Кавказ сквозь два столетия. М., 2001. с. 47 - 57.

başqalarından az "yoluxmuşdu", müsəlman əhali arasında solçular, demək olar ki, yox idi. Bununla əlaqədar, müsəlman məsələsi hökuməti digər "özgə xalqların nümayəndələri" ilə bağlı məsələlərdən xeyli az narahat edirdi".[1] Lakin çar hökuməti yaxşı başa düşürdü ki, xalqlar arasında müəyyən gərginlik saxlamaq, bu halda arbitr rolunda çıxış etmək zəruridir, çünki əks halda getdikcə genişlənməkdə olan sosial-demokratiya ideyaları artıq hər yerdə bu və ya digər dərəcədə bərqərar olmaqda idi. Ümumiyyətlə, rusiyalı müəlliflərin əsərlərində əsas tədqiqat obyektləri, ilk növbədə, ruslarla "özgə xalqın nümayəndələri" arasında münaqişə vəziyyətləridir. Başqa etnoslar arasında ziddiyyətlər isə praktiki olaraq öyrənilmir. Halbuki imperiya bu cür münaqişələri müəyyən dərəcədə dəstəkləyir ki, həmin etnoslar birləşməsinlər.

Sovet tarixşünaslığı yetmiş il müddətində XX əsrin əvvəlində baş vermiş hadisələrin, ilk növbədə ermənilərlə azərbaycanlılar arasında münasibətlərin işıqlandırılmasında xarici müəlliflərin işlərini kəskin tənqid etmiş, onlara "burjua saxtakarları" damğası vurmuş, tarixi proseslərə xarici tədqiqatçıların obyektiv baxışı isə həmişəlik bərqərar olmuş faktların qəsdən təhrif edilməsi kimi qələmə verilmişdir. Sovet dövründə xüsusi fondlarda saxlanılan və geniş oxucu kütləsi üçün əlçatmaz olan bu işlər Şimali Azərbaycanın müstəqilliyi bərpa ediləndən sonra elmi dövriyyədə çox populyarlaşmışdır. Lakin bu dəfə əks meyl

---

[1] Воробьева Е.И. (Кэмпбелл) «Единая и неделимая Россия» и «инородческий вопрос» в имперской идеологии самодержавия // Пространство власти: исторический опыт России и вызовы современности. М., 2001; http: //www.policy03.narod.ru

müşahidə olunurdu: həmin işləri dərindən təhlil etmədən, onları ideallaşdırmağa cəhd göstərilirdi. Müasir dövrdə Azərbaycan tarixinin bizi maraqlandıran dövrünə aid problemləri həmin müəlliflərin əsərlərindən istifadə etmədən araşdırmaq ağlabatmazdır. Lakin həmin əsərlərin bütün üstünlüklərinə baxmayaraq, onların da müəyyən nöqsanları vardır. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, sovet arxivlərindən istifadə etmək imkanları məhdud olan əcnəbi müəlliflər Azərbaycan tarixinə dair dərin araşdırmalar aparmaq imkanından məhrum idilər.

Əsərləri milli demokratik hərəkata, o cümlədən XX əsrin əvvəlində Azərbaycanın siyasi partiyalarının tarixinə həsr edilmiş müəlliflər arasında amerikalı tədqiqatçı T.Sventoxovskinin adı xüsusi qeyd edilməlidir. Sventoxovskinin fikrincə, “Difai” partiyası əsasən antirusiya xarakterli fəaliyyəti ilə Şamil dövründən sonra heç bir mütəşəkkil müqavimət görməmiş bir ölkədə çar rejiminə uzun illər dinməzcə itaət edilməsinə son qoymuş oldu. Müəllif “Difai” partiyasının yaranması səbəblərini açıqlayaraq, qeyd edir ki, daşnakların ali təşkilatının mövcud olması və rus-erməni alyansının təhlükəli reallığa çevrilməsi azərbaycanlıları bu təhlükəyə qarşı müqavimət göstərmək üçün gizli siyasi təşkilat yaratmağa sövq etmişdir. Lakin Sventoxovskinin bu fikri tamamilə əsassızdır ki, guya “Difai” partiyasının fəaliyyətində bütün Zaqafqaziya xalqlarının birliyi ideyası aşkar nəzərə çarpırdı; guya partiyanın əsas üzvləri daşnak partiyasının nümayəndələri ilə əlaqə saxlayırmış; bir-biri ilə düşmənçilik edən, siyasi cəhətdən təşkilatlanmış bu iki qrup Zaqafqaziya xalqla-

rının birliyinə nail olmaq yolu ilə rus işğalından xilas olmaq ideyasında bir-biri ilə dil tapa bilmişdir.[1]

Amerikalı tədqiqatçı Odri Olştadt erməni-azərbaycanlı qarşıdurmasının səbəblərini təhlil edərək yazır ki, Bakının və bütövlükdə Azərbaycanın sərvətlərinə əslində azərbaycanlılar nəzarət edirdi. Lakin, müəllifin fikrincə, erməni köçkünlərinin buraya axını və azərbaycanlılara qarşı milli ayrı-seçkilik siyasəti onların gərginliyinə və narazılığına səbəb olmuşdu. Olştadt daha sonra yazır: "Ermənilər ruslarla xüsusi münasibətləri olan varlı etnik azlıq idi, imperiya qanunları azərbaycanlılarla müqayisədə ermənilərə daha çox üstünlük verirdi. Ermənilərin çoxu inzibati və məhkəmə aparatında xidmət edirdi, halbuki azərbaycanlıların (ümumiyyətlə müsəlmanların) dövlət vəzifələri tutması qadağan edilmişdi. XIX əsrin ortalarında Abşeronda başlanmış neft bumu nəticəsində Bakı çoxsaylı erməni əməkçi miqrantları özünə cəlb etmişdi. Milyonçu erməni neft sənayeçilərinin (Mantaşev, Qukasov və başqaları) meydana çıxması iqtisadi rəqabəti daha da kəskinləşdirmişdi. Nəhayət, Olştadtın fikrincə, "hər iki xalqın – həm azərbaycanlıların, həm də ermənilərin arasında siyasi hərəkatın və milli ideyaların formalaşması

---

[1] Svyatoçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000; Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http: //www.kitabxana.org/site/sventoch. htm; Его же. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане. Азербайджан и Россия: общества и государства / Отв. ред. и сост. Д. Е. Фурман.М., 2001; http: //www.sakharov-center.ru/publications /azrus/az_002.htm

prosesi gedirdi. Fərq ondan ibarət idi ki, azərbaycanlılar öz məqsədlərinə rusların, ermənilər isə azərbaycanlıların hesabına çatmaq istəyirdilər”.[1]

“Difai” partiyasının yaranması və fəaliyyəti tarixini, eləcə də Cənubi Qafqazda millətlərarası münasibətlərin tarixini öyrənərkən mənbə bazasının spesifikasını nəzərə almaq zəruridir. Tədqiq edilən mövzu üzrə mənbələrin əsas hissəsi Azərbaycan Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivinin (ADSPİHA) və Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) fondlarında cəmləşmişdir. Tədqiq edilən dövrün siyasi şəraitini, “Difai” partiyası, onun liderləri, partiyanın ayrı-ayrı regionlarda fəaliyyət göstərmiş bölmələri haqqında məlumat almaq üçün Yelizavetpol Qubernatorunun Dəftərxanasının ARDTA-da saxlanılan fondları və başqa mənbələr də faydalıdır. “Difai” partiyası haqqında məlumatlar, bir qayda olaraq, sənədlərdə, ilk növbədə Cənubi Qafqazda asayişin və siyasi sabitliyin vəziyyətinə görə bilavasitə məsuliyyət daşıyan çar administrasiyası orqanlarının – Daxili İşlər Nazirliyinin və onun müvafiq strukturlarının sənədlərində əks etdirilmişdir. Yerlərdən hazırlanmış icmallarda, müxtəlif səviyyəli məmurların sərəncamlarında və yazışmalarında, yerli administrasiya nümayəndələrinin sənədlərində “Difai” partiyasının fəaliyyətinə hakim strukturların münasibəti haqqında, partiyanın fəaliyyətinə münasibətdə inzibati orqanların siyasətinin formalaşması mexanizminin elementləri haqqında məlumatlar vardır. Bu

---

[1] Шафиев Ф. Истоки армяно-азербайджанского конфликта: события 1905-1906 годов / Журнал «Ирс-Наследие», 2008,№ 4 (34), с.49-51.

sənədlərdə partiyanın yaranması və onun kütlələrə təsirinin artmasının səbəbləri haqqında müəyyən analitik material verilir, partiyanın gələcək addımlarını proqnozlaşdırmağa cəhd göstərilir. Bu yazışmaların müəlliflərinin rəsmi hakim dairələrə mənsub olması həmin informasiyanın məzmununa, onun interpretasiyasına təsir göstərir və buna görə də müvafiq mənbələrə tənqidi yanaşma tələb olunur, çünki burada müəlliflərin sosial statusu, onların siyasi simpatiyaları, ideya məqsədləri, təhsil və mədəni səviyyələri kimi amillər böyük əhəmiyyət kəsb edir. Zaqafqaziyaya aidiyyəti olan sənədlərin çoxu Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin sərəncamı ilə Arslan Kriçinski tərəfindən toplanmış və "Zaqafqaziyada rus siyasətinə dair sənədlər" adlı bu məcmuənin 1-ci buraxılışı 1920-ci ildə Bakıda nəşr edilmişdir. Polismeysterlərin, Daxili İşlər Nazirliyinin qəza bölmələrinin rəislərinin Yelizavetpol və Bakı quberniyalarının qubernatoruna ünvanlanmış, əksər hallarda "tam məxfi" qrifli məruzələrinə əsaslanan bu sənədlər məcmuəsi bölmələr üzrə qruplaşdırılmışdır: milli hərəkatlar, millətlərarası münaqişələr və s. Hazırda həmin məcmuənin materialları Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin 524-cü fondunda saxlanılır.

## XX əsrin əvvəlində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri

XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiya böyük dünya dövləti idi. Onun ərazisi Yer kürəsinin quru hissəsinin altıda bir hissəsinə bərabər, əhalisi isə 130 milyon nəfərə yaxın idi (1913-cü ildə əhalinin sayı 160 milyondan artıq olmuşdur). Əhalinin təqribən 90%-i kənd yerlərində yaşayırdı. Rusiyanın əhalisi etnik və konfessional tərkibinin son dərəcə müxtəlif olması ilə fərqlənirdi (ölkədə yüzdən çox millət və xalq yaşayırdı). Rusiya kəskin sosial və mədəni təzadlar ölkəsi, ifratlıqlar ölkəsi idi.[1]

Siyasi baxımdan, XIX əsrin axırları – XX əsrin əvvəllərində Rusiya çarın qeyri-məhdud və mütləq hakimiyyətə malik olduğu monarxiya idi. Siyasi partiya və təşkilatlara gəldikdə, onlar yalnız qeyri-leqal şəkildə yaranıb mövcud ola bilərdi. Onlar hakimiyyət orqanları tərəfindən hər cür təqiblərə məruz qalırdı[2].

Çar hökuməti dünya imperiyaları üçün ənənəvi kursa – Rusiya zadəganları sırasına daxil olan yerli milli elitalarla əməkdaşlıq kursuna sadiq idi.

XX əsrin əvvəlində Rusiyada millətlərarası münasibətlərin inkişafını müəyyən edən şərtləri nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısında həyata

---

[1] Политические партии России: история и современность. – М.: 2000, с.73

[2] Политические партии России: история и современность. – М.: 2000, с.74

keçirilmiş məlum islahatlar nəticəsində kapitalizmin sürətlə inkişaf etməsi silklərin sosial strukturunda ciddi dəyişikliyə və ölkədəki etnosların əksəriyyətinin həyat fəaliyyətinin əsaslarının qeyri-müntəzəm modernləşməsinə səbəb olmuşdu. Bu isə mənəvi sahədə və ənənəvi şüurda dəyişikliklərlə yanaşı, millətlərarası münasibətlərdə ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarırdı. Milli kütlələrin əhvalı, onların sosial-iqtisadi vəziyyəti, hüquqi statusu, mədəni səviyyəsi, mənəviyyat və din sahələri, milli hüquq və mənafelərin reallaşması – bütün bunlar bilavasitə hökumətin daxili siyasi kursundan, cəmiyyətin aparıcı siyasi qüvvələrinin mövqeyindən, eləcə də Rusiyanın bu və ya digər xalqının məxsusi milli özünüidentifikasiya səviyyəsindən asılı idi. İmperiya rejimi tarixi təşəbbüsü əldən vermişdi və indi onun fəaliyyəti özünü dağıtmağa yönəlmişdi. Rejim ölkəni ənənəvi metodlarla idarə etməkdə davam edir, bu isə onunla bütün müxalifətçi qüvvələr, o cümlədən millətçi qüvvələr arasında qarşıdurmanı dərinləşdirirdi. Dərin ziddiyyətlər cəmiyyət həyatının bütün sahələrinə nüfuz edir, etnoslararası münasibətlərə həm birbaşa, həm də dolayı yolla təsir göstərirdi. Siyasi hadisələr - 1905-ci ildən başlayan inqilabi sarsıntılar və bunun ardınca siyasi sahədə, iqtisadiyyatda çox məhdud dəyişikliklər, səfərbəredici etnik proseslərin fəallaşmasında və münaqişənin kəskinləşməsində az rol oynamırdı. Məlum olduğu kimi, Rusiya imperiyasının qanunvericiliyində milli mənsubiyyət əlamətinə görə formal hüquqi məhdudiyyətlər, demək olar ki, yox dərəcəsində idi. Konfessional fərqlərə və dövlət dilini (rus dilini) bilmək dərəcəsinə görə hüquqi məhdudiyyətlər tətbiq edilirdi. Lakin konfessional fərqlər əsas etibarilə milli fərqlərlə üst-üstə

düşdüyündən, müxtəlif məhdudiyyətlər və təzyiqlər etnik istiqamət alır və dövlətlə “yadellilər” arasında münasibətlərdə neqativ amilə çevrilir, onlar da həmin məhdudiyyətləri ayrı-seçkilik kimi qəbul edirdi. Ümumiyyətlə, hakim dairələrin bu və ya digər “yadellilərə” münasibətdə siyasəti əsas etibarilə onların mühitində milli ideyaların nə dərəcədə inkişaf etməsindən asılı idi, çünki hakimiyyət məhz “yadelliləri” dövlətin birliyi üçün ən təhlükəli ünsür hesab edirdi.

Sözün geniş mənasında, İmperiyanın qeyri-slavyan mənşəli təbəələrinin hamısı “yadelli” hesab edilirdi. Müsəlmanlar, o cümlədən azərbaycanlılar məhz bu qrupa daxil idi. Xristian məzhəbli qeyri-slavyan xalqlar, o cümlədən gürcülər, ermənilər, baltikyanı bölgədəki etnoslar bu iki qrup arasında orta mövqe tuturdu. İnkişafın və özünüidentifikasiyanın müxtəlif mərhələlərində olan “yadellilər” müxtəlif sivilizasiya birliklərinə mənsub olmaqla ümumrusiya orqanizminə inteqrasiya səviyyəsinə görə bir-birindən fərqlənirdi. Belə ki, xristian “yadellilər” sırasından olan ali silkin nümayəndələri rus zadəganları ilə bərabər hüquqlarla yerli administrasiyada iştirak edir, bəzi hallarda burada sanballı təsir gücünə malik olurdu. Onlar yüksək dövlət məmuru vəzifələrinə yiyələnir, orduda yüksək vəzifələr tutur, vahid dövlət iyerarxiyasına daxil olur və özləri “rus hakimiyyətinə” çevrilirdi. Üstəlik, ermənilər qəbilindən olan xristian xalqlar özləri istilaçı hesab edilə bilərdi, çünki onlar Cənubi Qafqazın rus ordusu tərəfindən işğal olunmasında, sonra Qafqazın ram edilməsində, daha sonra rus-türk müharibəsində fəal iştirak etmişdi. Bu müharibədə Qafqaz ordusundakı komanda mövqelərinin xeyli hissəsini ermənilər tutmuşdur. Bu isə onlara sadəcə

ruslarla eyni hüquqlar deyil, həm də rus statusu verirdi. Xristian yadellilərin bu hissəsindən fərqli olaraq, imperiyanın müsəlman əhalisində “vətəndaşlığın kifayət qədər inkişaf etməməsi” bəhanəsi ilə onların bir sıra hüquqları məhdudlaşdırılmışdır. Bu məhdudiyyətlər azərbaycanlılara da tamamilə şamil edilirdi. Nəticədə onlar bir sıra siyasi, mülki və dini hüquqlardan məhrum edilmişdilər. Mülki və hərbi idarələrin bütün müəssisələrində yüksək vəzifələr azərbaycanlılar üçün əlçatmaz idi. Rusiya İmperiyasında ayrı-ayrı millətlərin vəziyyətində və mənafelərində bu cür fərqlər və nəticə etibarilə onların milli-siyasi səylərinin üst-üstə düşməməsi çox vaxt onların qarşılıqlı münasibətlərində ciddi problemlər yaradırdı.

Qafqaz kimi polietnik regionlarda sosial münaqişələr millətlərarası münaqişələrlə sıx əlaqəli idi. Burada millətlərarası toqquşmalara gətirib çıxaran münaqişələrin iştirakçıları ən müxtəlif cins-yaş qruplarının, sosial silklərin və siniflərin nümayəndələri idi. Münaqişənin predmeti müxtəlif mülkiyyət növləri – torpaq, otlaqlar, mal-qara, şəxsi əmlak, habelə ənənələr, mərasimlər və adətlər, ticarət, şəxsi münasibətlər ola bilərdi. Əksər hallarda millətlərarası qarşıdurmanın mərkəzində ərazi və sərhəd, hakimiyyətə münasibət, məktəb və ümumiyyətlə təhsil, dil, qanunvericilik və din, yerli özünüidarə orqanlarında təmsil olunma və bu orqanların özlərinin vəziyyəti, kadr siyasəti olurdu. Bəzi hallarda milli təşkilatların üzvləri münaqişələrin subyektlərinə çevrilirdi. Eyni zamanda bir sıra hallarda məhz milli təşkilatlar qarşıdurma vəziyyətində olan tərəfləri barışdıran üçüncü qüvvə rolunda çıxış edirdi. Maarif, təhsil və mədəniyyət sahəsində, mənəviyyat və siyasət sahəsində, daha az hallarda isə iqtisadi sahədə fəaliyyət

göstərən təşkilatlar milli tələblər irəli sürdükdə onlar hakimiyyətlə münaqişənin subyektlərinə çevrilirdi. Belə münaqişələrdə tərəflərdən biri kimi çox vaxt hakim rejimi təcəssüm etdirən müxtəlif dövlət təsisatları çıxış edirdi[1].

Münaqişə geniş miqyas alaraq talançılıq və ya silahlı çıxışlar həddinə çatdıqda həmin münaqişələri yatırmaq üçün hökumətin cəlb etdiyi hərbi hissələr münaqişənin qeyri-rus iştirakçılarının nəzərində rus hakimiyyətini təcəssüm etdirən yeni subyekt kimi qəbul edilirdi. Nəticədə bir sıra münaqişələr hakimiyyətlə etnos arasında qarşıdurma xarakteri kəsb edir, başqaları isə (milli mənafelər və tələblər lap əvvəldən müəyyən təşkilatların çıxışlarının məqsədi olduğu hallarda) bilavasitə dövlətlə onun tərkibinə daxil olan xalqlar arasında münasibətlərə aid olurdu. İmperiyanın milli rayonlarında hakimiyyət orqanları tərəfindən dinc əhaliyə münasibətdə zorakılıq aksiyaları, hətta bu zorakılıqlara qanunun pozulması, vergi ödəməkdən, digər zəruri mükəlləfiyyətlərin yerinə yetirilməsindən imtina edilməsi ilə haqq qazandırmış olsa belə, labüd olaraq xalqların dövlətə yabançı münasibətini gücləndirirdi. Mərkəzi və regional elitalar da, öz növbəsində, etnoslararası münasibətlərdə deviant əhval-ruhiyyələrdən və münaqişəli vəziyyətlərdən özlərinin tamahkar məqsədlərinə nail olmaq üçün, hakimiyyətə və resurslara yiyələnmək uğrunda mübarizə üçün bir vasitə kimi istifadə edirdilər.

---

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/ Aman_IstKonf.php

1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi əslində elə bir qarşıdurma idi ki, onun iştirakçıları üçün etnik mənsubiyyət və maraqlar, üstünlüklər ya lap əvvəldən, ya da münaqişə genişləndikcə, əhəmiyyət kəsb edir və ya prioritet olurdu. Bu, tərəflərin bir-birinə təqdim etdiyi iddiaların motivasiyasında ifadə olunurdu. Həmin iddiaların məzmunu bəzən tərəflərin aqressivlik dərəcəsinə, münaqişənin ifadə və həll formasına birbaşa təsir göstərirdi. Hər iki xalqın milli xarakteri, milli davranış stereotipləri, dünyagörüşü, özü barədə rəyi, adət və ənənələri, etnik-mədəni və konfessional xüsusiyyətləri, tarixi yaddaşı və birgə yaşayış təcrübəsi münaqişənin bütün mərhələlərində mühüm rol oynayırdı.

XX əsrin əvvəlində Rusiya İmperiyası Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı işğal etməyə başlayarkən ermənilərə böyük ümid bəsləyirdi. Bu seçim heç də təsadüfi deyildi. Birinci növbədə, **müsəlman Şərqinin xristian əhalisinin** əhəmiyyətli hissəsini təşkil edən ermənilər, əsasən, Rusiya İmperiyasının Qafqaz uğrunda mübarizədə əsas rəqibləri olan İranın və xüsusən Osmanlı dövlətinin ərazisində yaşayırdı. İkincisi, ermənilər gələcəkdə bu rəqiblərlə Rusiyanın rəqabətində faydalı ola bilərdi, çünki onlar İran və Osmanlı dövlətlərinin daxilinə, onların bütün zəif və güclü cəhətlərinə bələd idi. Rusiya dövlət xadimləri hələ Şimali Azərbaycanın işğalından əvvəl bu şərq xristianlarını Qafqaza köçürmək fikrinə düşmüşdülər. Rusiya hökuməti hələ rus çarı I Pyotrun vaxtından İrana və Türkiyəyə qarşı yönəlmiş geostrateji planlarında erməniləri özlərinin etibarlı dayağı hesab edirdilər. Rusiya İmperiyası hələ o vaxt Türkiyə və İranla sərhəddə ermənilərdən, assuriyalılardan və başqa xristian

xalqlardan ibarət bufer yaratmaq siyasəti yeridirdi. İtalyan tədqiqatçısı Luici Villari yazırdı: “Məkrli Romanov özünün Yaxın və Orta Şərq siyasətini həyata keçirmək üçün Türkiyə və İranda geniş məskunlaşmış erməni xalqını lazımi anda bu dövlətlərə qarşı istifadə edilə biləcək faydalı vasitə hesab edirdi”[1].

Buna görə də 1722-1723-cü illərdə Xəzər sahillərini işğal etmiş I Pyotr tezliklə erməniləri orada məskunlaşdırdı. Bu məqsədlə I Pyotr 1722-ci ildə Kartliyə (Gürcüstan) göndərilmiş podporuçik N.Tolstoya tapşırmışdı ki, orada Dərbənd və Şamaxı həndəvərinə köçüb getmək istəyən sakinlər olub-olmadığını öyrənsin. O belə hesab edirdi ki, ermənilərin Xəzər sahillərində məskunlaşdırılması Rusiyanın Qafqazda ələ keçirdiyi ərazilərin əldə saxlaması üçün ən yaxşı vasitədir. 1724-cü il sentyabrın 24-də İmperator İstanbula elçi göndərilmiş A.Rumyantsevə göstəriş vermişdi ki, erməniləri dilə tutaraq Xəzəryanı ərazilərə köçməyə razı salsın. Bu halda yerli sakinlər oradan köçürülməli, onların torpaqları isə ermənilərə verilməlidir. Həmin dövrdə dini məsələlər milli məsələlərdən daha artıq əhəmiyyət kəsb edirdi. Türkiyə və İran isə İmperiyaya düşmən dövlətlər sayılırdı. Bununla əlaqədar, bütün sonrakı çarlar da müsəlmanlara münasibətdə bu siyasəti fəal davam etdirmişdilər. Həmin siyasət sonralar - II Yekaterinanın və I Aleksandrın dövründə də davam etdirilmişdir. Məsələn, I Aleksandrın 21 dekabr 1802-ci il tarixli fərmanında “onun

---

[1] Villari Luigi. Fire and Sword in the Caucasus / www.armenianhouse.org

əcdadlarının erməni xalqına bəxş etdiyi bütün hüquqların və üstünlüklərin qüvvədə qalması təsdiq edilirdi”.[1].

Ermənilərin Cənubi Qafqaz ərazisinə kütləvi şəkildə köçürülməsi siyasəti hələ çar I Nikolayın dövründə, Rusiya-İran (1826-1828) və Rusiya-Osmanlı (1828-1829) müharibələri başa çatandan sonra həyata keçirilməyə başlanmışdı. Rusiya erməniləri Şimali Azərbaycana köçürməklə, onları burada yığcam kütlə kimi yerləşdirmək, ilk növbədə özü üçün etibarlı etnik-konfessional dayaq yaratmaq niyyətində idi. Bu plan yerli əhalinin – azərbaycanlıların və onların torpaqlarının hesabına həyata keçirilirdi. Ermənilər əsasən Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları ərazisində, həmçinin Qarabağda yerləşdirilirdi. Bu planın icraçıları Senatın 21 mart 1828-ci il tarixli “Ali Fərmanını” əsas tuturdu. Həmin sənəddə deyilirdi: “İran ilə 10 fevral 1828-ci ildə bağlanmış Traktata əsasən, Rusiyaya birləşdirilmiş İrəvan xanlığını və Naxçıvan xanlığını bundan sonra bütün işlərdə erməni vilayəti adlandırmağı əmr edirik”. Beləliklə, İmperiyanın müstəmləkəçilik siyasətinin əsas məsələsi - işğal edilmiş düşmən, yad məzhəbli, başqa dilə və başqa etnosa mənsub olan və hələ tanış olmayan ərazidə öz hakimiyyəti üçün dayaq yaratmaq məsələsi həll edilmiş olurdu. Başqa sözlə desək, ermənilərə Rusiya İmperiyasının yeni işğal etdiyi, “dinsizlərin”, indiki halda Azərbaycan türklərinin yaşadığı torpaqlarda Rusiya İmperiyasının müstəmləkəçilik siyasətinin “xristian vektoru”nun reallaşmasının iştirakçılarından biri kimi, ayrıca yer verilirdi. Ermənilərin Şimali Azərbaycana köçürülməsi azərbaycanlıların doğma yurdlarından çıxaril-

[1] Вердиева Х.,Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, 2003, с.26-27

ması ilə müşayiət olunurdu[1]. 1828-1830-cu illərdə, yəni faktiki olaraq, üç il ərzində İran və Osmanlı İmperiyalarından Şimali Azərbaycana köçürülmüş ermənilərin ümumi sayı təqribən 21.600 ailə və ya 119,5 min nəfər idi[2]. Bu, ermənilərin planlaşdırılmış, kütləvi və məqsədyönlü şəkildə Cənubi Qafqaza, ilk növbədə və əsasən, Şimali Azərbaycana köçürülməsinin başlanğıcı idi. Ermənilərin köçürülməsi prosesi bütövlükdə XIX əsrdə və XX əsrin əvvəllərində Rusiyaya xidmət edən yüksək vəzifəli ermənilərin fəal iştirakı ilə Rusiyanın hərbi və mülki administrasiyası tərəfindən həyata keçirilmişdi. Nəticədə Şimali Azərbaycanın əhalisinin tərkibində ermənilərin nisbi payı kəskin şəkildə artmışdı. Belə ki, XIX əsrin ilk 25 ilində ermənilər ölkə sakinlərinin 9,37%-ni təşkil etdiyi halda XX əsrin əvvəlində bu rəqəm 32,6%-ə çatmışdır. Təqribən 100 il ərzində, ilk növbədə ermənilərin mexaniki yerdəyişməsi nəticəsində Şimali Azərbaycanda onların sayı 24 dəfə artmış və 1916-cı ildə 1.211.145 nəfər olmuşdur (həmin ildə Şimali Azərbaycanın tarixi torpaqları olan İrəvan, Yelizavetpol və Bakı quberniyalarının ərazilərində yaşayan ermənilərin sayı bu rəqəmlə ifadə olunurdu. – **Müəllif**)[3]. Qafqazda yerləşdirilmiş ermənilərə yerli əhalinin hesabına fiskal və başqa güzəştlər, o cümlədən ən yaxşı torpaqlar verilirdi. Bu prosesin 100 il uzanması isə onun nəticəsi idi ki, erməniləri eyni ərazidə məskunlaşdırırdılar və onları həm

---

[1] Вердиева Х.,Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, с.36

[2] Вердиева Х.,Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, с.42

[3] Вердиева Х.,Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан., с.78

şaquli, həm də üfüqi yerli infrastruktura uyğunlaşdırmaq üçün müəyyən vaxt lazım idi. Bu halda nəzərə alınırdı ki, ermənilərin adaptasiyası yad məzhəbli müsəlmanlar və özgə dilli türklər mühitində baş verirdi. Gəlmələr təkcə konfessiyaya və dilə görə deyil, həmçinin mentalitetə və mənlik şüuruna, maddi və mənəvi mədəniyyətə görə də həmin mühit üçün yabançı, düşmən elementi sayılırdı.

Çar Rusiyası Osmanlı Türkiyəsinə gələcək müdaxiləsi üçün ermənilərdən bir istehkam kimi istifadə etməyə çalışır, eyni zamanda Asiyada ermənilərin müstəsna üstünlüklərə malik olduğu ərazi yaratmaq ideyasına qarşı açıq çıxış edirdi. Rusiya İmperator Sarayının nümayəndələri açıq deyirdilər: "Bizə ermənilər yox, Ermənistan (Türkiyə Ermənistanı. – **Müəllif**)"[1], yəni Osmanlı İmperiyasının erməni əhalisi deyil, bu imperiyanın bir hissəsi lazımdır.

Rusiya İmperiyasının xarici işlər naziri knyaz Lobanov-Rostovski Rusiyanın ermənilər üçün muxtariyyət verilməsi ideyasından imtina etməsinin səbəbini belə izah edirdi: "Mən istəmirəm ki, Türkiyə Ermənistanı ikinci Bolqarıstana çevirsin və Rusiya erməniləri Türkiyənin protektoratı altında erməni muxtariyyətinin yaradacağı təsisatlardan bizə qarşı istifadə etsinlər"[2]. Rus qafqazşünası V.Veliçko da knyaz Lobanov-Rostovskinin bu mövqeyini yüksək qiymətləndirərək yazırdı: "O, bizim diplomatiyanın ermənilərə münasibətdə qonşu İranda və xüsusən Türki-

---

[1] Вердиева Х.,Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан., с. 55

[2] Шехтман Б. Пламя давних пожаров. Опубликовано в журнале "ProArmenia" (Москва), 1992-1993 гг.http: //www.armenianhouse.org/shekhtman/docs-ru/result.html

yədə bizə dost və faydalı element kimi əsassız baxışını birinci olaraq laxlatmış, lakin təəssüf ki, kökündən çıxarıb atmamışdır”[1].

Beləliklə, ermənilər Rusiya İmperiyasını yalnız böyük dövlətlərlə oyunda siyasi kart kimi maraqlandırırdı.

Rusiya hökumətinin inzibati sistemi onun müstəmləkə siyasətinin əsas məqsədlərinin həyata keçirilməsində çox güclü vasitə idi. Çarizm xalqları dövlətçiliyin hər hansı formasını qoruyub saxlamaq hüququndan məhrum etməklə, regionda inzibati-ərazi dəyişikliklərini həyata keçirərkən xalqların etnik birliyi və ərazi bütövlüyü prinsipini tamamilə təkzib edirdi. Buna görə də XIX əsrdə Qafqazın inzibati xəritəsinin dəfələrlə dəyişdirilməsi, əsasən və məxsusi olaraq, Qafqazın hər hansı hissəsində əhalinin bir hissəsinin üstünlüyünü əhalinin digər hissəsinin zərərinə olaraq zəiflətməyə yönəlmişdi. Çar hökumətinin bu siyasəti nəticəsində azərbaycanlıların əsrlər boyu yaşadığı ərazilərin tarixi sərhədləri pozulmuş, Azərbaycanın inzibati-iqtisadi və siyasi vahid kimi mövcudluğuna rəsmi olaraq son qoyulmuşdu. Etnik-siyasi, mədəni və iqtisadi baxımdan sıx birləşmək üçün təbii baza yaradan millətin formalaşmasının ən mühüm şərtlərindən biri olan etnik ərazinin bütövlüyünün parçalanması azərbaycanlıların etnik-siyasi birləşməsi prosesini heç şübhəsiz, müəyyən dərəcədə ləngitmişdi. Başqa sözlə desək, rus hakimiyyət orqanları bu prosesin gedişində dünyanın özü qədər qədim olan “Parçala və hökm et!” şüarını həyata keçirmək üçün bütün vasitələrdən istifadə edirdi.

---

[1] Величко В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990, с.100.

## 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi "Difai" partiyasının yaranmasının əsas səbəbi kimi

Cənubi Qafqazda erməni-azərbaycanlı antaqonizmi uzun dövr ərzində inkişaf etmiş, XIX əsrin axırları – XX əsrin əvvəllərində dini və mədəni ziddiyyətlər çərçivəsindən çıxaraq mürəkkəb və çoxşaxəli problemə çevrilmişdi. Tarixçilərin əksəriyyəti bu fikirlə razılaşır ki, həmin dövr ərzində ermənilərin Rusiyanın hakim dairələrinin himayəsi altında olan imtiyazlı qrup kimi qəbul edilməsi ilə yanaşı, iqtisadi və sosial münasibətlər də onların azərbaycanlılarla münasibətlərini təyin edən mühüm amillər idi.

Əvvələn, XIX əsrin ikinci yarısında təşəkkül etməyə başlamış Azərbaycan burjuaziyası həm maliyyə baxımından, həm də özlərinin Rusiya və beynəlxalq kapital ilə əlaqələrinə görə məlum səbəblədən imtiyazlı erməni burjuaziyasından zəif idi. Azərbaycanlı kapitalistlərin əksəriyyəti sahibkarların birinci nəslinə mənsub idi. Onlar öz həyat tərzinin çox cəhətlərinə görə əvvəllər mənsub olduqları təbəqənin ənənələrinin hələ də təsiri altında idilər. Azərbaycanın iqtisadi inkişafı qeyri-müntəzəm cərəyan edir, sənaye isə əsasən Bakıda və bəzi qəza mərkəzlərində çox zəif formada cəmləşmişdir. Buna görə də milli burjuaziya əsasən Bakıda formalaşır, ölkənin bir sıra bölgələri və rayonları bu prosesdən kənarda qalırdı. Lakin hətta milli burjuaziya təbəqəsinin formalaşdığı hədlər daxilində də onun mövqeləri kifayət qədər möhkəm deyildi və başqa milli qrupların, ilk növbədə erməni burjuaziyasının təzyiqi daim hiss edilirdi. Bu fikri təsdiqləmək üçün rəqəmlərə müraciət edək. Belə ki, XX əsrin əvvəllərində Bakıda mövcud olan 167 neft şirkətindən yalnız 49-u və ya 29,3%-i, özü də əsasən kiçik

ölçülü şirkətlər azərbaycanlıların əlində olduğu halda işləri uğurla gedən erməni ailələri – mirzoyevlər, qukasovlar, mayılovlar, lianozovlar, aramyanslar, tavetosyanlar, man-taşevlər və başqaları iri və orta müəssisələrin 55-nə və ya 32,9%-nə nəzarət edirdi.[1] Ümumi neft hasilatında Azərbaycan firmalarının xüsusi çəkisi cəmi 3,2% təşkil edirdi.[2] 1900-cü ildə Bakı quberniyası ərazisində fəaliyyət göstərən 115 sənaye şirkətindən 29%-i ermənilərə və yalnız 18%-i azərbaycanlılara məxsus idi.[3] Şərabçılıq, balıq emalı, tütünçülük, un dəyirmanları, çəltiktəmizləmə istehsalatı, Naxçıvan duz mədəni kimi sahələrdə erməni kapitalı Azərbaycan kapitalı ilə müqayisədə daha güclü mövqeyə malik idi. İşçi qüvvəsində də oxşar vəziyyət müşahidə olunurdu. Bakıda bütün əməkçilərin 17,5%-ini təşkil edən ermənilər yüksək ixtisas tələb edən vəzifələrin 25%-ini tuturdu, halbuki aşağı maaşlı, ixtisassız fəhlələrin əsas hissəsi (70%-dən çoxu) müsəlmanlar – azərbaycanlılar, ləzgilər, farslar və Volqa tatarları idi. Bundan əlavə, ermənilər arasında fərdi sənətkarların böyük və sürətlə artmaqda olan təbəqəsi mövcud idi. Onların ümumi sayının 4,83%-i bu təbəqəyə aid idi. Ermənilər həm də Zaqafqaziyada urbanizasiyaya ən çox meylli xalq idi – onların 39 %-i şəhərlərdə yaşayırdı.[4]

İqtisadi amillərə onu da əlavə edək ki, senator

---

[1] История Азербайджана, т.2, с.255.

[2] Сеидзаде Д. Из истории азербайджанской буржуазии в начале XX века, с. 28; Рустамова Дж. Национальная буржуазия в период Азербайджанской Демократической республики . Баку, 2007, с.16.

[3] История Азербайджана, т.2, с.256-257.

[4] Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http: //www.kitabxana.org/site/sventoch.htm ;

Kuzminskinin yazdığı kimi, müsəlmanların dilinə, dininə, adət və ənənələrinə görə çar hökumətinin nəzərində onlara qarşı lap əvvəldən ən yabançı, heç bir assimilyasiyaya uyğun gəlməyən və əllərinə silah götürüb öz xüsusiyyətlərini qorumağa meylli xalq kimi etimadsız münasibət yaranmışdı və bu münasibət davam edirdi. Hökumətin müsəlmanlara bu münasibəti əsasən ermənilərin fəaliyyətinin nəticəsi idi və onların (ermənilərin. – **Müəllif**) Cənubi Qafqazda üstün mövqe qazanmalarına əlverişli şərait yaratmışdı.[1]

İkincisi, Azərbaycan ruhanilərinin yuxarı təbəqəsi, həmçinin patriarxal müsəlmanların nəzərində böyük nüfuz sahibi olan mülkədar-bəylər ümumiyyətlə, inqilabi sarsıntılarla maraqlanmırdılar. Milli ideya onların şüuruna hakim kəsilməmişdi. Onlar hadisələrə daha realist mövqedən yanaşır və belə hesab edirdilər ki, çar hökumətinin bütün mürəkkəbliklərinə baxmayaraq, nəticəsi məlum olmayan çaxnaşma və üsyanlardansa, hər halda bu hökumətlə yanaşı mövcud olmaq yaxşıdır.

Üçüncüsü, müsəlman ruhanilərinin strukturunda Eçmiədzini və katolikosun hakimiyyətini azacıq da olsa xatırladan təşkilat yox idi. Bu vəziyyətin səbəbləri bir tərəfdən islamın daxili cərəyanlarının (sünnilik, şiəlik) tərəfdarlarının tarixi ziddiyyətləri ilə əlaqədar idisə, digər tərəfdən bu, çar hökumətinin müsəlman ruhanilərinə münasibətdə yürütdüyü siyasətin nəticəsi idi. Hakimiyyət bu siyasəti müsəlman regionlarında rus siyasətinin mühüm obyekti və vasitəsi hesab edir, buna görə də həmişə bu məsələyə diqqət yetirirdi. Hökumət bunu nəzərə alaraq, müsəlman

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии. Баку,1906,с.21.

ruhaniləri mühitində korporativ ruhun möhkəmlənməsinə hər vasitə ilə müqavimət göstərirdi. 1872-ci ildən Cənubi Qafqazda şiə və sünni müsəlmanların işləri üzrə iki ayrıca idarənin rəsmən mövcud olması, din xadimlərinin dövlət qulluqçularına çevrilməsi buna ən yaxşı misaldır. Həmin idarələr din xadimlərini əslində dövlət qulluqçularına çevirmiş və şəriət məhkəmələrinə faktiki son qoyulmuşdur. Başda müfti və şeyxülislam olmaqla iki ruhani idarəsinin yaradılması ruhanilərə nəzarəti gücləndirməklə yanaşı sünni-şiə ayrı-seçkiliyini gücləndirmək məqsədi güdən ənənəvi imperiya siyasəti idi. Bu siyasət şiə və sünni məzhəbli müsəlmanların mədrəsələrdə də ayrı-ayrılıqda təhsil almalarına tətbiq edilirdi. Hökumət Türkiyədən və İrandan yadelli ruhanilərin ölkəyə gəlməsinə mane olurdu. Bu məsələ ilə əlaqədar rəsmi mövqeyini ifadə etmiş canişin Vorontsov-Daşkov qeyd etmişdir ki, bu yadelli mollalar öz moizələrində əhaliyə antirus ideyaları təlqin edirlər. Buna görə də, onun fikrincə, mollaları rus təhsil müəssisələrində öyrətmək lazım idi ki, onlar rusların ağalığına və hakimiyyətinə qarşı yönəlmiş ideyaları yaymaq əvəzinə hakimiyyətin əlində vasitə olsunlar.[1]

Nəhayət, hakimiyyət orqanları müsəlman əhali arasında ruhanilərin fəaliyyət dairəsini imkan daxilində məhdudlaşdırır, nüfuzlu ruhanilərin maddi maraqlarını hökumətə qulluq etməklə birləşdirmək yolu ilə onları hökumətdən bilavasitə asılı vəziyyətə salmağa çalışır, ruhanilərə və ruhani müəssisələrə ciddi nəzarət tətbiq edirdi. Ümumiyyətlə, deyə bilərik ki, çarizm öz məqsədlərini reallaşdırmaq üçün xalq arasında kifayət qədər nüfuza malik

---

[1] Каземзаде Ф. Борьба за Закавказье (1917-1921) // Жур. «Литературный Азербайджан», 1993, № 1-2, с. 31.

olmayan, müstəmləkəçiliyə qarşı mübarizəsində birləşdirici, yaxud heç olmasa fəal rol oynaya bilməyəcək müti ruhani təbəqəsini yetişdirməyə nail olmuşdu.

Müsəlman ruhanilərindən fərqli olaraq Eçmiədzin əsrlər boyu ermənilər üçün dövləti əvəz etmişdi. O, təkcə dini başlanğıcın deyil, həm də əsasən milli erməniliyin rəmzi, ermənilərin sosial mövqeyindən və siyasi oriyentasiyasından asılı olmayaraq böyük ümidlər bəslədiyi cəlbedici mərkəz idi. Erməni teokratiyasının rolunu Veliçko daha dəqiq qiymətləndirmişdir: "Uzun əsrlər boyu ermənilərin mərkəzi orqanı ayrıca bir forma kəsb edən, yarımgizli dövlətçilik rəmzi olan erməni teokratiyası olmuşdur və indi də belədir. Zahirən kilsə olan bu teokratiya mahiyyət etibarilə ilk növbədə gizli siyasi vəzifələri çox vaxt dini vəzifələrindən üstün tutan "milli" müəssisədir. Əlbəttə, məbəd kimi deyil, ümumi məqsədlər ətrafında birləşən ermənilərin toplusu olan bu kilsə əksər hallarda gah birja, gah da siyasi və başqa məqsədli müşavirələr keçirilən yerdir. [1] Beləliklə, Eçmiədzinin əsas fəaliyyət istiqaməti təkcə dini mərasimlər deyil, həm də siyasi fəaliyyət olmuşdur.

Dördüncüsü, XX əsrin əvvəllərində Azərbaycanda milli birlikdən daha çox dini birlik barədə söhbət aparmaq olardı. Azərbaycan etnosunun xeyli hissəsi özünü türk etnik sosiumu ("millət") olmaqda daha çox müsəlman birliyi ("ümmət") kimi dərk edirdi. Digər tərəfdən azərbaycanlı əhalinin geniş kütlələri uzun illər boyu ermənilərdən fərqli olaraq geniş əhatəli millətçi təşviqatla ehtiva edilməmişdi. Buna görə də XX əsrin əvvəllərində Azərbaycan etnosu üçün etnik-siyasi konsolidasiya səviyyəsinin nisbə-

[1] Величко В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы, с.135.

tən aşağı olması səciyyəvi hal idi, çünki dini və regional mənsubluq hissləri etnik identifikasiyadan daha güclü idi. Bu vəziyyət Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri – islamın hökmranlığı və ölkədə siyasi birliyin olmaması ilə şərtlənmişdir. Eyni zamanda yerli və regional şüurdan ümumazərbaycan mənlik şüuruna doğru təkamül, siyasi fəallığın artması prosesi heç də müntəzəm deyildi.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlinə aid çoxsaylı rəsmi sənədlərdən göründüyü kimi, 1905-ci ilin fevralında Bakıda qanlı münaqişənin başlanması ərəfəsində şəhərin azərbaycanlı əhalisi tərəfindən ermənilərə qarşı fəallıq və inqilabi fəaliyyət müşahidə olunmamışdır. Məsələn, hərbi qubernatorun 1860-cı ilə aid hesabatında göstərilirdi ki, Bakıda hamı müti, qeyri-adi əməksevər olması ilə fərqlənir. Onlar, demək olar ki, heç vaxt bayramları qeyd etmir, il boyu təsərrüfatla, arabalarda ağır yüklər daşımaq və muzdlu işlərlə məşğul olular. Müsəlmanlar arasında qarətçilik yoxdur, cinayətlər nadir hallarda baş verir, lakin dini məsələlərdə qonşu dövlətlərin təsiri altında fanatizmə meyllidirlər. Bakı qubernatoru Kolbakinin 1869-cu il üçün hesabatında deyilir: “Tatarlar hakimiyyəti əzici, sərt və amansız bir qüvvə kimi başa düşür, lakin ona ehtiram bəsləyirlər. Hakimiyyət ədalətli olduqda, şüurlu şəkildə ona tabe olurlar. İtaət göstərməmək hallarına az-az rast gəlinir. Əksəriyyəti aza qane, xeyirxah, itaətkardır. Öz həmməzhəblərinin xeyrinə xristianlara qarşı yalandan şahidlik edə bilərlər, lakin bu hərəkət üzürlü sayılır. Ayrı-ayrı şəxslər tənbəllikdən qarətlərə meyl edirlər. Lakin bu,

müstəsna hallarda baş verir”.[1]

Nəhayət, 1905-ci ilin qanlı fevral hadisələrindən az sonra Bakı quberniyasında araşdırmalar nəticəsində toplanmış məlumatlar əsasında hazırlanmış hesabatda deyilir: “1902-1905-ci illərdə Bakı rayonunda siyasi işlər üzrə yalnız bir müsəlman cəlb edilmişdir” (həmin şəxs “Hümmət” partiyasının banilərindən biri olan Mirhəsən Mövsümov idi. – **Müəllif**).

Senator Kuzminski təftiş zamanı belə məlumatlar da əldə etmişdir ki, yerli inqilabi təşkilatlar müsəlmanları inqilabi hərəkata cəlb etmək üçün dəfələrlə cəhd göstərmiş, lakin bu cəhdlərin heç bir səmərəsi olmamışdı. Bəzi hallarda isə müsəlmanlar tərəfindən müqavimətlə qarşılanmışdır. Məsələn, 1904-cü il aprelin 16-da və 17-də Bakı şəhərində rus və Azərbaycan dillərində “müsəlman cəmiyyəti” adından proklamasiya yayılmışdır. Müsəlman kütlələrinin bu cür cəhdlərə münasibətlərini izah edən və bütün millətlərdən olan fəhlələrə ünvanlanmış bu proklamasiyada bəyan edilir ki, müsəlmanlar hökumətə qarşı hər hansı nümayişlərdə iştirak etmək istəmir və əgər buna onları zorla məcbur etsələr, onlar açıq-aşkar hökumətin tərəfinə keçəcəklər.

Təəssüf ki, həmin proklamasiyanın yaranma və yayılma mənbəyi aydınlaşdırılmamışdır. Senator Kuzminski müsəlmanların siyasi hərəkatda hər hansı şəkildə iştirakdan boyun qaçırmasının səbəbini onunla izah edir ki, onların kütləşmiş şüurunda sədaqətli təbəəlik borcu kök salmışdır. Bu şüur müsəlmanların etiqad bəslədiyi dinin

---

[1] Шафиев Ф. Истоки армяно-азербайджанского конфликта: события 1905-1906 годов / Журнал «Ирс-Наследие», 2008, № 4 (34), с.49-52.

ehkamıdır. Həmin dinə görə dövlətin başçısı ali vücuddur və xalq onun istəyi ilə hesablaşmalı, onun buyruqlarını yerinə yetirməlidir. Kuzminski yazır: "Lakin iddia etmək olmaz ki, müsəlman kütlələri üçün sosializm ideyaları və müxtəlif siyasi təlimlər həmişə yad olacaqdır". Kuzminski bu nəticəyə gəlir ki, 1904-cü ilin dekabr ayında ("Mazut Konstitusiyası". – **Müəllif**) və 1905-ci ilin mayında baş vermiş üsyanda müsəlmanların kütləvi şəkildə iştirak etməsi, bir tərəfdən, onlar üçün açılan sosial hərəkat yolunun birinci mərhələsidir, digər tərəfdən müsəlmanlar arasında ictimai hərəkatın uğur qazanması üçün əlverişli zəmin yaradır.[1]

Azərbaycanlıların və ermənilərin sosial strukturlardakı fərqləri iki icmanın siyasi mütəşəkkilliyinin müxtəlif dərəcəsində, yəni siyasi partiyalar yaradılmasında təzahür etmişdir. XX əsrin əvvəlində Rusiya İmperiyasının milli siyasi partiyalarına ümumi xarakteristika verərkən bir sıra mühüm məqamları qeyd etməliyik. Əvvələn, ilk milli siyasi partiyalar azadlıq hərəkatının qədim ənənələrə malik olduğu regionlarda formalaşmağa başlamışdır. İkincisi, bu partiyaların milli xarakteri özünü onda göstərirdi ki, onlar partiya prioritetləri sistemində imperiyanın gələcək dövlət quruluşunun dəyişməsi üçün birinci və zəruri şərt kimi milli məsələnin həllini ön plana çəkirdilər. Rusiyanın milli siyasi partiyalarının təşəkkülündə milli dirçəliş ideyası həlledici olmasa da, çox mühüm rol oynayırdı. Üçüncüsü, liberal təmayüllü milli partiyalar əsasən mədəni maarifçilik cəmiyyətlərində yaranmışdırsa, sosialist təmayüllü milli

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с. 46-49; ГИААР: ф.524,оп.1, д.28, л.110.

partiyaların əksəriyyəti o vaxta qədər mövcud olan konspirasiya edilmiş dərnəklərdə formalaşmışdır. Onların bir qismi bir tərəfdən Avropaya, digər tərəfdən Rusiyaya xas olan liberal və sosialist ənənələrin, ideya və baxışların birbaşa təsiri altında formalaşırdı. Nəhayət, xalqların sosiomədəni ənənələrindən, milli regionların iqtisadi inkişaf səviyyəsindən və etnosların həyatının modernləşmə dərəcəsindən asılı olaraq, milli siyasi partiyaların təşəkkülü prosesində Avropanın və ya Rusiyanın təsiri daha çox və ya daha az rol oynayırdı. Rusiyada birinci inqilaba qədər liberal və konservativ yönümlü cəmi 9 millətçi təşkilat mövcud olduğu halda 1905-1907-ci illərdə onların sayı artaraq 42-yə çatmışdı. Bu təşkilatların əksəriyyətinin üzvlərinin sayı cüzi, təşkilati baxımdan zəif, ideya baxımından qeyri-müəyyən olmaqla çox az müddətdə mövcud olmuşdur.[1] Azərbaycanlılardan fərqli olaraq, ermənilər, məlum səbəblər üzündən, öz siyasi partiyalarını xeyli əvvəl yaratmışdılar. 1885-ci ildə millətçi təmayüllü ilk erməni siyasi partiyası – "Armenakan" Marseldə yaradılmış və eyni vaxtda orada "Ermənistan" adlı qəzet dərc olunmağa başlanmışdır. "Qnçak" ("Zəng") partiyası 1887-ci ilin avqust ayında Cenevrədə yaradılmışdır. Bu partiyanın yaradılmasının təşəbbüsçüləri millətçi əhval-ruhiyyəli bir qrup mühacir erməni tələbə idi. "Qnçak"ın Bakıdakı bölmələri hələ 90-cı illərin ortalarında yaranmış və 20-ci illərin birinci yarısında Sovet Azərbaycanı dövründə buraxılmışdır. XX əsrin əvvəllərində Yelizavetpolda və Şuşada da "Qnçak"ın şöbələri yaradılmışdı.[2] Hər halda, erməni kütlələrinə təsir uğrunda mübarizədə "Daşnaksutyun" par-

[1] Политические партии России: история и современность, с.261 -262.
[2] Наджафов Б. Лицо врага. В 2-х частях, ч.1, Баку, 1993,с.53.

tiyası aparıcı yer tuturdu. Bu partiyanın 1890-cı ildə təşkil edilməsi güman olunur. O vaxt Tbilisidəki erməni millətçilərinin rəhbərləri S.Zoryan, X.Mikaelyan, S.Zavaryan və başqaları erməni millətçi partiyası yaradılmasını qərara almışdır. Cenevrədə çıxan "Droşak" ("Bayraq") qəzeti bu partiyanın mətbu orqanı oldu. Partiyaya "Daşnaksutyun" ("İttifaq") adı da həmin vaxt verilmişdir. Tam adı isə belədir: "Erməni inqilabçılarının "Daşnaksutyun" ittifaqı (federasiyası)". Partiya yaradılandan az sonra Bakıda, Yelizavetpolda, habelə bir sıra kənd yerlərində bölmələri təşkil edilmişdir.[1] 1904-cü ilin əvvəlində Vyanada ciddi konspirasiya şəraitində "Daşnaksutyun" partiyasının III qurultayı keçirilmişdi. Qurultayda partiyanın Qafqaz məclisinə tam muxtariyyət və inqilabi hadisələrin başlanması ilə əlaqədar fəaliyyət sərbəstliyi verilmişdir. Elə həmin qurultayda "Daşnaksutyun"un hərbi nizamnaməsi qəbul edilmişdi. Nizamnamə pərakəndə döyüş dəstələri əvəzinə daşnakların hərbi baxımdan dəqiq təşkilinin təməlini qoymuşdu.[2] "Daşnaksutyun" strukturlarında ən mühüm elementlər onun "Özünümüdafiə", "Vahimə təşkilatı", "Terrorçu hazırlıq komitəsi", "Məsul fəaliyyət komitəsi", "Dehli", kimi hərbi terror təşkilatları idi.[3] Rusiyada başlanmış inqilabi hadisələr dövründən "Daşnaksutyun" ordusunun üzvlərinin sayı 100 min nəfərə çatırdı.[4] 1907-1908-ci illərdə partiyanın özünün bütün dünyadakı

---

[1] Багирова И. Политические партии и организации Азербайджана в начале XX века, с.213.
[2] Багирова И. Политические партии и организации Азербайджана в начале XX века, с. 216-217.
[3] Дашнаки (Из материалов департамента полиции), с.17.
[4] Дашнаки (Из материалов департамента полиции), с.19.

üzvlərinin sayı 165 min nəfərə çatmışdır. Partiyanın 1907-ci ildə keçirilmiş dördüncü qurultayında onun ümumi büdcəsi 1 milyon franka bərabər idi.[1]

Şübhəsiz, "Daşnaksutyun" partiyasının yaradılması erməni millətçi cəhdlərinin inkişafında müəyyən mərhələ idi və Cənubi Qafqazın, ilk növbədə erməni xalqının özünün tarixində mühüm və faciəli rol oynamış bir hadisə olmuşdur. Sonrakı hadisələrə və "Daşnaksutyun"un onlarda iştirakına nəzər salan gürcü jurnalisti və ictimai xadim Karibi yazır: "Erməni publisistləri öz xalqının bədbəxtliklərini ermənilərin həddən ziyadə mədəni və azadlıqsevər olması ilə izah etməyə çalışırlar. Lakin bu cür izahı ciddi hesab etmək olmaz. Əsl səbəb "Daşnaksutyun" partiyasında, erməni xalqının bu dəhşətli bəlası Kiçik Asiyanın, xüsusən Zaqafqaziyanın bütün xalqlarının bəlasıdır".[2]

Bu partiyanın məqsədi Şərqi Anadolunun Osmanlı əyalətlərində azad və muxtar erməni dövləti yaratmaq idi və o, öz məqsədini gizlətmirdi. Lakin Osmanlı Türkiyəsində erməni millətçilərinin çıxışları yatırıldıqdan sonra erməni partiyalarının separatist fəaliyyətinin mərkəzi XIX əsrin 90-cı illərinin axırlarında Cənubi Qafqaza keçdi. O vaxt bunun üçün obyektiv şərait yaranmışdı: əvvələn, o vaxta qədər erməni kapitalı möhkəmlənmiş və Cənubi Qafqazda, ilk növbədə Bakı neft-sənaye rayonunda mühüm mövqeləri ələ keçirmişdir. Nəticədə, bir tərəfdən erməni milli burjuaziyasının təsiri güclənmiş, digər tərəf-

---

[1] Багирова И. Политические партии и организации Азербайджана в начале XX века, с.227-228.

[2] Кариби. Красная книга. В сб.: История Азербайджана по документам и публикациям. Под ред. З.М.Буниятова. Баку, 1990, с. 151.

dən proletarların, o cümlədən erməni proletarlarının sayı artmış, onların arasında inqilabi əhval-ruhiyyə geniş yayılmışdır. Bu ermənilər arasında Türkiyədən qaçqın ermənilər də az deyildi. Regionda vəziyyəti gərginləşdirmək üçün bu partlayış təhlükəli materialdan asanlıqla istifadə etmək olardı. İkincisi, XIX əsrin 90-cı illərinin axırları – XX əsrin əvvəlləri Rusiya İmperiyasında ümumi inqilabi şəraitin kəskinləşməsi, gizli partiyaların, dərnəklərin, cəmiyyətlərin sayının artması, sosial-demokrat, marksist ideyalarının geniş yayılması, liberal əhval-ruhiyyəli ziyalıların xeyli hissəsinin inqilabi fəaliyyətə cəlb edilməsi ilə səciyyəvidir. Karibi yazırdı: "Erməni millətçilərinin fəaliyyət meydanının Zaqafqaziyaya keçməsi o vaxta qədər əhalisi sülh və əmin-amanlıq şəraitində yaşayan bizim diyarın tarixində "ən bədbəxt an" hesab edilməlidir. Daşnaklar gəldilər və özləri ilə bərabər, milli nifrət hissini gətirdilər. Bu zəmində isə, əlbəttə, erməni-tatar qırğınından, yaxud Ermənistan və Gürcüstan arasında müharibədən başqa heç nə yarana bilməzdi... erməni inqilab xadimləri, əsasən "Daşnaksutyun" partiyası yaranana qədər Zaqafqaziya sülh və əmin-amanlıq şəraitində yaşayırdı... Ermənilər, tatarlar (azərbaycanlılar. – **Müəllif**), gürcülər əsrlər boyu birlikdə yaşamışlar. Dinc əhali burada heç vaxt milli zəmində qanlı münaqişələrin olduğunu görməmişdir. Daşnaklar gələndən sonra gələcək muxtar Ermənistan üçün başdan-başa ermənilərin məskunlaşdığı ərazi yaratmağı təbliğ etməyə başladılar və o vaxta qədər patriarxal həyat tərzinin hökm sürdüyü Zaqafqaziya kəndlərinə milli düşmənçilik və nifrət hissləri ayaq açdı.[1]

[1] Кариби. Красная книга. В сб.: История Азербайджана... с.159.

1890-cı illərin axırlarından başlayaraq erməni millətçiliyi çar hökumətinin yeritdiyi assimilyasiya siyasətinə zidd mövqe tutdu, bu isə rus-erməni münasibətlərində dramatik dəyişikliklərə gətirib çıxarmışdı. 1898-ci ildə çar hökuməti erməni kilsə-prixod məktəblərinin Maarif Nazirliyinin tabeliyinə verilməsi barədə qərar qəbul etdi. Bu, erməni əhalisinin xeyli hissəsi arasında antiimperiya və antirus əhval-ruhiyyəsinin güclənməsinə səbəb oldu. Öz növbəsində çoxsaylı erməni millətçi dərnək və cəmiyyətlərinin, o cümlədən "Qnçak" və "Daşnaksutyun"un fəaliyyətində canlanma yarandı. Onlar bu dəfə "Türk vəhşiliklərinə" qarşı deyil "Çar hakimiyyəti orqanlarının özbaşınalığına", "Milli mədəniyyətin boğulmasına" qarşı ifşaedici proklamasiyalar yaymağa başladılar. Erməni Qriqorian kilsəsinin işlərinin idarə edilməsi qaydası haqqında Rusiya İmperatoru tərəfindən təsdiq edilmiş 12 iyun 1903-cü il tarixli qanun erməni millətçilərinin mövqelərinə ikinci güclü zərbə oldu. Qanun kilsə əmlakının xeyli hissəsinin dövlətə verilməsini nəzərdə tuturdu; patriarx (katolikos) nikahla bağlı məsələləri təkbaşına həll etmək hüququndan məhrum edilmişdi; qanunda həmçinin dövlət dili, and içmə, keçmiş erməni kilsə-prixod məktəblərinin əmlakına dair mübahisələrin inzibati qaydada (yəni məhkəmə qaydasında yox) həll edilməsi barədə bəndlər vardı. Ümumiyyətlə, 12 iyun tarixli qanun katolikosun və erməni teokratiyasının mənafelərinə ciddi zərbə idi.[1]

Əlbəttə, bu qərarlar ermənilərin və "Daşnaksutyun" partiyasının Rusiyaya qarşı yönəlmiş pozucu fəaliyyətinə rəsmi hakimiyyət orqanlarının cavabı idi. Onların siyasi

---

[1] Наджафов Б. Лицо врага, ч.1, с.123.

cəhətdən etibarlı olmadığına dəlalət edən aşkar əlamətlər üzə çıxmışdı. Məsələn, erməni kilsəsinin və "Daşnaksutyun"un nəinki erməni hərəkatında əli olması, hətta onların həmin hərəkatda əsas rol oynamasını göstərən çoxsaylı faktlar aşkar edilmişdir.[1] Ermənilərin siyasi etibarsızlığı haqqında rus qafqazşünasları da yazmışlar: "Onlar göstərirdilər ki, rus dövlətinin tərkibinə onun işğal etmədiyi, özünə zorla tabe etmədiyi, öz himayəsi altına qəbul etdiyi çoxlu kiçik xalqlar daxildir... lakin ayrı-ayrı şəxslər ümumi dövlət həyatının geniş dairəsinə daxil olduqdan sonra həmişə hakim xalqı təmsil edən siniflərin həyat şəraitini qəbul etməyə çalışacaqlar. Onların millətinin əvvəlki siyasi bənzərsizliyi haqqında təəssüf hissi məhz bu qabaqcıl şəxsiyyətlərdə yaranır". Buna görə də belə hesab edirdilər ki, ermənilərin siyasi etibarına zəmanət yoxdur.[2] Beləliklə, süni şəkildə yaradılmış erməni məsələsi başqa etnoslara təsir göstərmək və onları idarə etmək məqsədilə qanunauyğun tərzdə genişlənməyə başlamış, qismən onun üçün ayrılmış çərçivədən kənara çıxmış, artıq imperiya standartlarına zidd olmuşdur.

1903-cü il oktyabrın 14-də Tiflisdə Qafqazda mülki hissə rəisi, general-adyutant knyaz Qolitsına sui-qəsd edilmişdi. Üç erməni ona xəncərlə ağır yara vurmuş, lakin knyaz özünü cəmləşdirib jandarm və kazaklar gələnə qədər davam gətirmiş, onlar isə terrorçuları zərərsizləşdirmişdilər. Bir qədər irəli gedərək qeyd edək ki, erməni millətçilərinin terrorçu hərəkətləri illərində "Daşnaksutyun"un Za-

---

[1] Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан, с.63.

[2] Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан, с. 58.

qafqaziyadakı agentlərinin əli ilə onlarca hakimiyyət nümayəndəsi, o cümlədən görkəmli inzibati vəzifələr tutmuş general Əlixanov, Bakı şəhərinin qubernatoru knyaz Nakaşidze (1905), Yelizavetpolun vitse-qubernatoru Andreyev (1904), qəza rəisləri Boquslavski (1904), Şmerlinq, Neşşanski, Pavlov, polismeyster Saxarov, pristavlar Cavaxov və Şumakeviç, sərhəd xidməti polkovniki Bıkov, jandarm rotmistrləri Appel və Burkatski, quberniya həkimi Urazov və bir sıra başqa məmurlar və polis zabitləri qətlə yetirilmişdir. [1] Antiazərbaycan əhval-ruhiyyəsi ilk dəfə 1903-cü ilin mart ayında aşkar təzahür etmişdir. O dövrə aid sənədlərdə deyilirdi: "İrəvan quberniyasında, xüsusən Sürməli qəzasında xalqın əhval ruhiyyəsi təşviş doğurur. Son vaxtlar erməni əhalinin müsəlmanlara qarşı qəzəbi onlara hücumlar edilməsində, onların qarət olunmasında və döyülməsində aşkar ifadə edilməyə başlamışdır". [2] "Daşnaksutyun"un antiazərbaycan taktikasına bu partiyanın sənədləri də dəlalət edir. Sənədlərin birində deyilir: "Hökumətlə müharibəni rahatlıq üçün Tiflisə və ya lap Peterburqa da köçürə bilərik, tatarlarla müharibəni isə başqa yerə köçürmək olmaz".[3] İki xalq arasında gərginliyin artması fonunda Rusiyanın özündə də vəziyyət kəskinləşmişdi. Bu, bir tərəfdən ölkə daxilində sosial-siyasi və iqtisadi ziddiyyətlərdən, digər tərəfdən, xarici siyasi amillərdən (Rus-Yapon müharibəsində məğlubiyyət, İngiltərə-Rusiya və Almaniya-Rusiya ziddiyyətlərinin artması) irəli gəlirdi. Həmin dövrdə Cənubi Qafqazın iri sənaye mərkəzi olan Bakı müxtəlif inqilabi ideyaların inkişafının özünə-

---

[1] Наджафов Б. Лицо врага, ч.1, с.140.
[2] ГАППОДАР: ф. 276, оп. 8, д. 11, л. 26.
[3] ГАППОДАР: ф. 276, оп. 8, д. 256, л. 52.

məxsus episentrinə çevrilmişdi. Neft mədənlərinin fəhlələri arasında inqilabi əhval-ruhiyyə xüsusilə güclü idi. Onların arasında ruslar və ermənilər daha çox idi. 1905-ci il fevralın 6-da Bakının mərkəzində, erməni kilsəsinin yaxınlığındakı "Parapet" meydanında Bakı qəzasının Sabunçu kənd sakini, varlı müsəlman Ağarza Babayevin ermənilər tərəfindən qətlə yetirilməsi azərbaycanlılarla ermənilər arasında qanlı qarşıdurmanın başlanmasına təkan verdi. Babayevi əvvəlcə başından yaralamış, sonra soyuq silahla daha iki ölümcül yara vurmuşdular. [1] Bakı polismeysterinin məlumatına görə 6-9 fevral qanlı hadisələrinin gedişində Bakıda 232 nəfər öldürülmüşdü. Şəhərdə baş verən iğtişaşlar Balaxanı, Ramana və Sabunçu neft mədənlərinə də yayılmış, orada 37 nəfər öldürülmüş, 33 nəfər yaralanmışdı.[2] Ordubadi yazırdı ki, əgər ermənilər bu işə daha gizli şəkildə hazırlaşmış olsaydı, həlak olmuş müsəlmanların sayı on minlərlə olardı. Lakin onu da qeyd etmək lazımdır ki, bakılı müsəlmanlar bu qarşıdurmaya kifayət qədər ciddi yanaşmamış, hətta ermənilərin müdafiəçiləri rolunda çıxış etmişlər.[3]

Sual oluna bilər: çar hökuməti və polis qüvvələri bu hadisələrə hazır idimi? Doğrudanmı heç kəs bu vəziyyəti qabaqcadan hiss edərək, Bakıdakı bu hadisələrin qarşısını almaq üçün hökumətin sərəncamında olan qüvvələrdən ağlabatan tərzdə istifadə edə bilməzdi? Əlbəttə, vəziyyət

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с. 1-2.

[2] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с. 7,9.

[3] Ordubadi M.S. Qanlı illər, s.17.

proqnozlaşdırılmış və hətta əbədi aktual olan “parçala və hökm et” prinsipi əsasında qismən proqramlaşdırılmışdı. Hökumət kütlələri özündən təcrid etməyə və özü arbitr rolunda çıxış etməyə çalışırdı. Ermənilər isə mərkəzin zəifləməsini artıq hiss etdiklərindən yeni Böyük Ermənistan ideyasını müsəlmanların hesabına həyata keçirmək istəyirdilər. Dünyanın özü kimi qədim bir həqiqət var - əgər problem varsa, deməli, o, kiməsə lazımdır. Kimə?

Cavab aydındır. Polis bu hadisələrin qarşısını almaqda tamam laqeydlik göstərmişdir. Hələ 1905-ci ilin fevral hadisələrinə qədər, 1902-ci ildə Bakının keçmiş qubernatoru D.A.Odintsov Qafqazda mülki hissə üzrə baş komandan Qolitsına müraciətlə Bakı şəhərinin və neft mədənləri rayonlarının inzibati idarəçiliyində dəyişikliklər edilməsini xahiş etmişdir. O, həmin müraciətdə: şəhər ərazisinin çox geniş olmasını , mədənlərdə, fabrik və zavodlarda işləyən əhalinin, xüsusən fəhlələr arasında sosial-demokratik ideyaları təbliğ etməyə meyl göstərən “gəlmə kişilərin” özünəməxsus xarakterini, əhalinin müxtəlifliyini (40 millət və xalq), onlar arasında qanlı etnik və dini münaqişələr baş verməsini, dəhşətli iqlim şəraitini, dar küçələrdəki tikililərin “Asiya” xarakterini, bu küçələrin cinayətkarlar üçün pusqu yeri və sığınacaq kimi xidmət edə bilməsini, əhalinin başdan-başa silahlanmış olmasını, onların çox çılğın xarakterini və ən başlıcası, qan qisasçılığına meylli olmasını nəzərə alaraq, polis ştatının artırılmasını xahiş edirdi.[1] Senator Kuzminski öz hesabatında yazır: “Bakıda

[1] Бехбудов Т. Бакинские нефтепромышленники в борьбе за влияние на городскую полицию (1905-1907 гг.) http: //www.kaspiy.az/rubrics.php?code=1748.

ermənilərlə tatarlar arasında münaqişə gözlənilməsi barədə şayiələr fevral hadisələrindən hələ bir neçə ay əvvəl yerli cəmiyyətdə səylə yayılırdı. Bu şayiələr Bakı şəhər polisinin məmurlarına məlum idi və Bakı şəhərinin 5-ci sahəsinin pristavı Prokopoviç həmin hadisələr haqqında Bakı polismeysteri Deminskiyə vaxtında xəbərdarlıq etmişdi. Heç şübhəsiz, onun vasitəsilə bu məlumat qubernatora da çatmalı idi. Bununla belə, gözlənilən münaqişənin qarşısını almaq üçün onun tərəfindən heç bir tədbir görülməmişdi. Qubernator polis qorodovoylarının ən qısa müddətdə silahla təchiz edilməsinin zəruriliyinə də diqqət yetirməmişdi, hərçənd ona məlum idi ki, qorodovoyların demək olar ki, hamısı silahsız idi, revolverlər alınması üçün vəsait ayrılmışdır”.[1] Lakin Kuzminski belə hesab edirdi ki, “hakimiyyətin acizliyi, onun özünü itirməsi və qırğını yatırmağa əsla qabil olmamasının aşkar edilməsi hadisələrin hazırlanmasında polisin iştirak etməsi barədə deyilənlərin tamamilə əsassız olmasını göstərir və bunlar yalnız 6-9 fevral hadisələrinə səbəb olmuş ən yaxın amillər hesab edilə bilər”. Kuzminski daha sonra yazır : “Əslində fevral hadisələrinin daha dərin səbəbləri var. Bu hadisələr tədricən yaranmışdır. Onların müəyyən tarixi var və heç şübhəsiz, bu səbəblər nəinki artıq baş vermiş hadisələrlə hesablaşmağı, həm də onların baş verəcəyini əvvəlcədən duymağı və əgər bu hadisələr dövlətdə asayişə hər hansı mənada təhlükə doğurursa, bu halda onların qarşısını almaq üçün tədbirlər görməyi özünün vəzifəsi hesab edən

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с.10-11.

təcrübəli inzibatçının sayıq diqqətindən yayına bilməzdi və yayınmamalı idi”. Məsələn, Kuzminski 1904-cü ilin sentyabr ayında ermənilərlə müsəlmanlar arasında baş vermiş bir neçə qətl hadisəsini göstərir və qeyd edirdi ki, bunlar simptomatik xarakter kəsb etmişdi və müdiriyyət onlara diqqət yetirməyə borclu idi.[1]

Erməni-azərbaycanlı qarşıdurmasının dərin səbəblərinə toxunan Kuzminski müsəlman ziyalılarının nümayəndələrinin fikirlərini nümunə gətirir. Onlar Kuzminski ilə görüş zamanı ermənilərə düşmən münasibətlərini gizlətmir, bunu “onların” yırtıcı meylləri və satqınlığı ilə izah edirdilər. Bu xasiyyətlər sayəsində ermənilər maddi sərvətlərini artırmağa nail olmuş, eyni zamanda hökumətin müsəlman əhaliyə etimadını azaltmış, müsəlmanları vəhşi, fanatik, ümumiyyətlə etibarsız xalq kimi qələmə vermişdir. Kuzminski daha sonra yazır: “Müsəlmanlar açıq bəyan edirlər ki, fevral hadisələrinin səbəbləri onlarla ermənilər arasında yaranmış münasibətlərin səbəblərində axtarılmalıdır. Onlar deyirlər: biz ermənilərə paxıllıq etmirik və onların inkişafına mane olmaq istəmirik, qoy onlar öz qüvvələrini bütün istiqamətlərdə inkişaf etdirsinlər, lakin bu məsələdə müsəlmanlara mane olmasınlar, bu diyarın sərvətlərinə yalnız özləri malik olmağa çalışmasınlar, müsəlmanları mənəvi və maddi cəhətdən kölə vəziyyətinə salmaq fikrinə düşməsinlər. Ermənilər də öz növbəsində Bakı qırğınının yaranma səbəblərini izah edərək bütün ittihamları bu diyarın administrasiyasının vəzifəli şəxslərinin üzərinə qoyur, bununla da milli, dini və iqtisadi şərai-

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с. 20-21.

tin təsiri altında yaranmış qəbilə düşmənçiliyinin mövcud olmasının inkar edirlər.[1]

1905-ci ilin fevral ayında Bakıda qanlı hadisələr başlanandan sonra Qafqazda canişin təsisatı bərpa edildi. Qafqazda canişinlik sistemi müəyyən özünəməxsus cəhətləri ilə fərqlənirdi. Bu təsisata qayıtmaq zərurəti yüksək dərəcədə mərkəzin unifikasiya edilmiş inzibati quruluş əsasında milli regionların səmərəli idarə edilməsinə qabil olmaması və ucqarlarda yerli hakimiyyət orqanlarının çox cüzi də olsa müstəqilliyinin zəruriliyini etiraf etməyə məcbur olması ilə şərtlənmişdi. İndi əlahəzrət imperatorun Qafqazdakı canişini yeni qanunlar qəbul olunmasını tələb etməyən bütün məsələləri öz hakimiyyəti ilə həll edə bilərdi. O, dövlət nəzarəti, dövlət bankı və məhkəmə idarəsi məmurları istisna olmaqla kadr siyasətinin bütün məsələlərini, o cümlədən rütbələr verilməsi, təltiflər, pensiyalar təyin edilməsi və bütün başqa məsələləri idarə edirdi. Fövqəladə hallarda o, Qafqaz diyarının quberniya və vilayət administratorlarının istənilən qərarını ləğv etmək hüququna malik idi.

Nəzərdən keçirdiyimiz dövrdə canişin vəzifəsini qraf İ.İ.Vorontsov-Daşkov icra edirdi.[2] Vorontsov-Daşkov 1907-ci ildə çara məruzəsində əminliyini bildirdi ki, canişinlik forması "əslində milli muxtariyyətlər yaratmağın mümkün olmamasını əla başa düşən və onlar barəsində öz mühakimələrində yalnız özlərinin fəallığını göstərməyə çalışan bütün qafqazlıları təmin edəcəkdir. Onlarda bu cür fəaliyyətin zəruri olması hissi son iyirmi beş ildə hökumət

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с.22.

[2] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/Aman_IstKonf.php

tərəfindən onların doğma ucqar diyarının ən ümdə ehtiyaclarının təmin edilməsi üçün səmərəli qayğı göstərilməməsinin təsiri altında istər-istəməz yaranmışdır”.[1]

Vorontsov-Daşkov bu vəzifəyə gələn kimi köhnə ənənələri canlandırmaq üçün fəal iş aparmağa başladı. Həmin ənənəyə görə ermənilərlə dostluq Rusiyanın Cənubi Qafqazda hakimiyyətinin əsasını təşkil edirdi. Vorontsov-Daşkov üçün ermənilərə himayədarlıq sadəcə olaraq regionda inqilabi şəraiti aradan qaldırma üsulu deyildir, o, öz mühakimələrində bir neçə il əvvəli görməyə çalışırdı. O, ali rütbəli çar məmurları arasında Türkiyə ilə müharibənin tərəfdarlarına mənsub idi. Vorontsov-Daşkov belə hesab edirdi ki, həmin müharibədə ermənilər rusların avanqardı rolu oynayacaqlar. O, II Nikolaya yazırdı: “Ali həzrətlərinizə məlumdur ki, Qafqaz rayonunda bizim Türkiyə ilə münasibətlərimizin bütün tarixi boyu, hələ Böyük Pyotr dövründən Rusiyanın siyasəti bizim ermənilərə xoş münasibətimizə əsaslanmışdır. Onlar müharibələrin gedişində bizə fəal kömək etməklə bunun əvəzini ödəmişlər”. Onun çara məsləhətləri Qafqaz ərazisinin hüdudlarından çıxırdı, çünki o, Türkiyə ermənilərini müdafiə etmək təşəbbüsü ilə məhz indi çıxış etməyi təklif edirdi ki, özünə qarşı pis münasibət yaranmasın, əksinə, bizim üçün hərbi əməliyyatlar meydanına çevrilməsi tamamilə mümkün olan torpaqların əhalisində dostluq hissləri baş qaldırsın”.[2] Maraqlıdır ki, Vorontsov-Daş-

[1] Всеподданнейшая записка генерал-адъютанта графа Воронцова-Дашкова; http: //www.istrodina.com /rodina_articul.php3?id=130&n=7.
[2] Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http: //www.kitabxana.org/site/sventoch.htm;

kovun ermənipərəst mövqeyi 1909-cu ildə sağ millətçilərin - Purişkeviçin, Markovun adından III Dövlət Dumasına sorğu daxil olmasına səbəb olmuşdur. Onlar canişini və onun administrasiyasını fəaliyyətsizlikdə, ermənilərə şərait yaratmaqda ittiham edirdilər. Sorğunun müəllifləri canişinin fəaliyyətinin qeyri-qənaətbəxş hesab edilməsinə çalışır və Qafqazın idarə olunmasını nazirlər şurasına tabe etməyi təklif edirdilər. Lakin bu sorğu qəbul edilmədi və Qafqazın idarə edilməsi sistemi əvvəlki kimi qaldı.[1]

Qafqaz canişini erməniləri dəstəkləmək mövqeyi tutmaqda tək deyildi. XIX əsrin axırlarından etibarən Rusiya diplomatiyasının ermənipərəst siyasəti, bir tərəfdən imperiyanın Qafqaz sərhədinin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar cari məsələlərlə, digər tərəfdən, Rusiya imperiyasının bütövlükdə Yaxın Şərqdə nüfuzunu möhkəmləndirmək perspektivi ilə bağlı idi. Bu baxımdan, Qafqaz dağı Rusiyanın cənub sərhədlərini etibarlı qoruyan qala divarlarına bənzəyirdi. Eyni vaxtda Cənubi Qafqaz gələcəkdə Türkiyə və ya İran üzərinə yürüş etmək üçün əlverişli meydan idi. Buna görə də təəccüblü deyil ki, Rusiyanın Cənubi Qafqazdakı daxili siyasəti xeyli dərəcədə hərbi-strateji mülahizələrə əsaslanırdı.

Vorontsov-Daşkovun ermənilərə loyal münasibəti həm də onun müsəlmanlara etibar etməməsi ilə izah edilirdi. Məsələn, o, çara ünvanlanmış məruzələrinin birində yazırdı: “Mən bunu qeyd etməyə bilmərəm ki, əgər biz müxtəlif Qafqaz xalqları arasında özümüzü separatizmdən qorumalıyıqsa, yalnız həmin (müsəlman. – **Müəllif**) əhalidən

---

[1] Бахтурина А.Ю. Окраины Российской империи: Государственное управление и национальная политика в годы первой мировой войны (1914-1917 гг.). М.: 2004,с.210

qorumalıyıq. Bunun səbəbi onların sayca digər xalqlardan üstünlüyü, dini fanatizmdən doğan alovlanmaların mümkünüyü, həmçinin Qafqazın müsəlman dövlətlərinə yaxın yerləşməsidir”. Ermənilər və gürcülər çox gözəl başa düşürlər ki, Rusiyadan kənarda müsəlmanlar onları məhv edər”. Vorontsov-Daşkov müsəlmanların sayca az olan savadlı təbəqələri arasında yenicə baş qaldıran milli hisdən xəbərdar idi. Buna görə də o, çara xəbərdarlıq edirdi ki, bu yeni milli mənlik şüuruna ciddi nəzarət edilməsi zəruridir.[1]

Canişinin yeni vəzifədə gördüyü ilk tədbirlərdən biri Qriqorian kilsəsinin mülkiyyəti barədə 1903-cü il fərmanının ləğv edilməsi barədə çara xahişlə müraciət etməsi idi. 1905-ci il avqustun 1-də II Nikolayın fərmanı ilə Qafqaz canişininə əmr edilmişdi ki, erməni kilsə məktəbləri haqqında yeni əsasnamə işlənib hazırlanan qədər canişinlik hüdudunda kilsələrin və monastırların nəzdində kilsə-prixod məktəblərinin açılmasına icazə verilsin.[2] Nəticədə Eçmiədzin yenidən erməni Qriqorian kilsəsinin əmlakı və kapitalı üzərində nəzarət hüququ əldə etdi. Beləliklə, erməni yaraqlılarının həyata keçirdiyi terror öz məqsədinə çatdı.

1905-ci il 6-10 fevral erməni-azərbaycanlı münaqişəsi elə həmin il avqust-sentyabr aylarında Bakıda baş vermiş hadisələrin ilk addımı olmuşdur. Senator Kuzminski öz hesabatında yazır: “Hökumət əleyhinə təşviqat aparmaq üçün bu hadisələrin yaratdığı şəraitdən daha əlverişli şərait təsəvvür etmək çətindir. Həmin hadisələr hakimiyyətin tamamilə aciz olmasını sübut etmək üçün çox zəngin ma-

---

[1] Каземзаде Ф. Борьба за Закавказье (1917-1921) // Жур. «Литературный Азербайджан», 1993, № 1-2, с. 31-32.

[2] Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан, с.65-66.

terial vermiş oldu. Hakimiyyətin fəaliyyətsizliyi və özünü itirməsi ona gətirib çıxartmışdır ki, təşviqat tamamilə aşkar şəkildə aparılır və cəmiyyətin demək olar ki, bütün təbəqələrini əhatə edirdi.[1]

Avqustun ortalarında Bakıda konka sürən ermənilər tətil etdi. Onların yerini əsgərlər tutdular. Avqustun 20-də üç nəfər erməni konkaya atəş açmış, nəticədə konka sürən əsgər və azərbaycanlı sərnişinlər həlak olmuşdu. Təxminən eyni vaxtda erməni kilsəsindən zəng eşidildi. Bu, qan tökülməsinə bir növ siqnal idi. Dükançı ermənilər şəhərdə atəş açdılar. İlk qurbanlar yarandı. Moskvada çıxan "Russkoye slovo" qəzeti bu barədə çox qısa məlumat vermişdi: "Avqustun 20-də Bakıda tatarlarla ermənilər arasında atışma başlanmışdır; ölənlər var". Neft mədənləri yanırdı. Şəhər təbii fəlakətin və odun əsarətində qalmışdı. Elə həmin "Russkoye slovo" qəzeti yazırdı: "Balaxanı, Sabunçu, Ramanı mədən sahəsi bütünlüklə yanmışdır, Bibi Heybət od içindədir. Bakı şəhərinin özündə böyük yanğın baş vermişdir... Ayrı-ayrı yerlərdə yanğınlar, çox güman ki, qəsdən yandırılma nəticəsində başlanmışdır". Bu yanğın nəticəsində Bakı neft mədənləri demək olar ki, bütünlüklə ləğv edildi. Mədən əmlakının ¾ hissəsi məhv olmuş, məhsuldar quyuların 57%-i, qazma və dərinləşdirmə işləri aparılan quyuların 61%-i yanmışdır. Yanğından dəymiş zərərin ümumi məbləği 40 milyon rubla çatmışdır.[2] Beləliklə, avqust münaqişələri nəticəsində Rusiyanın neft

---

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с.52.

[2] Атаев Т.Первые армяно-азербайджанские столкновения http://echo-az.info/istoriya01.shtml.

sənayesinə əvəzi ödənilməsi mümkün olmayan zərər dəydi. Bakının ardınca 1905-1906-cı illərdə bütün Qarabağda, Naxçıvanda və İrəvanda qanlı hadisələr baş verdi. İrəvan quberniya jandarmeriyasının rəisinin polis departamenti direktoruna siyasi icmalında erməni-azərbaycanlı münaqişələrinin səbəbləri təhlil edilir. Hakim dairələrin fikrincə, bu səbəblər aşağıdakılardan ibarət idi: “1) millətlərin əsrlərlə davam edən düşmənçiliyi; 2) nadanlıq; 3) iqtisadi zəmində mübarizə: əvvəllər bu diyarın sahibi olmuş tatarlar özlərinin ətaləti, təhsil almağa və sahibkarlığa cəhd etməməsi ucbatından son vaxtlarda öz hegemonluğunu sürətlə itirmişlər – demək olar ki, bütün ticarət və sənətlərin əksəriyyəti ermənilərin əlinə keçmişdir, tatarlar isə bu vəziyyətlə heç cür barışa bilmirlər; 4) hər iki millətin, xüsusən ermənilərin yaramazları tərəfindən provokasiya”.[1]

Yelizavetpol quberniyasında azərbaycanlıların vəziyyəti ağlasığmaz dərəcədə ağır idi. 1905-ci il iyunun 26-da “Baku” qəzetində Yelizavetpol şəhərinin ziyalı nümayəndələrinin proklamasiyası dərc edilmişdir. Bu sənəddə qeyd edilirdi ki, hər iki xalqı birləşdirən tarixi köklər var və onlar başa düşməlidirlər ki, Qafqaz onların ümumi vətənidir. Proklamasiyanın müəllifləri azərbaycanlılara və ermənilərə müraciətlə onları bir-birini qırmaq əvəzinə maarif və mədəniyyəti inkişaf etdirməyə çağırırdılar. Proklamasiyanı imzalayanlar arasında sonradan “Difai” partiyasının Yelizavetpol şöbəsinin üzvləri A.Rəfibəyov, A.Rəfiyev,

---

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/Aman_IstKonf.php

A.Xasməmmədov vardı.[1]

Təəssüf ki, sovet tarixşünaslığı hər iki xalqa ünvanlanmış bu cür müraciətlərin mövcud olmasını uzun müddət inkar etməyə çalışmış, həmin müraciətlərin müəllifləri isə millətlərarası münaqişələrin əsas qızışdırıcıları kimi qələmə verilmişdir.

1905-ci ildə Şuşa ən qaynar nöqtələrdən birinə çevrilmişdi. Avqustun 16-da kazaklar qaçmağa cəhd edən bir ermənini öldürdülər. Ermənilər dərhal bunun təqsirini azərbaycanlıların üstünə yıxdılar, münaqişələr, talanlar başlandı. Ermənilər şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələrini qılıncdan keçirirdilər. 1905-ci ilin avqustun 17-də Şuşanın Köçərli və Xəlfəli məhəllələrinə hücum edildi. Azərbaycanlı gənclər artıq hakimiyyət orqanlarının onları dilə tutmasına məhəl qoymadan ermənilərə qarşı çıxış etmək qərarına gəldilər. Onların hücum əzmi o qədər yüksək idi ki, təpədən dırnağa qədər silahlanmış ermənilər qaçmağa məcbur oldular.

Erməni arximandriti və qubernator Baranosvki azərbaycanlılara müraciətlə xahiş edirdilər: “Salamat qalanlara rəhminiz gəlsin”. Azərbaycanlılar barışıq xəbərini eşidəndə hər yerdə atəşi dayandırdılar, lakin ermənilər dərhal özlərini göstərdilər, evinə qayıdan qubernatoru atəşə tutdular.

Avqustun 21-də tərəflər girovları dəyişdilər. Artıq elan edilmiş barışıq dövründə ermənilər realnı məktəbdə təmir işləri aparan 17 iranlı fəhlənin başını kəsdilər. Bu münaqişələrdə azərbaycanlıların 20 evi, çoxlu dükanları dağıdılmış, çoxsaylı dinc sakinlər həlak olmuşdu, lakin ermənilər

---

[1] «Баку», 26 июня, 1905.

tərəfindən qurbanların sayı bundan qat-qat artıq idi, hərçənd ermənilər öz məğlubiyyətini səylə gizlədirdilər[1]. Malıbəyli kəndi talan edildi, Xankəndində kazakların gözləri qarşısında qadınlar və uşaqlar qılıncdan keçirilmiş, doktor K.Mehmandarovun və azərbaycanlılardan ibarət silahlı dəstəyə başçılıq edən Nəcəfqulu ağa Cavanşirin malikanələri yandırılmışdır.[2]

Lakin Yelizavetpol quberniyasında, o cümlədən Şuşa qəzasında qanlı hadisələr bununla bitmədi. Erməni-azərbaycanlı münaqişələri dövründə burada general-qubernatorlar dəfələrlə dəyişdirilmişdi. Təsvir edilən hadisələr dövründə sonuncu general-qubernator general Qoloşşapov olmuşdur. Ordubadi yazır: "Qoloşşapov yalnız zahirən sadə və təvazökar adam imiş. Əslində isə o, tamahkar və məkrli müftəxor, başqalarının hesabına varlanmış bir adam idi. O, ermənilərin xahiş və şikayətlərinə həmişə diqqətlə yanaşır, azərbaycanlıları cərimələyir, onları cəzalandırırdı, halbuki hər şeyi, hətta qətlləri də ermənilər törədirdi. Onlar Qoloşşapovun şəxsində özlərinə hami tapmışdılar. Ermənilər hər vasitə ilə Qoloşşapovu azərbaycanlıların üstünə salmağa çalışırdılar. 1906-cı il iyulun 12-də ermənilər bir neçə gün əvvəl ölmüş öz həmvətənlərini generala göstərərək bildirmişdilər ki, bu adam azərbaycanlılar tərəfindən generalın dəftərxanasının yaxınlığında öldürülmüşdür. General çox fikirləşmədən Köçərli məhəlləsinə artilleriya atəşi açılması barədə əmr verdi. Elə həmin gün kazak dəstələri, rus piyada qoşunu və 10 min erməni, o cümlədən bu döyüşlər ərəfəsində şəhərdə toplanmış erməni əsgərlər və bandit dəstələri də onlara

---

[1] Ordubadi M.S. Qanlı illər, s.52-58.
[2] «Каспий», 1906, 3 января.

qoşularaq azərbaycanlılar üzərinə hücuma keçdilər. Beş gün davam etmiş döyüşlərdə şəhərin azərbaycanlılar və ermənilər yaşayan məhəllələrinin sərhədində olan bütün evlər artilleriya atəşi ilə dağıdıldı. Kənardan köməyə ümidi olmayan azərbaycanlılar düşmənə ləyaqətlə müqavimət göstərirdi. Ermənilər böyük itkiyə məruz qaldılar. Vəziyyəti belə görən general Qoloşşapov şəhərdə olan bütün rus qüvvələrini döyüşə daxil etmək barədə əmr verdi. Döyüşlərin beşinci günündə azərbaycanlılar üzərinə qəti hücum başlandı. Onda 70 yaşlı qocalardan başlamış 7 yaşlı oğlan uşaqlarına qədər bütün azərbaycanlılar əllərinə silah alıb hücuma keçdi. Ermənilər və kazaklar bu hücuma, başlarına yağış kimi yağan güllələrə dözməyərək qaçmağa başladılar. Azərbaycanlılar erməniləri öz evlərində, kazakları öz kazarmalarında gizlənməyə məcbur etdilər, başqa yerlərdən gəlmiş erməni könüllülərini şəhərdən qovdular. Döyüş meydanında yalnız qətlə yetirilmiş azərbaycanlılar, bir də küncdə-bucaqda gizlənmiş düşmənləri axtarıb tapan və onları məhv edən könüllülər qalmışdı. Ermənilər əvvəlcə özlərinin öldürülmüş soydaşlarını döyüş meydanından aparmağa çalışdı, sonra isə onların cəsədlərini xəzan yarpaqları kimi azərbaycanlıların ayaqları altına atdılar”.

Azərbaycanlıların və ermənilərin məruz qaldığı itkilər barədə M.S.Ordubadinin və M.M.Nəvvabın göstərdiyi rəqəmlər fərqlidir. Lakin bu məlumatlarda ümumi cəhət ondan ibarətdir ki, ermənilərin itkisi azərbaycanlıların itkisindən xeyli çox olmuşdu.[1] 1906-cı il iyulun 18-də Qoloşşapov Şuşaya gəlmiş və sülh bağlanmasını bəyan edən

[1] Ordubadi M.S. Qanlı illər, s.59-63; Nəvvab M.M., s.122.

erməni-tatar nümayəndə heyətini qəbul etmişdi.[1] İyul ayının sonlarında başda şeyxülislam olmaqla azərbaycanlılardan ibarət nümayəndə heyəti Qoloşşapovun Şuşadan geri çağırılması barədə canişin qarşısında vəsatətlə çıxış etmək üçün Tiflisə gəlmişdi. Canişinin dəftərxana müdiri bu xahişin cavabında həyasızcasına bildirmişdi ki, Qoloşşapov geri çağırılmayacaq, repressiyalar isə "çəkişmələr tam dayanana qədər" davam etdiriləcəkdir.[2] 1905-ci ildə Cavanşir qəzasının Sırxavənd, Dəmirli, Çıraqlı-Ümidli, Şahavənd kəndlərində ermənilərlə azərbaycanlılar arasında ciddi toqquşmalar baş vermişdi. Ordubadi qeyd edir ki, ümumiyyətlə azərbaycanlılar silahsız olduqlarından daha çox zərər çəkmişdilər. Bunun da təqsiri satqın bəylər idi.[3]

Bu arada Yelizavetpol qəzasında millətlərarası münaqişələr davam edirdi. 1905-ci il noyabrın 18-də ermənilər Topxana kəndinin bir neçə sakinini öldürdülər. Ermənilərin hücumları getdikcə tez-tez baş verirdi və nəticədə noyabrın 19, 20 və 21-də Yelizavetpolda kütləvi atışma baş verdi. İ.Alibeqovun verdiyin məlumata görə, bu qırğını qızışdıran general-qubernator Takayşvili hadisələrin başlanmasından iki gün əvvəl şəhərə gəlmişdir.[4] M.Ordubadi yazır ki, qırğına səbəb azərbaycanlıların ermənilər tərəfindən öldürülməsi olmuşdu. O, cinayətkarların adlarını da göstərir: Avetis Avetisov, Qriqor Tiyunov və onların dostları. M.Ordubadi daha sonra bildirir ki, azərbaycanlıla-

---

[1] «Каспий», 1906, 19 июля.
[2] «Каспий», 1906, 30 июля.
[3] Ordubadi M.S. Qanlı illər, s. 77-79.
[4] Алибегов И. Елизаветпольские кровавые дни перед судом общества. http: //www.armenianhouse.org/

rın xahişinə cavab olaraq Takayşvili onları müdafiə etmək üçün kazakları göndərəndə kazaklar atəşə tutulmuşdu. Az sonra Takayşvilini Fleyşer əvəz etdi. Noyabrın 4-də barışıq bağlandı: Tərəflər əsirləri və yaralıları dəyişmək barədə razılığa gəldilər. Lakin ermənilər dərhal Azərbaycan nümayəndə heyətini atəşə tutub onlardan üç nəfərini öldürdülər. Onda azərbaycanlılar da ermənilərə hücum etdilər. Hər tərəfdən 8 nəfər öldürüldü, ermənilərdən iki bomba götürüldü. Yalnız general Malamın səyi nəticəsində asayış müvəqqəti bərpa edildi və təkrar barışıq bağlandı.[1]

1905-ci ilin yayında millətlərarası münaqişələr Zəngilanda da özünü göstərdi. Burada Qatar kəndi ermənilər üçün alınmaz qalaya çevrilmişdi. Bu kəndin müdafiəçiləri 9 gün bütün dünyadan təcrid olunmuş vəziyyətdə müdafiə olunurdu. Nəticədə, şiddətli döyüşlərə baxmayaraq, ermənilər Qatar kəndini tuta bilmədilər.[2]

Daşnaklar Zəngəzurda vəhşi cinayətlər törətmişlər. Buradakı kənd yerlərində millətlərarası münaqişələr 1906-cı ilin avqust ayına qədər davam etmişdi. Həmin münaqişələrdə 200-ə yaxın azərbaycanlı həlak olmuş, Xələc, Karxana, Tatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbadək, Atqız, Pirdavud, Zurul, Günan, İlli, Sanalı, Minanavur, Fərəcli, Qalaboynu, Əcəbli, Buğucuq kəndləri dağıdılmışdı.

1905-ci ilin fevralından 1906-cı ilin payızına qədər erməni-azərbaycanlı münaqişələri nəticəsində 10.000 nəfər öldürülmüş, 7 şəhərin və 252 kəndin əhalisinə ziyan vurul-

---

[1] Ordubadi M.S. Qanlı illər, s. 89-96.
[2] Ordubadi M.S. Qanlı illər, s. 119-125.

muşdu.[1]

Yüz il bundan əvvəl baş vermiş erməni-azərbaycanlı münaqişələrinin işıqlandırılması və onların müasir dövrdə ermənilərin Dağlıq Qarabağa iddiaları ilə əlaqədar münaqişənin başlanğıc mərhələsi ilə müqayisə edərkən müəyyən analogiyalar görünməkdədir. Qərb və rus mətbuatı istər Dağlıq Qarabağda münaqişənin başlanğıcında, istərsə də 1905-1906-cı illər hadisələrindən sonra onları ortaq dini tellərlə bağlayan ermənilərə rəğbət bildirirdi. Rus və dünya ictimaiyyətinin 1905-1906-cı illərdə Zaqafqaziyada baş vermiş hadisələrə münasibətinin leytmotivi ermənilərə şəksiz rəğbət hissi idi. Onlar erməniləri mütləqiyyətin provokasiyasının, eləcə də onların dövrəsindəki tayfaların avamlığının və nadanlığının qurbanı olmuş "mədəni xalq" hesab edirdilər. Bu halda hətta ermənilərin qəddarlıqları da həmin şəraitdə təbii və az qala zəruri hal kimi qəbul edilir və prinsipial mövqeləri dəyişə bilmirdi. Müşahidəçinin siyasi baxışlarından asılı olaraq provokasiya məqamı ya xüsusi vurğulanır, ya da əksinə yumşaldılır (hətta inkar edilir) və ya əksinə "irqi və dini nifrət" kimi qələmə verilirdi. Məsələn, Parisdə çıxan "Maten" qəzeti yazırdı: "Tatarlar idealları hökumət üçün böyük təhlükə olan azadlıqsevər erməniləri cəzalandırmağa başlamışlar". Parisdə çıxan "Tan" qəzeti isə belə hesab edirdi ki, ermənilər Qafqazda ən savadlı və əməksevər millətdir, tatarlar isə mühafizəkar və "çar mütləqiyyətinə hörmət

---

[1] Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvələri), s.293.

bəsləməyi diktə edən” ənənələrə sadiqdirlər.[1] T.Sventoxovski dünya mətbuatının bu cür aşkar antiazərbaycan mövqeyini qiymətləndirərək yazır ki, dünya mətbuatı ümumiyyətlə ermənilərə rəğbət bəsləyirdi və buna görə də ermənilərin qətlə yetirilməsi hallarını tatarlarla müqayisədə daha geniş işıqlandırırdı.[2]

Erməni publisisti İ.Alibeqovun fikrincə, erməni-tatar münaqişələrinin bütün dəhşətlərinin əsas səbəbi “ümumi polis-bürokratik rejimi” idi. Alibeqovun fikrincə, “panislamistlər, provokatorlar, “özgə malına” göz dikənlər, müflisləşməkdə olan müsəlman feodalları, mütləqiyyət hakimiyyətinin qaniçən agentləri və cəmiyyətin digər törtöküntüləri” mütləqiyyət hakimiyyətinə sığınmışdır. O, həmin qırğını da təhrikçi təşviqatla izah edir.[3]

Britaniyalı diplomatlar belə hesab edirdilər ki, 1905-1906-cı illərin qanlı hadisələrinin səbəbi rus hakim dairələrinin millətlərarası sabitliyi qoruyub saxlamağı bacarmaması və bunu istəməməsi, o cümlədən ermənipərəst hakimiyyəti əvəz etmiş antierməni əhval-ruhiyyəli hakim dairələrdir. Onların fikrincə, “rus hakim dairələri qərəzsiz inzibatçılıq yolu ilə iki irq arasında münasibətləri yaxşılaşdırmaq əvəzinə “parçala və hökm et” prinsipi ilə hərəkət etmişlər. Onlar bir müddət tatarların hesabına ermənilərə favoritizm ifadə etmişlər. Kiçik vəzifələrin hamısı erməni-

---

[1] Армяно-татарская резня 1905—1906 годов. Материал из Википедии — свободной энциклопедии; http: //www. ru.wikipedia. org/wiki/

[2] Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http: //www.kitabxana.org/site/sventoch.htm ;

[3] Алибегов И. Елизаветпольские кровавые дни перед судом общества. http: //www.armenianhouse.org/;

lərə verilmiş, nəticədə onlar tatarlar qarşısında üstünlük əldə etmiş, korrupsiya və tənbehləri ilə onları qıcıqlandırmışlar. Sonralar rus hakim dairələri siyasəti dəyişdilər, onlar belə hesab edirdi ki, erməni inqilabi cəmiyyətlərinin fəaliyyəti get-gedə genişləndiyinə görə ermənilər dominant qüvvəyə çevrilirlər”.[1]

Rusiyanın Osmanlı İmperiyasındakı konsulu, XIX əsrin axırlarında Osmanlı Türkiyəsində qanlı toqquşmalar dövründə erməni gizli təşkilatlarının taktikası ilə çox yaxından tanış olan V.Mayevski 1905-1906-cı illərin qanlı hadisələrinin səbəblərinə öz münasibətini bu şəkildə ifadə etmişdir: “Kimin yadındadırsa, bu dövrdə (1904-1906-cı illərdə) rus hakimiyyətinin zəifləməsi, bəzi hallarda isə onun əsla olmaması hər yerdə müşahidə olunurdu. Bu elə bir dövr idi ki, müxtəlif gizli təşkilatların anarxist fəaliyyəti üçün geniş meydan yaranmışdır. Bizim Şərqi Zaqafqaziyanın başına gəlmiş bəlalar həm “hakimiyyətin cinayətkar fəaliyyətsizliyi” nəticəsində, həm də çaxnaşmaların əsas xadimləri olan “Daşnaksutyun”un cinayətkar fəaliyyəti nəticəsində baş verə bilərdi. Bəs bu iki səbəbdən hansı əsas idi? Əlbəttə, ikincisi”.[2]

Rusiyanın Qafqazdakı canişini qraf İ.İ.Vorontsov-Daşkov həmin hadisələrə “neytral” qiymət verərək belə hesab edirdi ki, bu qırğının təqsirini tərəflərdən hər hansı birinin (ermənilərin və ya tatarların) üzərinə qoymaq mümkün deyil: “Bəzi hallarda (Bakı, Yelizavetpol) əvvəl-

---

[1] Армяно-татарская резня 1905—1906 годов. Материал из Википедии — свободной энциклопедии; http: //www. ru.wikipedia.org/wiki/

[2] Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как, один из фазисов армянского вопроса, с.29.

cə tatarlar, başqa hallarda (Şuşa, Tiflis) ermənilər atəş açmışdı”.[1] Lakin bu halda məsuliyyət qondarma mərkəzi arbitrin üzərinə qoyulmalıdır. O, bir sıra səbəblər üzündən qarşıdurma üçün özünün nəzarət etdiyi müəyyən şəraiti qəsdən yaratmaqda maraqlı idi. Başlanğıcda həqiqətən belə idi.

Əhməd bəy Ağayev “Kaspi” qəzetinin səhifələrində haqlı olaraq yazırdı ki, rus qəzetləri əsasən ermənilərin öldürülməsi barədə və nadir hallarda tatarların öldürülməsi barədə xəbər verirdi: “Artıq üç aydır ki, başqa sözlə desək, oktyabrın 17-dən sonra Peterburq qəzetlərinin heç birində fevral qırğınından sonra müsəlmanlara ünvanlanmış uydurma və böhtanlara rast gəlmirik. Məşhur “üç gündən” sonra Bakıda düşmən tərəflər arasında sülh bərqərar olduqdan dərhal sonra bütün paytaxt qəzetlərinin müxbirləri həyəcan təbili vuraraq öz əsərlərini bizdə baş verən hadisələr haqqında yalan və qərəzli məlumatlarla doldurmağa başladılar”.[2]

Qafqazda müxtəlif millətlərarası münaqişələr şəklində təzahür edən mürəkkəb etnik-siyasi vəziyyət hakim dairələri ciddi narahat edirdi. III Dumanın mühafizəkar hissəsinin təşəbbüsü ilə aparılmış dinləmələr göstərdi ki, hakimiyyətin və onun cəmiyyətdəki tərəfdarlarının nəzərində münaqişənin predmeti regiondakı milli kütlələrin və onların təşkilatlarının dövlətə qarşı yönəlmiş separatizmidir.

Qafqaz sorğusu adı almış sorğunun müzakirəsi

---

[1] Армяно-татарская резня 1905—1906 годов. Материал из Википедии — свободной энциклопедии. http: //www. ru.wikipedia.org/wiki/

[2] «Каспий», 18 января,1906.

Dumada 1908-ci il dekabrın 3-də və 10-da, 1909-cu il yanvarın 21-də və 28-də, fevralın 4-də və 5-də aparılmışdır. Müzakirədə həm sorğu təşəbbüsü ilə çıxış edənlərin tərəfdarları, həm də Dumanın demokratik hissəsini nümayəndələri çox fəal iştirak etmişdir.[1]

Sağçılar belə hesab edirdilər ki, Qafqazda millətlərarası münaqişələrin təşəbbüsçüləri ermənilər və gürcülərdir, müsəlmanlar (ilk növbədə azərbaycanlılar) isə "ehtiyatdadırlar", onlar zərərçəkmiş tərəf, daha mühafizəkar və rus hakimiyyətinə loyal mövqe tuturlar. Deputat Bobrinski Qafqazda çaxnaşmaların səbəblərini obyektiv (bu diyarın coğrafi mövqeyi, əhalinin çoxmillətli tərkibi, dini etiqad məsələsinin mürəkkəbliyi, qan qisasçılığı ənənələri) və subyektiv amillərlə izah edilirdi. Onun fikrincə, səbəb ondan ibarət idi ki, bizdə - Qafqazda sistematik, ardıcıl, namuslu və qanunauyğun siyasət olmamışdır, mülkiyyət prinsipi pozulmuşdur ("Qafqazda demək olar ki, heç kəs özünün nəyə malik olduğunu bilmir"), köçərilərin rahatlığının olmaması, yerli rus məktəblərinin pis vəziyyətdə olması və s.

III Dumanın deputatı kadet Stepanov Qafqazda millətlərarası münasibətlərin kəskinləşməsinin səbəblərini təhlil edərək göstərirdi ki, "ruslaşdırma" siyasəti əhali ilə hakimiyyət arasında dərin uçurum yaratmış, onları iki düşmən düşərgəyə çevirmiş və eyni zamanda diyar xalqlarının milli mənlik şüurunun intensiv artmasına gətirib çıxarmışdır. Bu halda yadellilər üçün hakimiyyət obyektiv olaraq başqa etnosa, başqa dinə mənsub olan, buna görə də daha artıq dərəcədə düşmən qüvvə kimi çıxış edirdi.

---

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/ Aman_IstKonf.php

Dumanın demokratik hissəsi və Qafqazdan olan deputatlar isə regionun xalqları ilə dövlət arasında münaqişənin predmetləri və səbəbləri barədə başqa fikirdə idi. P.N.Milyukov ucqarlarda siyasət məsələsinin bütövlükdə çox böyük əhəmiyyətə malik olmasını qeyd edirdi. O belə hesab edirdi ki, hakimiyyət öz hərəkətləri ilə ölkə xalqları ilə münaqişə yaradır, onların tarixini, dilini, ənənələrini, məişətini və əxlaqını bilmir və bunu inkar edir. Milyukov deyirdi: "Qafqazın əhalisini nə deputat Markovun bizə məsləhət gördüyü kimi yer üzündən silmək, nə də onları köhnə sistemlə idarə etmək olar. Alman və ingilis birliyinə aparan yol yalnız Qafqazda və başqa regionlarda məskunlaşmış xalqların mənafeləri ilə hesablaşan idarəetmə sistemindən keçir".[1]

III Dumada Cənubi Qafqazdan olan yeganə azərbaycanlı deputat X.Xasməmmədovun fikrincə, millətlərarası gərginliyin səbəbləri hakimiyyətin yerlərdə müvafiq sosial-siyasi tədbirləri ilə təmin edilməmiş miqrasiya proseslərinin nəticələrindən ibarət idi. O demişdi: "Son üç ildə Zaqafqaziyanın rus əhalisinin sayı 10 min nəfər artmışdır. Bu, müstəmləkələşməyə rəsmən icazə verildiyi 1898-ci ildən sonra buraya gəlmiş köçkünlərin 36%-i deməkdir. Diyar əhalisinin xristianlara və qeyri-xristianlara bölünməsi nəticəsində yerli əhalinin ruslara nifrəti artmışdır, xüsusən müsəlmanların təhsil sahəsində, yerli idarəetmədə, şəxsi praktikada, vəkillik mənəviyyat sahələrində iştirakının vəziyyəti pisləşmişdir. Hakim dairələr 1905-ci ildən sonra getdikcə tez-tez baş verən millətlərarası münaqişələrə heç bir münasibət bildirməmiş və bu

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/Aman_IstKonf.php

münaqişələr genişlənərək erməni-azərbaycanlı qırğınına çevrilmişdir. Problemi yalnız xalqların qanuniləşdirilmiş hüquq bərabərliyi həll edə bilər”. Deputat Çxeidze öz çıxışında demişdi: “Qafqaz xalqlarının separatizmdə itti-ham edilməsi məkrli uydurmadır. XIX əsrin ortalarından Şərqi Zaqafqaziyanın müsəlman əyalətlərində torpaqların çox geniş miqyasda qəsb edilməsi baş vermişdir. Müvəq-qəti məcburi münasibətlər şəklində təhkimçilik hüququ hələ də davam edir. Almanların, ermənilərin, yunanların, Orenburq quberniyasından olan molokanların, rus sektant kəndlilərinin köçürülməsi regionda həm aqrar vəziyyəti, həm də millətlərarası gərginliyi artırmışdır. Məhz buna görə hakimiyyəti təmsil edən, eyni zamanda torpaq sahibkarları olan kazaklarla Qafqaz xalqları arasında daim münaqişələr baş verirdi. Hökumətin bu diyarda torpaq siyasəti kəndlilərin vəziyyətini pisləşdirir, məktəblər maarif ocağı deyil, inkvizisiya yerinə, məhkəmələr qaragüruhçu siyasət orqanına çevrilmişdir. Administrasiya rüşvətxorlar və provokatorlarla doludur. Çxeidze daha sonra vurğulamışdır: bu şəraitdə milli kütlələrin inqilabiliyi, onların hakimiyyətə qarşı çıxışları və millət-lərarası münaqişələr yalnız dövlətin xalqa zidd siyasətinin nəticəsidir: sizin izahınızdan belə çıxır ki, yağış ona görə yağmışdır ki, adamlar çətirləri açmışdır. Qeqeçkori də onu dəstəkləmişdir: “Millətlərarası, ilk növbədə erməni-azərbaycanlı münaqişələr hökumət tərəfindən inspirasiya edilmişdir. Üstəlik, hakimiyyət orqanları cəza dəstələrinin zorakılıq hərəkətlərini təşviq edir, mədəni-maarifçilik və iqtisadi yönümlü milli təşkilatları təqib edirlər”.[1] Çxeidze

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/History/Article/ Aman_IstKonf.php

bu təklif barədə çıxışında qeyd etmişdir ki, mərkəz "yerli əhaliyə sizin aranızda fərq var, sizin aranızda ruslar, gürcülər, ermənilər və başqaları var" kimi göstərişlər verməməlidir. Qafqazda çoxdan yeridilən bu siyasət – tayfalararası ehtirasların qızışdırılması siyasəti heç bir xeyir verməmişdir..."[1]

1905-1906-cı illərdə erməni-azərbaycanlı qarşıdurmasının səbəblərinin öyrənilməsi məsələsində sovet tarixşünaslığında həmişə belə bir tezis əsas götürülmüşdür ki, çar hökuməti millətlərarası ayrı-seçkiliyi qızışdırır, ermənilərlə müsəlmanlar arasında qırğına təhrik edirdi. Bu, birinci rus inqilabı dövründə bütün kəskinliyi ilə Cənubi Qafqazda təzahür etmiş bütün münaqişələrin yeganə səbəbi olmuşdur. Burada artıq 100 ildən çox keçmiş hadisələri XX əsrin 80-ci illərinin axırlarında, ermənilər və azərbaycanlılar hələ sovet imperiyasının tərkibində yaşadığı vaxtda Dağlıq Qarabağa ətrafında münaqişənin başlanması ilə müqayisə etmək yerinə düşər. O vaxt olduğu kimi, bu münaqişənin başlanğıc mərhələsində də azərbaycanlılar mərkəzi hökumətə çox böyük ümid bəsləyirdilər. Bir sıra müəlliflər hələ də qəti əmindilər ki, Dağlıq Qarabağ ətrafında erməni-azərbaycanlı münaqişəsi "mərkəz" tərəfindən, yəni M.Qorbaçov başda olmaqla sovet rəhbərliyi tərəfindən təhrik edilmişdir və əgər bu "mərkəz" olmasaydı, xalqlar dinc yaşayar və bir-birinə qarşılıqlı ittihamlar təqdim etməzdi. Əlbəttə, millətlərarası münasibətlər məsələsində M.Qorbaçovun qeyri-ardıcıl, uzaqgörməz və zərərli siyasəti DQMV-nin erməni əhalisinin öz müqəddəratını təyin etmək hüququ ilə maskalanan təcavüzkar

---

[1] Аманжолова Д. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.) http: //www.gumer.info/bibliotek_Buks/ History/Article/ Aman_IstKonf.php

planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaramışdır. Lakin bütün erməni-azərbaycanlı münaqişələrin əsas səbəbi ermənilərin dərin köklərə malik olan ərazi iddialarından ibarətdir.

Biz çarizmin mənfur siyasətinə bəraət qazandırmaq fikrində deyilik. Həmin illərdə hakimiyyət orqanları erməni və azərbaycanlı əhali arasında düşmənçilikdən həqiqətən öz imperiya məqsədləri üçün istifadə etmiş və arxiv sənədlərindən göründüyü kimi ermənilərlə azərbaycanlılar arasında münaqişələrin qarşısını almaq üçün təsirli tədbirlər görməmişdir, hərçənd, qırğınlara hazırlıq və ermənilərin bununla əlaqədar silahlanması barədə siqnallar kifayət qədər idi. Problem imperiya hökumətinin çoxillik fəaliyyətində idi. Bu müddət ərzində hələ Pyotr dövründən Türkiyə, İran və Rusiya arasında xristian buferi yaratmaq məqsədi ilə ermənilərin mütəmadi olaraq Azərbaycana köçürülməsi başlanmışdı. Yerli və gəlmə etnos arasında kəmiyyət nisbəti pozulmaqla qarşıdurma üçün şərait yaradılmışdı. XIX əsrin axırları – XX əsrin əvvəllərində milli burjuaziyanın formalaşması, milli mənafelər uğrunda mübarizə başlanmışdır. Mərkəz zəifləyir və münaqişə məsələsində zahirən mərkəzçi mövqe tuturdu. Qanlı erməni-azərbaycanlı münaqişələri davam etdiyi müddətdə çar hakimiyyətinin arbitr rolunda çıxış etməsi onun üçün sərfəli idi. Bu, yerli əhalinin nəzərində mütləqiyyət hakimiyyətinin əhəmiyyətini və nüfuzunu artırır, həm də onların Rusiyanın imperiya siyasətinə qarşı birgə çıxışlarına mane olurdu. Cənubi Qafqazda millətlərarası münasibətlərin hədsiz kəskinləşməsi çar hakimiyyətinin mənafelərinə uyğun deyildi. Talanlar, qəsdən təşkil edilmiş yanğınlar, kütləvi iğtişaşlar, xaos və anarxiya – bütün bunlar dövlətin əsaslarını laxladır, əhalidə istər-istəməz hakimiy-

yətin zəifliyi, köməksizliyi barədə fikirlər oyadırdı. Bu da mütləqiyyət üçün arzu edilən hal deyildi. Ümumiyyətlə həmin illərdə çar hökumətinin yeritdiyi siyasəti şəraitə uyğun fəaliyyət kimi səciyyələndirilə bilər. Zamanın tələblərindən asılı olaraq, mümkün qədər ehtiyatlı tərpənir, gözləmə siyasəti yeridirdilər.

Buna görə də həmin illərdə Cənubi Qafqazda baş vermiş faciəli hadisələrin əsas səbəbini **yalnız** çarizmin məkrləri ilə izah etmək sadəlövhlük olardı.Tarixi faktların və çoxsaylı mənbələrin hərtərəfli təhlili tam qətiyyətlə bu nəticəyə gəlməyə əsas verir ki, erməni və azərbaycanlı əhali arasında kütləvi toqquşmalar (həmin illərin sənədlərində bu hadisələr çox vaxt "erməni-tatar qırğını" adlanır) "Daşnaksutyun" tərəfindən soyuqqanlılıqla və ölçülüb-biçilmiş şəkildə həyata keçirilən planın ayrılmaz tərkib hissəsi idi. Burada ikili oyun gedirdi: "Əvvələn, müsəlmanlara qarşı nifrətin bir hissəsinin də olsa qisası alınmışdı, digər tərəfdən mətbuatın və təbliğatın köməyi ilə baş verən bütün hadisələrin təqsirkarının rus hökuməti olması təsəvvürü yaradılmış və beləliklə, təkcə ermənilərin deyil, Qafqazın başqa sakinlərinin də inqilabiləşdirilməsi üçün çox güclü yeni təşviqat materialı yaranmışdır. Bu halda güdülən ikinci məqsədə də qismən nail olunmuşdur – Zaqafqaziya ərazisində erməniləri müsəlmanlardan ayırmış və Türkiyədən, qismən də İrandan köçürülmüş ermənilər tərəfindən tutulmaq üçün torpaqlar boşaldılmışdı. "Daşnaksutyun" təşkilatı tərəfindən oradan çağırılmış ermənilərin sayı isə cəmi 5-6 il ərzində yarım milyona çatmışdı, onlardan 200 mindən çoxu rus hökumətinin vəsatəti sayəsində artıq Rusiya təbəəliyini qəbul etmişdi".[1] Bu planı

[1] Дашнаки (Из материалов департамента полиции), с.10 -11.

məhz inqilabi sarsıntılar dövründə həyata keçirmək çox rahat idi, çünki zəifləmiş mərkəzi hakimiyyətin başı özünün ümumdövlət problemlərinə qarışdığından, o, bu hadisələrə müdaxilə edə bilmirdi. Bundan əlavə, həmin münaqişə Rusiya daxilində "nə qədər pis olsa, o qədər yaxşıdır" prinsipi üzrə hərəkət edən bəzi bolşevik və digər inqilabi qüvvələri də qane edirdi.

İmperiya mövcud formada öz ömrünü başa vurmaqda idi. Bu, müxtəlif səpkili, o cümlədən milli ziddiyyətlərə gətirib çıxarırdı. Həm ruslar, həm də yadellilər dəyişikliklərin zəruriliyini başa düşür və hər kəs özünə daha çox pay qoparmaq istəyirdi. Lakin müsəlmanların birləşməsindən qorxan erməni millətçiləri rus inqilabçıları ilə birləşməyə çalışır, bu isə **sonralar** Azərbaycanın şəhər və kəndlərində vəhşicəsinə qətllər və özbaşınalıqlar törətmiş birgə erməni-qızıl ordu dəstələrinin yaradılmasına gətirib çıxarmışdı.

## “Difai” partiyasının yaranması

1905-1906-cı illərdə erməni silahlı dəstələrinin zərbələri Cənubi Qafqazın müsəlman icmasının sıx birləşməsinə inqilabi dövrün hər hansı başqa hadisələrindən daha çox təkan vermişdi. Erməni-azərbaycanlı münaqişələri müsəlmanların birləşməsinə stimul yaratmış, bu birləşmə həmin dövrdə siyasi fəaliyyət üçün artıq əsas maneə olmayan yerlibazlıq və “sektant” loyallıqlarını üstələmişdi. O vaxta qədər pərakəndə şəkildə vuruşan müxtəlif müsəlman qrupları öz fəaliyyətlərini əlaqələndirməyə başlamışdı. 17 oktyabr 1905-ci il tarixli manifest dərc ediləndən sonra bu proses xüsusilə güclənmişdi. Siyasi partiyaların yaranması prosesi elə bir vaxtda gedirdi ki, Azərbaycan hətta (sovet dövründə olduğu kimi) formal müstəqilliyə də malik deyildi və ayrı-ayrı quberniyalar şəklində Rusiya İmperiyasının tərkibinə daxil idi. Buna görə də sırf millətçi partiyalar müstəsna olmaqla qalan partiyaların çoxu ümumrusiya partiyalarının filialları və ya bölmələri idi. Bu partiyaların proqram məqsədləri arasında kifayət qədər ciddi fərq vardı. Bu da onların tarixi taleyini müəyyən edirdi. XIX əsrin ikinci yarısından başlayaraq Şimali Azərbaycanda yaranmaqda olan milli ziyalılar milli partiyaların yaranmasında həlledici rol oynamışdı. Milli ziyalıların məqsədi Azərbaycan cəmiyyətinin əsas sosial qruplarının intellektual və ideoloji tələbatını təmin etməkdən ibarət idi. Sayca az olmasına baxmayaraq milli ziyalılar Azərbaycan xalqının öz sosial, siyasi və milli hüquqlarını dərk etməsində həlledici rol oynamışdır. Ziyalılar öz xalqının vəziyyətini daha çox inkişaf etmiş millətlərin vəziyyəti ilə müqayisə edir, milli azadlıq və demokratiya

ideyalarını təbliğ edir, bu da cəmiyyətin ideya-siyasi tərəqqisini sürətləndirir və Azərbaycan millətinin formalaşması prosesinə stimul yaradırdı. Buna görə də tamamilə qanunauyğun haldır ki, məhz Azərbaycan ziyalıları milli hərəkatın rəhbər və əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu ziyalılar sırasından siyasi rəhbərlər və Azərbaycan milli hərəkatının ideoloqları çıxmışdı.

1906-cı ildə "Difai" partiyasının yaradılması milli mənlik şüurunun artmasının və siyasi qüvvələrin sıx birləşməsinin parlaq ifadəsi oldu. Erməni terrorçularının qarşısında davam gətirə biləcək döyüş qabiliyyətli müsəlman təşkilatının yaradılması haqqında qərar 1906-cı il fevralın 20-dən martın 6-na qədər canişin qraf İ.İ. Vorontsov-Daşkovun sədrliyi ilə Tiflisdə keçirilmiş erməni-azərbaycanlı sülh danışıqlarından sonra qəbul edilmişdi. Ordubadi yazırdı ki, məclisin məramı azərbaycanlıları qan dəryasından çıxarıb münaqişələrin baş verməsi səbəblərini təftiş edib, sonra hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökumətə müraciət edərək bir sıra lazımi tədbirlər görməyi tələb etmək idi. Ordubadi danışıqların iştirakçılarının tərkibi barədə yazır: "Hökumət tərəfindən bu məclisə tam nəzarət yetirən şəxslər: Qafqaz canişini cənab Vorontsov-Daşkov, Tiflis, İrəvan, Gəncə qubernatorları, canişin həzrətlərinin müavinləri, cənab Gəray, general Malama, general Şirnikin, kargüzar Peterson cənabları. Azərbaycan tərəfinin nümayəndələri: Bakıdan cənab Əhməd bəy Ağayev, Kərbəlayı İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Tiflisdən Məhəmməd ağa Vəkilov, Doktor Qarabəyov, Gəncədən Ələkbər bəy Xasməmmədov, Ədil xan Ziyadxanov və başqaları.

Erməni vəkilləri: “Mışak” qəzetəsinin müdiri Kalantar, Tiflisdən: Xatisov, Samson Arutyunov, Bakıdan: Xatisov, Muşeksyan, doktor Stepanov, Arakelyan, Taqiyanusov, Ter-Avanesov, arximandrit Muradyan və başqaları”.[1]

Azərbaycanlı nümayəndələr qurultaydakı çıxışlarında qırğının qızışdırılmasında və iğtişaşlarda ilk növbədə “Daşnaksutyun” başda olmaqla erməni təşkilatlarını günahlandıraraq qeyd etdilər ki, çar hökuməti bu təşkilatların silahlanmasına barmaqarası baxmışdır.[2] Ə.Ağayev öz çıxışında demişdi: “Qafqazda məsul şəxslərin və rəhbərlərin çoxu erməni terrorçularının qorxusundan işləri vicdansızcasına, ədalətsizcəsinə həll edirlər. Biz azərbaycanlılar daha bu vəziyyətə dözmək niyyətində deyilik və açıq bəyan edirik ki, işlər bu yolla davam etsə, Qafqazda terrorçu qruplaşmalar ağalıq etdikcə burada nə sülh bərpa olunacaq, nə də rahatlıq. Biz deyirik, əgər siz həqiqətən sülh istəyirsinizsə, onda başqa tədbirlərlə yanaşı terrora son qoymaq lazımdır. Bizə cavab verirlər ki, biz “Daşnaksutyun”u nəzərdə tuturuq. Biz “Daşnaksutyun”dan danışmırıq. Biz terrora son qoyulmasını tələb edirik. Ermənilər isə nədənsə yalnız “Daşnaksutyun” haqqında düşünürlər. Aşkardır ki, “Daşnaksutyun” terrorla hansı şəkildəsə əlaqəlidir. İndi biz öz qeydimizə qalmalıyıq. Biz də möhkəm, silahlanmış partiya yaratmalıyıq. Bizim də öz “Daşnaksutyun”umuz olmalıdır. Əgər hökumət bir tərəfin bu cür aksiyalarına imkan verirsə, ikinci tərəf üçün də buna imkan verməlidir. Əks halda bu, aşkar riyakarlıqdır”.

---

[1] Ordubadi M.S. Qanlı illər, s. 105.
[2] «Баку», 1906. 23 февраля, 5,6 марта.

Kərbəlayı İsrafil Hacıyevin çıxışı daha konkret oldu: “Biz də terrorçu ola bilərik. Biz də mauzer tüfəngləri saxlayıb, bomba ata bilərik, biz də ermənilərin ən yaxşılarını, qubernatoru da öldürə bilərik. Lakin biz bunların heç birisini etmirik, çünki bu bir alçaqlıq və hökumətə xəyanət siyasətidir. Bu məsələni müzakirə etməkdən qəsbimiz ancaq hökuməti vadar etməkdir ki, öz vəzifəsini, öz işini, öz ədalətini qorxusuz, vahiməsiz, layiqincə yerinə yetirsin. Əgər elə etməsə, biz də terrora keçməyə məcbur olarıq”.[1]

Yuxarıda deyilənlərdən göründüyü kimi, “Daşnaksutyun”un yaradılmasına, fəaliyyətinə və öz təcavüzünü aşkar nümayiş etdirməsinə baxmayaraq, Azərbaycan tərəfi öz ziyalılarının şəxsində ağıla və zəkaya əsaslanan çağırışlar ilə (“Daşnaksutyun”u – Müəllif) ona qarşı yönəlmiş terrordan çəkindirməyə çalışır, çox vaxt müdafiə, özünümüdafiə mövqeyi tuturdu. Bu da, “Difai”ni (Müdafiə) adından da göründüyü kimi antiterror və ya müdafiə təşkilatı kimi səciyyələndirir.

Əhməd bəy Ağayevin və Kərbəlayı İsrafil Hacıyevin “Daşnaksutyun” tərəfindən terror haqqında, dövlət qulluqçularının, məmurların onlara ünvanlanmış ölüm hədəli məktublardan vahiməyə düşməsi haqqında çıxışları qurultay iştirakçıları arasında böyük həyəcana səbəb oldu. Məşhur Xatisov qardaşları başda olmaqla erməni nümayəndələri qəzəblənməyə başladılar, lakin müsəlmanlara qarşı ittihamlar irəli sürməyib maddi ziyanın ödənilməsini tələb etdilər. Onlar bu hadisələrin əsas təqsirkarı kimi çar

[1] Ordubadi M.S. Qanlı illər, s. 113-114.

hakimiyyətini göstərdilər. A.Xatisov demişdi: “Bunları demək lazım deyil, bəziləri “Daşnaksutyun” haqqında, digərləri panislamizm haqqında danışacaqdır. Bunun nəticəsi nə olacaq?! Təqsir hər bir firavan dövlətin əsas qanunlarının pozulmasına imkan verənlərdədir! Bir nəfəri qətlə yetirən cinayətkarlar cəzalandırılır, amma bizdə kütləvi qırğın və talanlar cəzasız qalmışdır! Mən Hökmdarın nümayəndəsinin qarşısında açıq bildirirəm ki, hökumət cinayətkar fəaliyyətsizlik göstərmiş və cinayətə şərait yaratmışdır”.[1]

Beləliklə, erməni nümayəndələr çar hökumətinin Qafqazdakı nümayəndələrinə sərt və açıq meydan oxuyaraq azərbaycanlıları günahlandırmaqdan imtina etdilər, bildirdilər ki, bütün təqsirlər rus hökumətindədir. Lakin şübhə yoxdur ki, debatların məhz bu cür xarakteri onların xeyrinə idi, çünki bu halda “Daşnaksutyun” və digər gizli erməni təşkilatları tamamilə kənarda qalar və məclis bütünlüklə Qafqaz hökumətinin ifşa olunmasına həsr edilə bilərdi. Təsadüfi deyil ki, azərbaycanlı nümayəndələrin “Daşnaksutyun”un buraxılması haqqında tələbinə ermənilər özünəməxsus bir tərzdə cavab vermişdilər: ““Daşnaksutyun”u biz yaratmamışıq və bu təşkilatı biz məhv edə bilmərik; o və ona oxşar təşkilatlar ətraf həyatın şəraiti nəticəsində yaranır və bu şərait olmadıqda “Daşnaksutyun” təşkilatı öz-özünə məhv olacaqdır”.[2] Başqa sözlə desək, erməni nümayəndələr hamını “Daşnaksutyun”un mövcud olması ilə barışmağa çağırırdılar, çünki bu cəmiy-

---

[1] Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как, один из фазисов армянского вопроса, с.9-10.
[2] Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как, один из фазисов армянского вопроса, с.31.

yət onlar üçün çox zəruri idi. Digər tərəfdən, Xatisovun nitqində panislamizm təhlükəsinin mövcud olması haqqında fikirlər səslənmişdi. Beləliklə, o ermənilərin hökumətə düşmən olmasını ustalıqla maskalamağa və canişinin şəxsində hökumət nümayəndələrini inandırmağa çalışırdı ki, "Daşnaksutyun"un fəaliyyəti bu diyara qonşu müsəlman dövlətlərdən nüfuz etmiş panislamizm təzahürlərinin nəticəsidir. Ermənilərin bu ənənəvi hücumlarına ən dəqiq cavab o vaxt Rusiya İmperiyasının Osmanlı Türkiyəsindəki rus konsulu olmuş V.Mayevski vermişdir: "Doğrudan da, fərz edək ki, Qafqazda panislamizm ideyaları güclü inkişaf etmişdi. Lakin onda heç cür başa düşmək olmur ki, nə üçün tatarların bu ideyaları yalnız və yalnız ermənilərə qarşı savaş və qarətlərdə təzahür edir, Qafqazın digər xalqlarını kənarda qoyur? Belə olan təqdirdə ən çox əziyyət çəkən rus elementi olmalı idi, panislamizm ideyaları ilk növbədə bu elementə qarşı mübarizə aparmalıdır. Lakin həqiqətdə buna oxşar heç bir şey aşkar etmək olmamışdı. Nə üçün tatarlar gürcülərə toxunmamışlar?... və nə üçün panislamizmin qurbanları yalnız və yalnız ermənilər olmuşlar?...". Mayevski daha sonra yazır: "Ermənilərin "Qafqaz hökumətinin cinayətkar hərəkətsizliyini və cinayətkarlara şərait yaratmasını ifşa etmək üçün tatarların da onlara qoşulması barədə dəvəti uğursuz oldu. Tezliklə məlum oldu ki, azərbaycanlı nümayəndələr bu məsələdə əsla iştirak etmirlər. Onların tərəfindən Qafqaz hakimiyyətinin ünvanına heç bir ittiham eşidilmir. Onlar anarxiya yaranmasının təqsirini yalnız "Daşnaksutyun"da görürlər. Üstəlik, onlardan bəziləri

ehtiyatsızlıq edərək hətta rus hökumətini müdafiə etmək üçün fikir söyləməyə cəhd göstərmişdir”.[1] Qurultay Qafqaz Canişinin yanında hər iki millətin hörmətli və etibarlı vətəndaşlarından ibarət barışıq komissiyaları yaradılması haqqında qərar qəbul etdi, lakin oraya öz nümayəndələrini göndərməkdən imtina etmiş Bakı və Yelizavetpol erməni icmalarının təqsiri üzündən həmin komissiyalar yaradılmadı.[2] Bununla əlaqədar, müvafiq milli strukturlar yaradılması yolu ilə milli mənafelərin müdafiəsi məsələsi gündəmə gəldi.

Bakıda və Azərbaycanın bir sıra qəzalarında geniş fəaliyyətə başlamış, əhali arasında kifayət qədər güclü dəstək qazanmış Azərbaycanın milli partiysı olan “Difai” (Müdafiə) partiyasının yaradılması 1906-cı ilin payızına təsadüf edir. Partiyanın yaradılması haqqında qərarı Ə.Ağayev qəbul etmişdir. Onun özünün başçılıq etdiyi mərkəzi komitə Bakıda yerləşirdi. Ümumiyyətlə, “Difai” partiyasının kim tərəfindən, nə vaxt və harada yaradılması məsələsi tarixşünaslıqda birmənalı şəkildə işıqlandırılmamışdır. Bu məsələnin hərtərəfli tədqiqi sovet tarixşünaslığında mövcud olmuş belə bir tezisi tamamilə inkar etməyə əsas verir ki, guya bu partiya 1905-ci ildə, yəni qanlı erməni-azərbaycanlı qarşıdurmasının ən şiddətli dövründə yaradılmış və “erməni-tatar qırğınının” fəal təşkilatçısı kimi çıxış etmişdir.[3] O dövrdə bu tezis çox

---

[1] Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как, один из фазисов армянского вопроса, с.10-11.
[2] «Баку», 1906. 24 мая.
[3] История Азербайджана.т.2, с.585; Казиев М.А. Из истории революционной борьбы бакинского пролетариата (1905-1910 гг.). Баку,1956, с.69.

münasib idi, çünki həmin münaqişədə azərbaycanlıların və ermənilərin təqsirinin dərəcəsi məsələsində necə deyərlər özünəməxsus bir paritet yaradır və tərəflərə onların "Difai" və "Daşnaksutyun" burjua partiyaları başçılıq edirdi.

Məsələn, Mirzəbala Məmmədzadə öz xatirələrində məşhur türk maarifçisi Yusif Akçuraya istinad edir. Akçura Əhməd bəy Ağayevə həsr edilmiş əsərində yazır: "1905-ci ildə Əhməd bəy Ağaoğlu Bakıda "Fədai" cəmiyyətini yaratmışdır". Akçura "Fədai" dedikdə "Difai"ni nəzərdə tuturdu. Çünki o, öz işində bu partiyanın çağırışının mətnini vermişdir. Həmin mətnlə aşağıda tanış olacağıq.[1] Partiyanın həmin tarixdə yaradılmasına X.Məmmədov da istinad edir.[2]

Partiyanın harada və kim tərəfindən yaradılması məsələsində də mövqelər müxtəlifdir. Məsələn, Sventoxovski yazır: "Müdafiə" adı ilə məşhur olan bu təşkilat 1905-ci ilin yazında Gəncədə burada tanınmış və öz siyasi karyerasını müəyyən etmiş insanların – Şəfi Rüstəmbəyov, Ələkbər və Xəlil Xasməmmədov qardaşları, İsmayıl Ziyadxanov, Nəsib Usubbəyov (Yusifbəyli) və Doktor Həsən Ağazadənin təşəbbüsü ilə yaradılmışdır. Bakıdan Əhməd Ağayev də onlara qoşulmuşdur. Bu təşkilatın yaranması Gəncənin Azərbaycanda milli hərəkat mərkəzinə çevrilməsi demək idi. Şəhər bu vəziyyəti gələcəkdə də qoruyub saxlayacaqdır".[3] "Difai"nin üzvlərindən biri ol-

---

[1] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s.39.
[2] Məmmədov X. Azərbaycan milli hərəkatı. 1875-1918-ci illər, s.86.
[3] Свентоховский Т. Русский Азербайджан 1905 -1920. Формирование национального самосознания в мусульманском обществе. http: //www. kitabxana.org/site/sventoch.htm

muş N.Şeyxzamanlı yazır: "Əhməd bəy Ağayev Gəncəyə gəldi və Cümə məscidində camaatla görüşdü. Ə.Ağayev çıxış edəndən sonra Ələkbər bəy Rəfibəyovla, Ələkbər və Ələsgər Xasməmmədovlarla, Nəsib bəy Yusifbəyovla görüşmüş, onlarla söhbət zamanı çar hökumətinə müqavimət göstərə biləcək bir təşkilat yaradılması qərara alınmışdır. Həmin təşkilatı "Difai" adlandırmaq qərara alındı. Sonradan "Difai"nin möhürü hazırlandı".[1] Partiyanın kim tərəfindən, harada və nə vaxt yaradılması barədə ən dəqiq məlumatlar Ə.Əhmədov, İ.Bağırova və S.Süleymanovanın işlərində verilmişdir. Onlar arxiv mənbələrinə əsaslanaraq göstərirlər ki, partiya 1906-cı ilin payızında Bakıda Ə.Ağayev tərəfindən yaradılmışdır.

Əhməd bəy Mirzə Həsən oğlu Ağayev (Ağaoğlu) 1869-cu ildə Qarabağda, Şuşa şəhərində anadan olmuşdur. 1887-ci ildə Ağayev Şuşa realnı məktəbini müvəffəqiyyətlə bitirərək Peterburqa gedir və Texnologiya İnstitutuna imtahan verir. 1888-ci ildə Əhməd bəy Peterburqda təhsilini başa vurmadan Parisdə məşhur Sorbonna universitetinin nəzdindəki hüquq məktəbinin tələbəsi olur. 1890-cı ildən başlayaraq Fransanın bir sıra nüfuzlu nəşrlərində Ağayevin silsilə məqalələri dərc edilir. Elə həmin dövrdə - 90-cı illərin əvvəlində o, Tiflisdə Qafqaz canişinliyi mərkəzində çıxan "Qafqaz" və Bakıda çıxan "Kaspi" qəzetləri ilə sıx əməkdaşlıq edir. Təqribən 6 il davam etmiş Paris həyatından sonra 1894-cü ilin əvvəlində Əhməd bəy Ağayev atasının ölüm xəbərini alır və vətənə qayıdır.[2] 1897-ci ildə

---

[1] Şeyxzamanlı N. Azerbaycan istiklal mucadelesinin hatiralari, s.30.
[2] Гулиев В. Ахмед Агаоглу –«Последний из могикан». Газета «Зеркало»,2007, 1 сентября.

Ə.Ağayev Bakıya gəlib Ə.Topçubaşovla birlikdə "Kaspi" qəzetinin faktiki redaktorlarından və aparıcı müəlliflərindən biri kimi işləyir, eyni zamanda Bakı Ali Ticarət məktəbində fransız dilindən dərs deyir. 1905-ci ilin iyun ayından Ağayev "Həyat" qəzetini nəşr edir. O, "Həyat"ın birinci nömrəsində dərc edilmiş proqram xarakterli məqalədə yazırdı: "Əgər biz irəli getmək istəyiriksə və həyat qüvvəsinə malik olan millət olmaq istəyiriksə, ilk növbədə müsəlman olaraq qalmalıyıq. Bizim irəliyə doğru hərəkətimiz, həyat şəraitimizi yaxşılatmaq səylərimiz islam qanunları ilə birləşdikdə uğurlu ola bilər". Təsadüfi deyil ki, senzur komitəsinin yüksək vəzifəli məmurları qəzeti və onun redaktorunu "panislamist ideyalarının qızğın tərəfdarı", "bütün müsəlmanların xəlifəsi kimi ad çıxarmış Türkiyə Sultanının nüfuzunu və qüdrətini artırmaq tərəfdarı" kimi qələmə vermişdilər. Digər tərəfdən "Həyat" qatı panislamizmdə təqsirləndirilir, bildirilirdi ki, bu mətbu orqanda ermənilər əleyhinə aparılan təbliğat nəticəsində Qafqazda müsəlman fanatizmi şiddətlənəcək, erməni fobiyası güclənəcəkdir. Xüsusi vurğulanırdı ki, "İslamın saflığı və toxunulmazlığı" ideyalarını təbliğ edən Ağayev çarizmə və ruslara qarşı barışmaz mövqe tutur.[1]

"Difai" partiyası Ə.Ağayev tərəfindən 1906-cı ilin payızında yaradılmasına baxmayaraq hökumətin bu partiya haqqında ilk məlumatları yalnız 1907-ci ildən başlayaraq, yəni qanlı erməni-azərbaycanlı qarşıdurmasının aktiv fazası başa çatdıqdan sonraya aiddir. 1907-ci il mayın 30-

---

[1] Гулиев В. Ахмед Агаоглу –«Последний из могикан». Газета «Зеркало», 2007, 8 сентября.

da Yelizavetpol qubernatoru Q.Kovalyov ona çatmış məlumatlar əsasında polis rəislərinə tapşırıq verir ki, tamamilə məxfi yollarla bu partiyanın şəxsi heyətini, onun məqsədlərini və nəhayət onun hansı vəsaitlər hesabına mövcud olmasını aydınlaşdırsınlar.

"Qafqaz Ümummüsəlman Müdafiə Komitəsi – Difai" təşkilatının yaradılması haqqında rus və Azərbaycan dillərində ilk çağırışlar 1906-cı il oktyabrın ortalarında Tiflisdə, Bakı və Yelizavetpol quberniyalarında ortaya çıxmışdır.[1] Həmin çağırışlarda "Difai" partiyasının yaranması səbəbləri belə şərh edilirdi: "Qafqaz müsəlmanları ermənilərlə özlərinin qanlı münaqişələrində inqilabi əhval-ruhiyyəli erməni kütlələri ilə müqayisədə guya loyal elementlər olması barədə aldadıcı fikirlərlə sərməst olduqca, bu fikirlər Qafqaz administrasiyası tərəfindən dəstəkləndikcə, müsəlmanlar mahiyyət etibarilə həqiqətən loyal idi. Lakin hərəkatın rəhbərləri yəqin edəndə ki, istər mərkəzi hökumət, istərsə də onun Qafqazdakı nümayəndələri artıq bu cür yanılmaları dəstəkləmək niyyətində deyil, hər hansı zorakılığı diyarın ictimai təhlükəsizliyinin və asayişinin qorunması baxımından eyni dərəcədə cinayət hesab edəndə onlar dərhal cəbhəni dəyişdilər və yerli hökuməti ermənipərəstlikdə təqsirləndirməyə başladılar. Təəssüf ki, bunu təsdiq edən məlumatlar vardır. Onlar öz loyallıqlarını unutdular və müsəlman əhalini hökumətə qarşı hətta terror yolu ilə fəaliyyətə dəvət etdilər".[2]

[1] ГИААР: ф.62, оп.1, д.59, л.163.
[2] ГИААР: ф.524, оп.1, д. 18, л. 36.

Bundan əlavə, 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişələrinin nəticələri “Difai”ni yaradanlara göstərdi ki, mütəşəkkil düşmənlə mübarizə həmişə sonuncunun xeyrinə başa çatır. “Difai”nin müraciətində deyilirdi: “Düşmənin gücü onda ifadə olunmuşdur ki, ermənilər yaşından və ictimai mövqeyindən asılı olmayaraq “Daşnaksutyun” partiyasının ətrafında birləşmişlər, onların külli məbləğdə maddi vəsaiti, silahları, yaxşı təlim keçmiş və silahlı “zinvorları” vardı. Yüksək cəmiyyətdən və hökumətdən olan üzvləri vasitəsilə azərbaycanlılarla ermənilər arasında münaqişələrin yatırılmasında hökumət orqanlarının sərəncamlarına təzyiq göstərir, bu yolla həmin sərəncamları öz mənafelərinin müdafiəsinə yönəltməyə nail olurdular”.[1] “Difai”nin müraciətlərində bu komitə tərəfindən müsəlman əhali üçün zərərli hesab ediləcək və ermənipərəstlikdə şübhə doğuracaq vəzifəli şəxslər terrorla hədələnirdi.[2] Partiyanın bölmələri və ya “komissiyaları” Azərbaycanın və cənubi Qafqazın demək olar ki, bütün şəhərlərində və qəzalarında, hətta Vladiqafqazda da yaradılmışdı.[3] Partiyanın qəza bölmələrinin yaradılmasında Ə.Ağayev bilavasitə iştirak edirdi. Bu məqsədlə o, bütün Qarabağı gəzmiş və “bütün müsəlmanları partiyanın ətrafında sıx birləşməyə” təşviq etmişdir. Partiyanın təşkilatçıları Dağıstandakı azərbaycanlı əhali arasında da təşviqat aparırdı.[4]

---

[1] ГИААР: ф.524, оп.1, д. 18, л.37.
[2] ГИААР: ф.62, оп.1, д.59, л.163.
[3] ГИААР: ф.62, оп.1, д.59, л.165.
[4] Лернер В.А. К вопросу о деятельности в Азербайджане буржуазно-националистической организации "Дифаи" - Доклады АН Аз.ССР, т.XXXV, № 1, 1979, с.92.

“Difai” yaxşı təşkilatlanmış və silahlanmış “Daşnaksutyun”un müqabilində müdafiə təşkilatı kimi yaradılmışdı. Əslində bu təşkilatın yaradılmasına sövq edən amil də bundan ibarət idi. Lakin partiya təkcə hərbi məqsədlər güdmürdü. Bu, partiyanın proqramından da görünürdü. Həmin proqramın layihəsi 1906-cı ildə Ə.Ağayev tərəfindən dərc edilən “İrşad” qəzetinin (”İrşad” sözünün mənası “Haqq yoluna çağırış” deməkdir. – **Müəllif**) 213-cü nömrəsində dərc edilmiş, həmçinin jandarm məlumatlarında qalmışdır.[1] Bu layihəni bəndlər üzrə dəqiq ifadə edilmiş proqram adlandırmaq çətin olsa da, partiyanın əsas məqsəd və vəzifələri, eləcə də onlara çatmaq yolları burada kifayət qədər aydın şərh edilmişdir. Partiya öz xalqını erməni-müsəlman münaqişələrindən xilas etməyi və onu maarifləndirməyi özünün başlıca və əsas məqsədləri elan edirdi. Bu məqsədə çatmaq üçün partiyanın iki vasitəsi vardı: təhsil və güc, yəni partiya öz xalqına təhsil verməyə, nadan kütlələri maarifləndirməyə, digər tərəfdən güc vasitəsilə onu xarici düşmənlərdən və hökumətdəki satqınlardan xilas etməyə şərait yaratmalıdır. Proqramın mübariz tonu partiyanın özünün yaranmasını şərtləndirmiş və kütlələrin əhval-ruhiyyəsinə cavab verən səbəblərlə bağlı idi. Proqramda deyilirdi: “Hökumət dairələri, xüsusən cənab Vorontsov-Daşkovun canişin olduğu kədərli günlərdə erməni “Daşnaksutyun” təşkilatının bombaları və gülləleri qarşısında qorxaqcasına baş əydilər, bu təşkilatın Qafqazda itaətkar alətlərinə çevrildilər. Yerli hakimiyyət orqanları “Daşnaksutyun”un əlində miskin bir vasitə oldular, o da mütəşəkkil qoşunlara malik

---

[1] Гулиев В. Ахмед Агаоглу –«Последний из могикан». Газета «Зеркало»,2007,15сентября.

olduğundan və hökuməti öz alətinə çevirdiyindən, müsəlmanları Qafqaz diyarından sıxışdırıb çıxarmağı, onları məhv etməyi, onların torpaqlarına yiyələnməyi, sonra isə öz Milli İdarəsini yaratmağı əsas məqsəd kimi qarşıya qoymuşdu”.[1] Partiyanın proqramında daha sonra deyilirdi: “Vorontsov-Daşkovun, “Daşnaksutyun” başçılarının bu qorxaq dostunun və onun əlaltısı, elə onun kimi qorxaq quldur Qoloşşapovun səhlənkarlığı sayəsində “Daşnaksutyun” öz planını həyata keçirmək üzrədir. Zəngəzur qəzası, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının Qoloşşapov, Kleşşinski, Mitskeviç, Smorodski kimilərin rəhbərliyi altında “Daşnaksutyun” tərəfindən talan edilmiş hissələri əslində ermənilərin əlinə keçmişdir. Minlərlə müsəlman kəndlilərinin evlərinə od vurulmuş, bu ailələr oradan qovulmuş, müflis vəziyyətdə Yelizavetpol quberniyasında sərgərdan gəzib dolaşır, heç yerdə nə sığınacaq tapır, nə müdafiə, nə qida, nə də yaşamağa bir yer tapırdı”. Digər tərəfdən izah edilirdi ki, öz millətimizin “qabaqcıl adamları” öz xalqı üçün heç nə etməmiş, yalnız onu bir-biri ilə düşmənçilik aparan müxtəlif qruplara bölmüşlər. Onlar xalqı nə nadanlıqdan, nə də onun inkişafını ləngidən və bütün hüquqlarını əlindən almış hökumətin təzyiqindən xilas etmişlər. Bu əməllərin nəticəsi göz qabağındadır. İndi bizim xalqımız məhv olur. Bir tərəfdən xarici düşmən bizi sıxışdırır, digər tərəfdən özümüz-özümüzü talanlar və qətllər yolu ilə məhv edirik.[2] Proqramda daha sonra deyilirdi: “Buna görə də Şimali Qafqazdan, Dağıstandan və Zaqafqaziyadan olan minlərlə

---

[1] Багирова И. Политические партии и организации Азербайджана в начале XX века, с.175.
[2] ГИААР: ф.524, оп.1,д.18, л.41.

igid və öz xalqını sevən gənc bir yerə toplaşaraq müqəddəs Qurana and içərək “Difai” partiyasını yaratmışlar”.[1]

Partiyanın proqramından göründüyü kimi, “Difai” partiyası öz fəaliyyətinin xarakterinə və taktikasına görə çar Rusiyası ərazisində fəaliyyətə başlamış o biri siyasi partiyalardan bir qədər fərqlənirdi. Digər siyasi partiyalar milli məsələdə, milli dövlət quruculuğu məsələlərində konkret siyasi tələblər irəli sürür, seçkilərdə iştirak yolu ilə fəal siyasi mübarizə aparırdı. “Difai” isə ciddi konspirasiya şəraitində fəaliyyət göstərir, mədəni tərbiyə işinə, xalq qüvvələrinin konkret şəxslərlə, yerli çar administrasiyasının ali vəzifəli nümayəndələri və ya təşkilatlar ilə (“Daşnaksutyun” kimi) mübarizədə sıx birləşməsi və təşkilatlanması məsələsinə daha çox diqqət yetirirdi. Yelizavetpol qubernatorunun 19 avqust 1907 -ci il tarixli raportu buna sübutdur. Qubernator həmin raportda qeyd edirdi ki, “Difai” partiyası cəmiyyətin geniş təbəqələri arasında hələlik heç bir siyasi tələb irəli sürmür. Lakin sonradan aydın oldu ki, bu, partiya rəhbərlərinin düşünülmüş taktikası idi. Onlar mərkəzi hökuməti qorxutmamaq üçün perspektiv planlarını bəyan etmirdilər. Partiya əsasən formalaşdıqdan sonra isə siyasi ideyalar: ilk müstəqil türk dövlətinin yaradılması ideyası ön plana keçdi. Bu, “Difai”ni Azərbaycanda ilk milli siyasi partiya hesab etməyə əsas verir. Qubernator eyni zamanda hökuməti ehtiyatlı olmağa çağırırdı: “Güman edirəm ki, yaxın gələcəkdə bu partiya geniş inzibati, mənəvi və məhkəmə özünüidarəsi məsələləri ilə məşğul olacaq və

[1] Багирова И. Политические партии и организации Аз ербайджана в начале XX века, с.176.

çox güman ki, gələcəkdə Qafqazın və Zaqafqaziyanın müsəlman vilayətlərinin muxtariyyətini təbliğ etməyə başlayacaqdır”.[1]

Rəsmi sənədlərdən göründüyü kimi, əksər hallarda partiya üzvlüyünə əhalinin orta və aşağı siniflərinə mənsub olan şəxslər: tacirlər, kəndlilər, tələbələr və sərbəst peşə sahibləri – həkimlər, öz liberal baxışları ilə tanınmış vəkillər qəbul edilirdi. Şəriət ideyalarının təbliğ edilməsi onu göstərirdi ki, ruhanilər arasında da bu partiyanın tərəfdarları vardı. Bəylərin və xanların, yəni müsəlman zadəganlarının nümayəndələrinin partiyaya daxil olması isə çətin idi, çünki “Difai” partiyası onları xalqın zülmkarları, rus hökumətinin tərəfdarları hesab edirdi.[2] Bu fikirlər “Difai” partiyası rəhbərlərinin, bəzi tarixçilərin təsvir etməyə çalışdıqları kimi panislamizm və pantürkizm ideyalarına deyil, o dövrdə populyar olan sosial-demokratiya ideyalarına sadiq olmasını təsdiq edir. Nəzərə almaq lazımdır ki, partiya öz son məqsədlərinə nail olmaq üçün cəmiyyətin bütün sosial təbəqələrinin əhvalını və istəyini nəzərə almalı və bunu öz rəsmi proqramlarında əks etdirməli idi. Partiya diyarda zemstvo özünüidarəsi təsis etmək, həmçinin 1870-ci ilin məhkəmə islahatından sonra mərkəzi Rusiyada olduğu kimi məhkəmə müəssisələrini yenidən təşkil etməyi nəzərdə tuturdu.[3] Artıq qeyd etdiyimiz kimi, proqramın müxtəsər variantı “İrşad”

---

[1] Документы по русской политике в Закавказье. Вып.1, Баку, 1920, с.21; ГИААР: ф.524,оп.1, д.15, л.2-7.
[2] ГИААР: ф.524,оп.1, д.18, л.39.
[3] Самедов В. Распространение марксизма-ленинизма в Азербайджане, с. 121.

qəzetində dərc edilmişdi və geniş kütlələr üçün nəzərdə tutulurdu. Görünür, həmin proqramın tam variantı partiyanın ən iri bölməsi olan "Qarabağ Birlik Məclisi"nin 1907-ci il oktyabr ayında dərc etdiyi və partiya üzvləri üçün rəhbər sənəd olan proqram idi. Bundan əlavə, proqramın əsas müddəaları "Difai"nin proklamasiyalarında öz əksini tapmışdır.

Səciyyəvi haldır ki, bolşeviklər dərhal "Difai"nin yaradılmasını öz mətbuat səhifələrində pisləməyə başladılar. Hümmətçi bolşeviklərin "Təkamül" qəzeti yazırdı ki, millətlərarası münaqişələrdə həm müsəlman, həm də erməni millətçiləri guya bərabər dərəcədə təqsirkar olduğuna görə bizim "bir "Daşnaksutyun"la birləşərək o birisinə qarşı çıxış etməyimiz yaraşmaz. Biz onlara ciddi müqavimət göstərməliyik".[1] Qəzetin başqa bir nömrəsində deyilir: "Biz təkcə "Daşnaksutyun"a qarşı deyil, həm də "Daşnaksutyun"a oxşayan müsəlman burjua qruplaşmalarına qarşı çıxış edirik... "Difai" partiyası Qafqaz xalqlarının azadlığının və müstəqilliyinin müdafiəsi işində erməni daşnaksakanları və gürcü federalistləri ilə həmrəydir və onların yolu ilə gedir".[2] Burada biz yenə təcavüzkara və onun qurbanına eyni münasibətin, qondarma bərabər təqsir prinsipinin şahidiyik. Bolşeviklər münaqişənin mahiyyətindən qəsdən yan keçərək həm "Daşnaksutyun"a, həm də "Difai" partiyasına qarşı mübarizə aparmağa çağırırdılar.

---

[1] Наджафов Б. Лицо врага, ч.1, с.210.
[2] Самедов В. Распространение марксизма-ленинизма в Азербайджане, с.539.

Qeyd etdiyimiz kimi, partiyanın mərkəzi komitəsi Bakıda yerləşirdi. Polis məruzələrində MK üzvləri arasında aşağıdakıların adları çəkilir – 1) Əhməd bəy Ağayev – “İrşad” qəzetinin redaktoru; 2) Qarabəy Qarabəyov – həkim, “Hümmət” təşkilatına mənsub idi və eyni zamanda “Difai”nin üzvü idi; 3) Məmmədhəsən Hacınski; 4) İsa bəy Aşurbəyov – Ağayevin ən yaxın məsləkdaşı, onun sağ əli; agentura məlumatlarına görə “İrşad” qəzeti əsasən Aşurbəyovun vəsaiti hesabına saxlanırdı; 5) Behbud Cavanşirski; 6) Niftalı bəy Behbudov.[1]

Gördüyümüz kimi, “Difai”nin Mərkəzi Komitəsinə başqa partiyaların üzvləri də daxil idi. O dövrdə bu hal çox səciyyəvi idi. Bir sıra partiya xadimləri bir təşkilatdan digərinə keçir, ya da eyni vaxtda bir neçə partiyanın üzvü olurdular. Sonradan eyni mənzərəni “Müdafiə” partiyasında da müşahidə etmək olardı. Gəncə, Zəyəm, Qazax, Borçalı və başqa mahallarda “Difai”nin keçmiş üzvlərinin bəziləri “Müdafiə” partiyasının üzvləri olmuşlar.[2] X.Məmmədov arxiv məlumatlarına istinadla göstərir ki, M.Ə.Rəsulzadə də “Difai” partiyasının üzvləri sırasında olmuşdur.[3] “Difai” partiyası daim təqiblərə məruz qalır, hakimiyyət orqanları onu müşahidə altında saxlayırdı. Buna görə o, leqal xeyriyyə cəmiyyətlərinin himayəsi altında

[1] Документы по русской политике в Закавказье, с.25; ГИААР ф.524,оп.1, д.15, л.21-24.
[2] Mustafayev Q. XX əsrin əvvələrində Azərbaycanda islam ideologiyası və onun tənqidi, s.240.
[3] Məmmədov X. Azərbaycan milli hərəkatı 1875-1918-ci illər, s.85.

Mərkəzi Müsəlman Xeyriyyə Cəmiyyəti adı ilə fəaliyyət göstərməyə məcbur idi.[1]

Ə.Ağayev müstəsna olmaqla Bakıdakı MK üzvlərinin "Difai"də iştirakı kifayət qədər formal xarakter daşıyırdı, çünki partiyanın əsas fəaliyyəti Bakının hüdudlarından kənarda cərəyan edirdi. Qısa müddətdə o, Azərbaycanın qərb qəzalarını – Şuşa, Zəngəzur, Qaryagin, Cavanşir qəzalarını və Gəncə şəhərini əhatə etmişdi.[2] İ.Bağırova öz tədqiqatında arxiv məlumatları əsasında müəyyən etmişdir ki, partiya üzvlərinin ümumi sayı 1000 nəfərdən çox olmuşdur. Bu nəticələr ona əsaslanırdı ki, əvvələn, partiyanın yerli (qəza) komitələrinə 7-15 nəfər daxil idi. Təxminən eyni sayda (6 nəfərdən 17 nəfərə qədər) təbliğatçı olurdu.[3] İkincisi, partiya komitələrinin 7 şəhərdə - Şuşa, Gəncə, Ağdam, Bərdə, Yevlax, Qaryagin və Cəbrayılda fəaliyyət göstərdiyini nəzərə alsaq, Bakı da daxil olmaqla, partiya fəallarının ümumi sayı 160 nəfər idi. Bundan əlavə hər bir komitənin döyüş drujinası vardı. Belə drujinalardan ən böyüyünün say tərkibi məlumdur – Şuşa döyüş drujinası 400 nəfərdən ibarət idi.[4] O biri komitələrdə döyüşçülərin sayının bir neçə dəfə az (50 nəfərdən 100 nəfərə qədər) olduğunu fərz etsək, həmin komitələrdə 1907-ci ildə cəmi 900-ə yaxın üzv olmalı idi. Beləliklə, "1917-ci ilə qədər

---

[1] Документы по русской политике в Закавказье, с.7; ГИААР: ф.524,оп.1, д.15, л.8.
[2] Документы по русской политике в Закавказье, с. 19; ГИААР: ф.524,оп.1, д.15, л.2-7.
[3] Документы по русской политике в Закавказье, с.22, 23, 28,29.
[4] Документы по русской политике в Закавказье, с.26; ГИААР: ф.524,оп.1, д.15, л.21-24.

“Difai” istər say tərkibinə görə, istərsə də kütlələrə təsir qüvvəsinə görə, Azərbaycanın ən iri partiyası idi”.[1]

[1] Багирова И. Политические партии и организации Азербайджана в начале XX века, с.172.

## “Qarabağ Birlik Məclisi”: təşkilati strukturu və proqramı

“Difai” partiyasının ən çoxsaylı, nüfuzlu və fəal bölməsi mərkəzi Şuşada olan Qarabağ bölməsi idi. Bu bölmədə 400-ə yaxın üzv vardı.[1] 1907-ci ilin ortalarından həmin bölmə “Qarabağ Birlik Məclisi” adlanırdı. Cavanşir qəzasının rəisi 1907-ci il dekabrın 7-də Yelizavetpol qubernatoruna məktubunda yazırdı ki, “Qarabağ Birlik Məclisi” müsəlmanların “Hidayət” xeyriyyə cəmiyyətinin himayəsi altında yaradılmışdır.[2] Məclisin yaradılmasından əvvəl Cənubi Qafqaz, Şimali Qafqaz və Krım müsəlmanlarının qurultayı keçirilmişdir. 1907-ci ilin mart ayında Yelizavetpol şəhər qlavası Əsgərağa Adıgözəlovun evində keçirilmiş bu qurultayda Bakı xanları da iştirak edirdi. Qurultayın işində İsmayıl bəy Qaspinski də iştirak etmişdir. Qurultay qərara almışdı: “1) “Daşnaksutyun”a bənzər olan Zaqafqaziya müsəlman ittifaqı (Krım nümayəndələrinin iştirakı ilə) təşkil edilsin və sonuncu kimi terror yolu ilə hökumətdən güzəştlərə nail olunsun; 2) cari ilin baharında Qarabağda erməni “xumbaları” müqabilində Cəfər bəy Vəzirov başda olmaqla “Difai” dəstələri yerləşdirilsin”. Zaqafqaziya müsəlman ittifaqının başçısı vəzifəsinə əvvəlcə Ələkbər bəy Rəfibəyovun namizədliyi təklif edilmişdir, lakin səsvermədən sonra bu vəzifəyə Dövlət Dumasının sabiq üzvü İsmayıl bəy Ziyadxanov seçildi. İlk növbədə administrasiya və məhkəmə nümayəndələrini terrora məruz qoymaq nəzərdə tutulurdu. Daha bir maraqlı

[1] Документы по русской политике в Закавказье, с. 26.
[2] Документы по русской политике в Закавказье, с.35.

qərar qəbul edilmişdi. Əgər həmin qərar praktiki olaraq həyata keçirilsəydi, regiondakı tarixi hadisələrin bütün gedişini dəyişə bilərdi. Bakı kapitalistləri Tağıyevlərin və Əsədullayevlərin köməyi ilə Ağdam yaxınlığında knyaz Usmiyevlərin malikanələrini ermənilərdən almaq, eləcə də “yalnız müsəlmanların məskunlaşdırılması, şuşalıların hökmən Şuşada yaşamağa məcbur edilməsi və ümumiyyətlə, Qarabağın müsəlman əyalətinə çevrilməsi üçün” Ağdamdan başlamış Xocalı stansiyasına qədər bütün torpaqları ermənilərdən almaq qərara alınmışdır”.[1]

Yelizavetpol qurultayının demək olar ki, bütün qərarları kağız üzərində qaldı. Zaqafqaziya Müsəlman İttifaqı yaradılmadı, torpaqlar ermənilərdən alınmadı. Erməni tarixçisi Q.Qaloyanın fikrincə, “Difai”nin planının puç olmasının iki səbəbi vardı: “Əvvələn ona görə ki, heç bir erməni öz evini müsəlmanlara qoyub getməyə razılaşmadı. İkincisi, Birinci Rus İnqilabı məğlub olandan sonra Rusiyanın Zaqafqaziyada mövqeləri yenidən möhkəmlənmişdi və o, yol verməzdi ki, hər hansı millətçi inqilabi təşkilat orada öz separatist siyasətini yeritməyə cəhd göstərsin”.[2] Qurultayın qərarlarından yalnız biri – “Difai”nin Qarabağ bölməsinin yaradılması planı praktikada həyata keçirildi. Şuşa komitəsi başda olmaqla “Qarabağ Birlik Məclisi” yaradıldı. Bu təşkilat 1907-ci il avqustun əvvəlində Əhməd bəy Ağayev Şuşaya gələndən sonra yaradıldı. O, Şuşada nüfuzlu və hörmətli tatarların məclisini təşkil etdi. “Qarabağ Birlik Məclisi”nin fəaliyyət sahəsi Şuşa, Cavanşir,

---

[1] ГАППОДАР: ф.276, оп.8, д.231, л.1-2; ГИААР: ф.524, оп.1, д.18, л.38.

[2] Галоян Г. http: //www.regnum.ru/news/140928.html

Qaryagin və yaxınlıqdakı Zəngəzur qəzalarını əhatə edirdi.[1] Qarabağ məclisinin sosial tərkibinin müxtəlifliyi onun səciyyəvi cəhəti idi. Burada ziyalılar, tacirlər və ruhanilərlə yanaşı kəndlilərin, o cümlədən varlı kəndlilərin də xeyli hissəsi təmsil olunmuşdu. İrəlidə görəcəyimiz kimi onları buraya cəlb edən partiyanın proqramının aqrar və sosial bölmələri idi. Bundan əlavə, Cavanşir qəza rəisinin işlər müdiri knyaz Candiyerinin Yelizavetpol qubernatoruna raportundan bəlli olur ki, Qarabağ xanlarının xeyli hissəsi (təxminən 100 nəfər) Qarabağ komissiyasının xalqa çox güclü təsirindən narahat olaraq, "proqramın hökumət nümayəndələrinə və müəssisələrinə zidd olan bəzi bəndlərini rədd edərək xalqla və bu cəmiyyətlə əlbir olacaqlarına sədaqət andı içmişlər".[2] Düzdür, onların çoxu müvəqqəti cığırdaşlar, bəziləri isə hətta provokator və xəbərçi oldu, lakin onların partiyaya daxil olması faktının özü "Məclis"in Qarabağda çox populyar olmasına sübut idi. Yelizavetpol qubernatoru dəftərxanasının və Qafqaz rayon mühafizə bölməsinin işlərində həmin mülkədarların məlumatlarından bir neçəsi saxlanmışdır (aşağıda onlardan misal gətirəcəyik. – **Müəllif**). Bu sənədlər bəylərin "Difai" partiyasına düşmən münasibət bəsləməsinin əyani sübutudur.

"Qarabağ Birlik Məclisi"nin və onun bölmələrinin tərkibini nəzərdən keçirərkən ilk növbədə qeyd etməliyik ki, arxiv sənədləri arasında nə həmin Məclisin üzvləri arasında yazışmalar, nə partiya iclaslarının protokolları, nə

---

[1] Документы по русской политике в Закавказье, с.19; ГИААР: ф.524, оп.1, д.15, л.2-7.

[2] Документы по русской политике в Закавказье, с.25; ГИААР: ф.524,оп.1, д.15, л.21-24.

də partiya qurultaylarının keçirilməsi barədə məlumat vardır. Buna görə də aşağıda verilən siyahı yalnız hüquq mühafizə orqanlarının nümayəndələrinin raportlarındakı məlumatlara əsaslanır. Görünür, həmin nümayəndələr "Difai" partiyasının fəaliyyət miqyasını bir qədər şişirtmək üçün təşkilatın həqiqi üzvləri ilə yanaşı özlərinin siyasi cəhətdən etibarsız hesab etdiyi şəxslərin adlarını da bu raportlara daxil etmişlər. Digər tərəfdən, həmin siyahılara daxil olan bəzi şəxslərin, məsələn, partiyanın Yelizavetpol bölməsi üzvlərinin istintaqı barədə əldə olan materiallar göstərir ki, onlar özlərinin "Difai" partiyasına mənsub olmasını tamamilə inkar edirdilər. Müqayisə üçün qeyd edək ki, erməni inqilabi partiyaları öz üzvləri haqqında kimin hərbi xidmətdə olması, kimin əlində və hansı növ silah olması, eləcə də partiya üzvlərinin ailə vəziyyəti və məşğuliyyəti barədə çox ətraflı məlumatlar toplayırdı. Ümumiyyətlə, "Difai"nin hər bir bölməsinin seçki yolu ilə təyin edilən sədri, onun müavini, katibi, xəzinədarı, pul yığmaqla məşğul olan nümayəndəsi və partiyanın bu və ya digər tapşırıqlarını yerinə yetirən bir sıra üzvləri vardı.[1]

Bütövlükdə "Qarabağ Birlik Məclisi"nə və Şuşa komitəsinə doktor Əbdülkərim bəy Mehmandarov (1854-1929) başçılıq edirdi. Mehmandarov 1872-1877-ci illərdə Peterburq Tibbi-Cərrahiyyə akademiyasında oxumuş, akademiyanı bitirərək həkim ixtisası almışdır. 1877-1878-ci illərin Rus-Türk müharibəsində orduda sanitar dəstənin heyətində xidmət etmişdir. Əla xidmətinə görə 1878-ci ildə

[1] Всеподданнейший отчет о произведенной в 1905 году по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии, с.36.

üçüncü dərəcəli Müqəddəs Anna Ordeni almış, bir qədər sonra isə III Aleksandr adına gümüş xatirə medalı ilə təltif edilmişdir. 1881-ci ilin Mehmandarov tibb doktoru dərəcəsi almaq üçün şifahi və praktiki imtahanı uğurla vermiş, Tibbi Cərrahiyyə Akademiyasının konfransı ona bu barədə şəhadətnamə vermişdir. Demək olar ki, K.Mehmandarov ali tibbi təhsil və doktorluq alimlik dərəcəsi almış ilk azərbaycanlı olmuşdur. 1883-cü ildə hərbi xidməti başa vurandan sonra Mehmandarovun həkimlik fəaliyyəti bütünlüklə Qarabağda səhiyyə işinə həsr edilmişdir. XIX əsrin 90-cı illərində Şuşa qəzasında kənd və qəza həkimi vəzifələrində işləmişdir. 1897-ci ildə həkimlik fəaliyyətinin iyirmi illiyi münasibətilə Mehmandarov ikinci dərəcəli Müqəddəs Anna ordeninə layiq görülmüşdür. O, XX əsrin əvvəlində Qarabağı bürümüş vəba xəstəliyinin yayılmasına qarşı mübarizədə fəal iştirak etmişdir. Mehmandarov bir həkim kimi özünün birbaşa vəzifələri ilə yanaşı, Qarabağda həyata keçirilən müxtəlif mədəni-maarifçilik tədbirlərində də fəal iştirak edirdi. O, Şuşa Xeyriyyə Cəmiyyətinə başçılıq edirdi, sonralar isə Şuşadakı "Nəşri-maarif" maarifçilik cəmiyyətinin rəhbərlərindən biri olmuşdur. 1912-ci ildə onun səyləri nəticəsində Şuşada ilk rus-azərbaycanlı qadın məktəbi açılmışdır. Mehmandarov dördüncü dərəcəli Müqəddəs Vladimir ordeni ilə təltif edilmişdir. Birinci Dünya müharibəsi illərində sanitar kadrlar hazırlanması ilə məşğul olmuşdur.[1]

[1] Таирзаде Н.А. Неизвестные материалы об одном из первых врачей-азербайджанцев А.К.Мехмандарове (1854-1929) / Доклады АН Азербайджанской ССР. Баку , 1962, № 2, с.81-87; Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 clddə, c.2, Bakı, 2005, s.177-178.

Şuşa komitəsinin üzvləri arasında Cahangir xan Nurubəyov (sədrin köməkçisi), Xuduş Quliyev (komitənin katibi), Məşədi Şamil Hacıyev (bəy nəslindən olan Ağdam şəhər sakini), Məşədi Məmmədcəfər Cəfər oğlu (İran təbəəsi), Məşədi Əhməd Əzimov, Hacı Mirzəhüseyn Kərim oğlu, Şükür bəy Məşədi Ağalar oğlu, Bahadur Sarı Kərim oğlu, Əfrasiyab Hacı Əzim oğlu (Əfrasiyab Əzimov – Şuşa şəhərindən olan meşşan), Məşədi Məmmədcəfər Muxtarov, Hacı Hüseyn Münşiyev, Kərbəlayı Usub Mirsiyabov, Müseyib Sarı Kərim oğlu, Abbas Hacı Cəfər oğlu, Rüstəm Kərbəlayı Əli oğlu, Məşədi Yusif Qəhrəman oğlu, Seyidhüseyn Seyidrza oğlu, Məşədi Məhəmməd Əzim oğlu da vardı. Komitənin bütün üzvləri məşvərətçi səsə malik idi. Onlardan bəzilərinin müxtəlif vəzifələri vardı. Məsələn, Məşədi Şamil Hacıyev icra hakimiyyətinin rəisi və təşkilatçısı idi. O, Şuşa və Cavanşir qəzalarını gəzərək bu qəzaların müxtəlif iri mərkəzlərində: Bərdədə, Tərtərdə, Yevlaxda partiyanın yardımçı komitələrini təsis edir, işlərin təşkilinə və aparılmasına dair, eləcə də əhalidən vergi yığılması və başqa tədbirlər barədə lazımi təlimatlar və göstərişlər verirdi. Məşədi Məmmədcəfər eyni işi Zəngəzur və Cəbrayıl qəzalarında yerinə yetirirdi. Bahadır Sarı Kərim oğlu və Əfrasiyab Əzimov Muxtarovun və Hacıyevin əsas köməkçiləri, Münşiyev isə katib idi.[1]

Bəzi məlumatlara görə (rotmistr Kornilovun raportu), partiyanın Ağdam komitəsinə Vladiqafqazda yaşayan və Ağdama gəlmiş Xasay xan Usmiyev başçılıq edirdi. Elə həmin sənəddə qeyd edilir ki, buraya Səlim bəy Rüstəm-

[1] Документы по русской политике в Закавказье, с.22, 25, 41.

bəyov, Cəfər bəy Vəzirov, Qasım bəy Vəzirov və Qəhrəman ağa Cavanşirov daxil olmuşdur.[1] Başqa məlumatlara görə, Ağdam komitəsinə Zülfüqar bəy Haqverdiyev başçılıq etmişdir. Baxış bəy (meşşan) və Şükür bəy Kazımbəyov qardaşları, Mirzə Davud Ağamirzəyev (Əfəndi – Ağdam şəhərindən olan kəndli), Hacı Seyid Mirşi Seyid Bağır oğlu (Şuşa şəhərindən olan meşşan) komitənin üzvləri idi. Bu yardımçı komitədə Şükür bəy Kazımbəyov həm də icra hakimiyyətinin təşkilatçısı və rəhbəri rolunu yerinə yetirir, kəndbəkənd gəzərək partiyanın şöbələrini yaradır, əhalini "Difai"yə tabe olmağa and içdirirdi. Mirzə Davud Ağamirzəyev (Əfəndi) təşkilatın katibi idi. Partiyanın Ağdam yardımçı komitəsində Mirzəməmməd İbrahimov başda olmaqla 6 nəfər təbliğatçı vardı.[2] Gizli agent S.Səfərəlibəyovun 7 mart 1908-ci il tarixli məruzəsindən məlum olur ki, Ağdam komitəsi "qondarma" və "quru bəylərdən" təşkil olunmuşdur. Onların "əsl bəylərə" barışmaz nifrət hissi vardı". Bu, bütün məsələlərdə həqiqi bəylərə bərabər olmaq arzusu və paxıllıq hissi ilə izah edilirdi. Bu "quru bəylərin" öz malikanələri və torpaqları yox idi, lakin onlar Ağdam bazarına nəzarət edirdi və buna görə də xalq arasında müəyyən nüfuza malik idi.[3] "Difai" partiyasının Cavanşir qəzasında Bərdə, Tərtər, Qaryagin, Cəbrayıl komitələri fəaliyyət göstərirdi. Bərdə komitəsinin Yevlaxda və Tərtərdə bölmələri vardı. Bərdə komitəsinin sədri Məşədi Mehdiqulu Hacı Şərif eyni zamanda döyüş drujinasına başçılıq edirdi. Komitənin üzvləri və təbliğatçıları Musa Quliyev, Hüseynəli Kərbəlayı oğlu, Molla

---

[1] Məmmədov X. Azərbaycan milli hərəkatı 1875-1918-ci illər, s.87.

[2] Документы по русской политике в Закавказье, с. 22, 42.

[3] Документы по русской политике в Закавказье, с. 40.

Həbib Kərbəlayı Mehdi oğlu, Məşədi Zeynalabdin ağa Əhməd oğlu və Allahverdi Hacı Pənah oğlu idi. Tərtərdə partiya şöbəsinə Məşədi Alim İsmayılov, Məşədi Dadaş Muradxanov, Məşədi Fərhad Vəlibəyov, Məşədi Muxtar Kərbəlayı İbad oğlu başçılıq edirdi. Şöbənin təbliğatçıları Məşədi Muxtar Zeynalov, Hacı İbrahim İsmayılov, Kərbəlayı Mahmud İsmayılov, Məşədi Rüstəm Muradxanov, Məşədi Əli Dadaşov idi.[1] Yevlax şöbəsinə Aslan Qaraca oğlu, Əşrəf Tağıyev, Salah Hüseynov rəhbərlik edirdi.[2] Qaryagin komitəsinə tələbələr A.Vəzirov və M.Axundov başçılıq edirdi. Komitənin üzvləri Axund Mirzə Əli Axundzadə, Hacı Muxtar Sadıqov, Məşədi Camal bəy Vəzirov, Mirzə Camal Yusifzadə, Məşədi Qulu Əhmədov, Bəşir Əliyev, Səlim Şamxalov və Əli bəy Vəzirov idi.

Cəbrayıl komitəsi sayca iri komitə idi. Onun Cəbrayılda, habelə Xocaqan və Kenlik kəndlərində şöbələri vardı. Cəbrayıl şöbəsinin üzvləri Cəfər Əmirastan oğlu, Mahmud Qaryağdıyev, Adışirin Əliyev, Məşədi İbiş İsmayılov, Məşədi Məmməd Həsənov, Məşədi Dadaş Səfərov, Süleyman İmamverdiyev və Təhməz Nəcəfquliyev, Xocaqanda Hacı Cəfər bəy Xocaqanski, Nəriman Yüzbaşov, Məşədi Aslan bəy Əlibəyov, Əbdürrəhman Səfərov, Kərbəlayı Bəşir Məmmədov, Məşədi Zülfüqar Əsədov, Kanvay Əliyev, Dadaş Hacıyev, Məşədi Ələkbər Hüseynov, Kenlikdə Hacı Seyid Məmmədağa Hacı Mircəfər oğlu, Seyidhüseyn Riza oğlu, Firidun bəy Sultanov, Zülfüqar Məşədi Şərif oğlu, Məmməd Kərbəlayı Məmmədyar oğlu, Əhməd Hacı Məmmədbağır oğlu, Məmmədəli Kərbəlayı Ələsgər oğlu,

---

[1] Документы по русской политике в Закавказье, с. 22.
[2] Документы по русской политике в Закавказье, с.28.

Məşədi Yusif Quliyev, Əmrah Kərbəlayı Rüstəm oğlu, Kərbəlayı Məmməd Kərbəlayı Rəşid oğlu, Bəşir Həmid oğlu, Mehdi Məşədi Mahmud oğlu idi. Qəzanın bütün kənd komitələri mərkəzi (Ağdam, Bərdə, Cəbrayıl və s.) komitələrə, onlar isə öz növbəsində Şuşa komitəsinə tabe idi.[1]

1906-cı ildə Malıbəyli kəndində tatar "Komissiyası" yaradılmışdı. Sonralar o, "Difai" partiyasının özəklərindən birinə çevrilmişdi. Komissiyaya Əşrəf Məşədi Molla İmran oğlu başçılıq edirdi. Komissiyanın əsas üzvləri Hacı Kərbəlayı Qənbər oğlu, Rza Məşədi Molla İmran oğlu və Məşədi Abbas Qulu oğlu idi. 1906-1910-cu illərdə bu komitə əhalidən vergilər və cərimələr şəklində yığılan vəsaitlər hesabına mövcud olmuşdu. O, "Difai" partiyasının Şuşa komitəsinin sərəncamlarını yerinə yetirirdi. Komitənin öz silah anbarı vardı. Bu silahların bir qismi "Əncümən" partiyası üçün İrana göndərilirdi.[2]

Partiyanın nüfuzlu və fəal komitələrindən biri də Yelizavetpol komitəsi idi. Bu barədə Tiflis Quberniya Jandarm İdarəsinin rəisi podpolkovnik Başinskinin partiyanın üzvləri haqqında 31 oktyabr 1909-cu il tarixli məruzəsində ətraflı məlumat var. Məruzədən aydın olur ki, "Difai" partiyasının Yelizavetpol komitəsinin sədri Axund Molla Məhəmməd Pişnamazzadə (1853-1937) olmuşdu. O, ruhani rütbəsini 1883-cü ildə Tiflisdə almışdı. 1892-ci ildə Gəncə Cümə Məscidinin baş mollası təyin edilmişdi. 1900-cü ildə Pişnamazzadə İranın və Türkiyənin xeyrinə

---

[1] Документы по русской политике в Закавказье, с.23.
[2] ГИААР: ф.524, оп.1, д.35, л.16-17.

təbliğatda ittiham edilərək Türküstana sürgün olunmuşdu. 1906-cı ildə Gəncənin baş qazısı seçilmişdi.[1] Polis məlumatlarında Pişnamazzadəni bir şəxsiyyət kimi səciyyələndirən maraqlı məlumatlar qalmışdı. Məsələn, 1912-ci ilin fevral ayında tərtib edilmiş belə məlumatların birində yazılmışdır: "Müsəlman aləmində o, əsas və görkəmli ictimai xadimlərdən biri hesab edilir. O, Qafqaz diyarı hüdudlarında müsəlman üsuli-cədid məktəblərinin, kitabxana-qiraətxanaların və müxtəlif xeyriyyə cəmiyyətlərinin yaradılmasının təşəbbüsçüsüdür. Öz əsərlərində, məqalələrində və ictimai yerlərdə söylədiyi nitqlərində o, müsəlmanları birləşməyə və milli tayfa davalarına son qoymağa çağırırdı. Pişnamazzadə öz baxışlarına görə mütərəqqi müsəlman və eyni zamanda yüksək dərəcədə dindar, ciddi adamdır, müsəlman ruhaniləri arasında və cəmiyyətdə görkəmli mövqeyinə müvafiq olaraq qapalı, sadə və ayıq-sayıq həyat tərzi keçirir. Heç bir əyləncə yerinə getmir, kübar dairələrdə dolaşmır. Bac-xərac və rüşvət almaqla məşğul olmur, çünki bunlar onun xalq xadimi və idealist əqidələrinə ziddir və ümumiyyətlə onun xarakterinə yabançıdır".[2] Daxili işlər nazirinin 14 yanvar 1915-ci il tarixli təqdimatı əsasında Pişnamazzadə imperator tərəfindən rəsmən Qafqaz müsəlmanları şiə ruhani idarəsinin şeyxülislamı vəzifəsinə təyin edilmişdir.[3]

"Difai"nin Yelizavetpol komitəsinin liderlərindən biri də Ələkbər bəy Kərbəlayı Həsən oğlu Rəfibəyov olmuşdur (1839-1919). Şəhər əhalisi arasında böyük nüfuz sahibi

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, c.2, s.289-290.
[2] ГИААР: ф.524, оп.1,д.30, л.1-2.
[3] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası.c.2,s. 290.

olan Rəfibəyov çox vaxt komitəyə rəhbərliyi öz üzərinə götürürdü. Rəfibəyov Peterburqda kənd təsərrüfatı sahəsində təhsil aldıqdan sonra Gəncəyə qayıtmışdır. 1870-1896-cı illərdə polis sistemində işləmişdi. Nuxada və Yelizavetpolda qəza pristavı olmuşdu. 1891-ci ildə Müqəddəs Vladimir Ordeni ilə təltif edilmişdi. İstefaya çıxandan sonra özünü ictimai fəaliyyətə həsr etmişdi. O, 22 il müddətində Yelizavetpol şəhər Dumasının üzvü olmuşdu. Yelizavetpol Qubernatorunun 30 iyun 1906-cı il tarixli fərmanı ilə Rəfibəyov Yelizavetpol Müsəlman xeyriyyə cəmiyyətinin ömürlük fəxri üzvü seçilmişdi.[1]

"Difai"nin Yelizavetpol komitəsinə partiyanın dəftərxana müdiri və şəhər upravasının çertyojçusu Həmid bəy Usubbəyov (Nəsib bəyin qardaşı); Ələkbər bəy Xasməmmədov (Xəlil bəy Xasməmmədovun qardaşı) – andlı vəkil, Yelizavetpol şəhərində ev sahibi, Məşədi Əli Rəfiyev – komitənin kassiri, Yelizavetpol qarşılıqlı kredit cəmiyyətinin idarə heyətinin sədri; Muxtar bəy və Cavid bəy Qazıyevlər – hər ikisi zadəgan, Muxtar bəy Yelizavetpol şəhərindəki "Peterburq" mehmanxanasının sahibi Molla İsmayılzadə; Hacı Mirqasım Həmzəyev, ticarətçi, döyüş drujinasının başçısı; Hacı Məmmədhüseyn Əli oğlu (Əliyev) daxil idi.[2]

"Qarabağ Birlik Məclisi"nin proqramı 1907-ci il oktyabr ayında qəbul edilmişdi və 52 bənddən ibarət idi. Proqramda "Məclis"in tərkibi göstərilir, onun sədrlərinin, onların köməkçilərinin və katiblərinin hüquq və vəzifələri

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası.c.2,s. 296-297.
[2] ГИААР: ф.62. оп.1. д.59, л.158.

müəyyən edilir, məclisin vəsaitini təşkil edən gəlirlərin mənbələri göstərilir, müsəlmanların bir-biri ilə və başqa millətlərlə münasibətləri müəyyən edilir, müsəlmanlar arasında dini zəmində (şiə və sünni məzhəbləri arasında) yaranan ayrı-seçkilik pislənilir, müsəlmanların hakimiyyət orqanlarına münasibətləri müəyyən edilir və ümumiyyətlə, "müsəlmanların gücünün, maddi firavanlığının, mədəni inkişafının və başqa millətlərin arzuedilməz təsirindən təc-rid edilməsinin rəhni olan birliyə can atan müsəlmanların necə yaşamalı olması" barədə göstərişlər verilirdi.[1] Proqrama görə, Məclis sədri, onun köməkçisi və katibləri vəzifələri seçkili vəzifələr olmalı idi. Məclisin "iştirakçı" üzvləri öz aralarından elə şəxslər seçməyi öhdəyə götürürdülər ki, bu şəxslər hakimiyyət orqanlarının fəaliyyətini izləsin və zəruri hallarda ictimai şikayətləri həmin orqanlara təqdim etsinlər (maddə 11).[2] Bundan əlavə, "Məclis" öz mövqeyindən sui-istifadə edən üzvlərini ciddi cəzalandırırdı (maddə 45).[3] Aşağıda göstərilən cinayətlərə yol vermiş ayrı-ayrı şəxslər barəsində cərimə edilmək, boykot olunmaq, cəmiyyətdən, şəhərdən qovulmaq dərəcəsinə qədər müxtəlif cəza növləri nəzərdə tutulurdu: müsəlmanlar arasında parçalanma yarada biləcək şiə-sünni məsələləri haqqında söhbətlər aparan şəxslər (maddə 14); əhali arasında müxtəlif münaqişələr səbəbindən iğtişaşlara gətirib çıxaran şəxslər (maddə 14); hökumətə qarşı böhtanla məşğul olması müəyyən edilmiş şəxslər (maddə 16); oğurluqla və oğurlanmış əşyaların gizlədilməsi ilə, əyyaşlıqla məşğul olan şəxslər (maddə 17); qızları qaçıran, qadınları incidən

---

[1] ГИААР: ф.524, оп.1,д.18,л.39.
[2] ГИААР: ф.524, оп.1,д.18, л.22.
[3] ГИААР: ф.524, оп.1,д.18, л.26.

şəxslər (maddə 18);[1] erməni-azərbaycanlı münaqişələrinə səbəb ola biləcək şayiələr yayan şəxslər (maddə 19); yazılı və ya şifahi böhtanla məşğul olan şəxslər (maddə 20); qanunsuz arvad saxlamaqla məşğul olan şəxslər (maddə 22); qan düşmənçiliyi yaradan şəxslər (bu düşmənçiliyi bir-biri ilə qohum olmaq yolu ilə aradan qaldırmaq nəzərdə tutulurdu. – **Müəllif**) (maddə 24); qiymətləri qəsdən hədsiz artıran şəxslər (maddə 27).[2] Proqrama əsasən, "Qarabağ Birlik Məclisi" böyük səlahiyyətlərə malik idi. Zəruri hallarda hökumət müəssisələri, o cümlədən kənd məhkəmələri boykot edilirdi. Bu halda bütün məhkəmə çəkişmələri "Məclis"in rayon komitələrinə keçirdi. "Məclis"in razılığı olmadan hətta Şəhər Dumasının qlasnıları da seçilə bilməzdi (maddə 51).[3] Şəhərləri və kəndləri tərk edib getmiş insanların əmlakı və evləri də "Məclis"in mülkiyyətinə keçirdi. Onlardan əldə edilən gəlirlər yoxsullar arasında bölüşdürülməli idi (maddə 31).[4] Bu, sosial ədalət probleminin həll metodlarından biri idi. "Difai" özünü məhz sosial ədalətin müdafiəçisi elan edirdi.

Proqramda aqrar məsələ radikal şəkildə həll edilirdi – "torpaq əməkçilər sinfinə məxsus olmalıdır".[5] Torpağın kəndlilərə verilməsinin həyata keçirilməsi mexanizmləri barədə qeyd-şərt yox idi. Lakin irəlidə görəcəyimiz kimi, praktikada həm təşviqat sahəsində, həm də torpaq sahiblərinə təsir etməyin başqa formalarında müəyyən addımlar atılmışdı. Proqramın bu bölmələri bəzi çar məmurlarını

---

[1] ГИААР: ф.524, оп.1,д.18, л.22.
[2] ГИААР: ф.524, оп.1,д.18, л.23.
[3] ГИААР: ф.524, оп.1,д.18, л.26.
[4] ГИААР: ф.524, оп.1,д.18, л.24.
[5] Документы по русской политике в Закавказье, с.36.

hətta bu partiyanın sosial-demokratik xarakteri barədə düşünməyə sövq etmişdi. Yelizavetpol qubernatorunun Sankt-Peterburqa ünvanlanmış raportlarının birində təşvişlə bildirilir: “Çox güman ki, yaxın gələcəkdə partiya aqrar məsələnin, yəni mülkədar torpaqlarının kəndlilərə təmənnasız verilməsi məsələsinin təbliği ilə məşğul olacaqdır”.[1]

“Qarabağ Birlik Məclisi”ndə, eləcə də bütün “Difai” partiyasında tacirlərdən ibarət böyük bir təbəqənin mövcud olması proqramda ticarət haqqında ayrıca bölmələr olmasını şərtləndirmişdi. Ticarətdə qayda yaratmaq və sui-istifadə hallarına son qoymaq nəzərdə tutulurdu. Bu halda Azərbaycanda həm sənayeni, həm də ticarəti sırf milli istiqamətdə inkişaf etdirmək lazım idi. Əsas tələb ondan ibarət idi ki, “müsəlmanlar başqa millətlərə deyil, özümüzə xeyir vermək üçün yalnız müsəlmanlardan mal alsınlar” (maddə 52).[2] Səhmdar şirkətləri və imkanlı müsəlmanlar da kənd təsərrüfatı məhsullarını və sənaye mallarını yalnız müsəlmanlardan almağa borclu idi. Bu tələbləri yerinə yetirməyənləri millətə xəyanətə görə cərimə gözləyirdi (maddə 36).[3] Proqramın bu bəndləri difaiçilərin təbliğ etdiyi millətin konsolidasiyası nəzəriyyəsini əyani şəkildə əks etdirirdi. Onlar ticarəti də bu sahəyə daxil edirdilər.

Maarif sahəsində proqram “kişi və qadın cinsindən olan uşaqlar üçün təhsil müəssisələri açmaq və onların yeni üsulla öyrədilməsi üçün hər cür səy göstərməyi”

[1] Документы по русской политике в Закавказье, с.21; ГИААР: ф.524,оп.1, д.15, л.2-7.
[2] ГИААР: Ф.524,оп. 1, д.18, л.27.
[3] ГИААР: Ф.524,оп. 1, д.18, л.25.

nəzərdə tuturdu (maddə 34).[1] Bütün məsələlər şəriət qanunları əsasında həll edilməli olduğuna görə, proqramın ayrı-ayrı bəndləri məxsusi dindarlar, dini mərasimlərin reqlamentləşdirilməsi və başqa məsələlər barədə idi. Məsələn, qeyd edilirdi ki, ruhanilər, yəni baş mollalar, pişnamazlar, qazılar və məhəllə mollaları, var-dövlətə şirniklənmədən millətin tərəfini saxlamalı və öz səlahiyyətlərini şəriət əsasında yerinə yetirməlidirlər, əks halda onlar ictimai mövqeyini və ruhani rütbəsini itirə bilərdilər (maddə 44).[2] Matəm mərasimləri və onlarla bağlı xərclər yeddi günə qədər azaldılmalı, lüzumsuz matəm və əyləncə xərcləri isə hər kəsin vəziyyətindən asılı olaraq yoxsulların və məktəblərin xeyrinə müsadirə edilməli idi. Bu tələbləri pozanları cərimə gözləyirdi (maddə 37-38).[3] Cavanşir qəza rəisinin raportunda "Məclis"in proqram tələbləri son dərəcə neqativ səciyyələndirilmişdir: "...bu proqram bu xalqı siyasi cəhətdən sıx birləşdirməyi, onu əlaltından hazırlamağı nəzərdə tutur. O, hökumət müəssisələrinin boykot edilməsi, mülkədarlar və kəndlilər arasında torpaq münasibətlərinin yəni, aqrar məsələnin kəskinləşdirilməsi məqsədi güdürdü. Nəticə etibarilə bu proqramı pozanlar üçün ayrı-ayrı şəxslərin, bütün ailələrin boykot edilməsi, partiyanın tələblərinə israrla tabe olmaq istəməyənləri cərimələr gözləyirdi".[4]

Beləliklə, "Qarabağ Birlik Məclisi"nin proqramı "Difai"nin proqramının ilkin layihəsini bir növ tamamlayırdı.

---

[1] ГИААР: Ф.524,оп. 1, д.18, л.24.
[2] ГИААР: Ф.524,оп. 1, д.18, л.26.
[3] ГИААР: Ф.524,оп. 1, д.18, л.26.
[4] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с.274.

Hər iki proqramda Azərbaycan cəmiyyətində qanunvericilik qaydasında islahatlar aparmağa cəhd göstərilirdi. Yaxşı silahlanmış dəstələr də olsa, partiya liderlərinin köməyi ilə bu islahatlar millətin təhlükəsizliyini və tərəqqisini təmin etməli idi. Proqramın bir sıra bəndlərinin müəyyən qədər sadəlövh və bəsit xarakteri, görünür, tərtibcilərin kəndli kütlələrini onların təmsilçisi oldugunu iddia edən partiyanın fəaliyyətinin əsas istiqamətləri ilə sadə, anlaşıqlı formada tanış etmək arzusu ilə izah edilməlidir. Eyni zamanda, partiyanın proqramı "Daşnaksutyun" partiyasının proqram sənədlərindən və onun strukturundan kəskin fərqlənirdi. "Daşnaksutyun" öz orqanlarının mürəkkəb, çoxşaxəli, geniş əhatəli sistemi ilə dövlət strukturlarını xatırladırdı. Burada hər şey nəzərdə tutulmuşdu: ordu, milis, məhkəmələr, administrasiya, maliyyə, mətbuat, beynəlxalq əlaqələr.[1]

[1] Об организации и деятельности армянской революционной партии «Дашнакцутюн» Из книги «История Азербайджана по документам и публикациям». Баку, 1990,с.108 -116.

## 1906-1908-ci illərdə "Qarabağ Birlik Məclisi" - "Difai"nin fəaliyyəti

Həmin dövrdə mövcud olmuş partiyaların çoxundan fərqli olaraq, "Difai" partiyası xalq kütlələrinin içərilərinə nüfuz etməyə, xalqın ən fəal elementlərini öz sıralarına cəlb etməyə, öz fəaliyyəti ilə bütün Yelizavetpol quberniyasını, qismən də Bakı və İrəvan quberniyalarını əhatə etməyə müvəffəq olmuşdu. Yelizavetpol qubernatoru etiraf etməyə məcbur olmuşdu ki, partiya ağıllı, ehtiyatlı, ardıcıl, namuslu və səmimi insanların əlindədir, onun Mərkəzi Komitəsinə Əhməd bəy Ağayev rəhbərlik edir. Yenə də həmin qubernatorun sözlərinə görə, partiya qısa müddətdə böyük nüfuz və şöhrət qazanmışdır, əhali ona etibar edir və onun üzvlərini hökumətdən səylə gizlədir.[1]

"Qarabağ Birlik Məclisi"nin "Şuşa müsəlmanlarının bacarıqlı, çevik, hiyləgər və zehni cəhətdən daha çox inkişaf etmişləri" sırasından seçilmiş təbliğatçıları əhali arasında fəal iş aparırdı. Kəndlərdə iqtisadi ehtiyacları öyrənmək üçün rəy sorğusu keçirmək bəhanəsi ilə xalqı bir yerə toplayır və eyni zamanda ona şəriətin tələbləri izah edilir, heyvan oğurluğuna, qarətlərə son qoymaq tövsiyə edilir, "qüsurlu" insanlar pislənir, ermənilərlə dinc münasibətlər yaratmaq təbliğ edilirdi. Bu tələblərin pozulmasına görə xalq qarşısında məsuliyyət barədə xəbərdarlıq edilirdi.[2] "Difai" agentləri yeri gəldikcə kəndlərin əhalisinə

---

[1] Документы по русской политике в Закавказье, с.22; ГИААР: ф.524,оп.1, д.15, л.2-7.
[2] Документы по русской политике в Закавказье, с.20.

diqqətlə nəzər salır, onların arasında daha çox inkişaf etmiş və həssas, əsasən gənc adamları seçir, sonra bu adamlarla uzun müddət təkbətək söhbət edir və xüsusi and içdirərək partiya üzvlüyünə qəbul edirdilər. Partiyanın yeni üzvlərinə tapşırılırdı ki, yaşadıqları yerlərdə ehtiyatla və ardıcıl təbliğat aparsınlar, kəndlərin əhalisini müşahidə etsinlər. "Qarabağ Birlik Məclisi"nin fəaliyyətinin genişlənməsi nəticəsində hökumət müəssisələri uğurla boykot edilmiş, kəndlərdəki vəzifəli şəxslər (kəndxudalar) partiyanın nüfuzuna tabe edilmiş, partiyanın xüsusi döyüş drujinaları yaradılmışdı. İş o həddə çatmışdı ki, əhali müxtəlif şikayətlərlə hökumət müəssisələrinə deyil, Məclisin yerli bölmələrinə müraciət etməyə başlamışdı, həmin bölmələr də müstəqil mühakimə aparırdılar. Komitələr çoxsaylı şikayətlərə, məhkəmə çəkişmələrinə baxırdı, həm də şikayətlərə çox tezliklə cavab alınır, işlər ədalətlə araşdırılır, təqsirkarlar tezliklə və ciddi cəzalandırılır, zərərçəkmişlər cavabdehin hesabına maddi cəhətdən təmin edilirdi.[1] Bunun nəticəsində 1907-ci ilin axırlarına qədər kənd məhkəmələri, demək olar ki, fəaliyyət göstərmirdi.

Bu, əhalinin partiyaya yüksək etimadını göstərirdi. Kənd məhkəmələrindən fərqli olaraq, partiyanın işlərə obyektiv baxması sayəsində onun nüfuzu daha da artmışdı. Yuxarıda adını çəkdiyimiz Cavanşir qəzasının rəisi yazırdı: "Qəzadakı 38 kənd icmasından yalnız 8-nin rəhbəri hökumət məmurları idi və onların andlarına sadiq qalaraq, namusla xidmət edəcəyinə ümid bəsləmək olardı; kənd hakimləri tamamilə kənarlaşdırılmışdı, qulluqçuların bütün başqa ştatları bu partiya və onun üzvləri tərəfindən

---

[1] Документы по русской политике в Закавказье, с.20.

ələ keçirilmişdi”. Beləliklə, çar hakimiyyət orqanları görən gözlərindən, eşidən qulaqlarından məhrum olmuşdu. Qəza rəisinin fikrincə, partiya bu addımları atmaqla xalqı ələ almış, kəndlərdəki vəzifəli şəxsləri öz iradəsinə tabe etmiş, hökumət məmurlarının və hökumət müəssisələrinin fəaliyyətini əslində iflic vəziyyətinə salmışdı.[1]

Dövlət strukturları əvəzinə “Difai”nin müvafiq strukturlarının yaradılması onu göstərirdi ki, bu partiya heç də, bəzilərinin iddia etdikləri kimi, yalnız döyüş təşkilatı deyildi. “Difai”nin üzvləri arasında savadlı və praqmatik insanların olması sayəsində o, dövlət işlərinin aparılması üçün çox böyük daxili potensiala malik idi.

“Difai”nin pul vəsaitlərinin mənbəyi üzvlük haqları, partiya proqramının bu və ya digər maddələrinin pozulmasına görə təqsirkarlardan tutulan cərimələr, məhkəmə qarşısında dayanan cavabdehlərdən və iddiaçılardan alınan rüsumlar və nəhayət, hər bir rayon nümayəndəsi tərəfindən əhalidən tutulan cüzi yığımlar idi. Pul yığmaq üçün partiya üzvlərində çek kitabçaları olurdu. Onlar pul alarkən qəbz verirdilər. Hər hansı anlaşılmazlıqlar yaranmaması üçün pul yığılması xeyriyyə məqsədləri adı ilə həyata keçirilir və aclıq çəkən müsəlmanlar üçün rüsum adlanırdı. Bu vəsaitin əsas hissəsi Müsəlman Mərkəzi Xeyriyyə Cəmiyyətinə göndərilirdi. Partiya xadimləri bu cəmiyyətin nümayəndələri adı ilə 3-4 nəfərlik qruplara bölünür, qəzaları gəzərək üzvlük haqqı yığırdılar.[2] Cavanşir qəza rəisi yazır: “Məclis pul cərimələri almaq və həbs cəzaları

[1] Документы по русской политике в Закавказье, с.35.
[2] Документы по русской политике в Закавказье, с.21.

tətbiq etmək yolu ilə əhali arasında mal-qara oğurluğunu yox dərəcəsinə endirmişdi, quldurluq halları azalmışdı. O daha sonra yazır: "Məclisin xidməti ondan ibarət idi ki, o xalqın öz günahlarının ona çox baha başa gəlməsini görərək belə halların qarşısını almağa başlamışdı. Cinayət xarakterli yeni işlərlə yanaşı on ilə qədər əvvəl baş vermiş köhnə işləri də araşdırırdı. Bundan əlavə, cavabdehdən cərimə tutulur, bu məbləğ partiyanın xəzinəsinə daxil olurdu".[1]

Partiya torpaq məsələsində öz taktikası sayəsində kənd əhalisi arasında çox populyar olmuşdu. Bütün millətin mənafelərinin ifadə edilməsi barədə proqram bəyanatlarına baxmayaraq, partiya üzvlərinin silki mənsubluğu onun bəylərə qismən zidd xarakterini şərtləndirmişdi. Bəylərə zidd mövqenin əsas səbəbi heç şübhəsiz, ondan ibarət idi ki, bəylərin çoxu çar hakimiyyətinə loyal münasibət bəsləyir və milli azadlıq hərəkatını qəbul etmirdi. Bu mövqeyin mahiyyəti onda ifadə olunurdu ki, "partiya təbliğatçıları bu bəylərin hakimiyyətə can atan müftəxor və qaniçənlər olduğunu, heyvan kimi yalnız sərvət həvəsi ilə yaşadıqlarını" bildirir və kəndlilərin qanını içən bu bəylərə nifrət hissi təlqin edirdilər. Onlar deyirdilər ki, bu sinfin əlində bu qədər torpaq olmamalıdır, bu torpağı onların əlindən almaq lazımdır".[2] Ustav fərmanlarının və başqa köhnə adətlərin mövcud olması üzündən, çox vaxt məhsul yığımı dövründə torpaq sahibləri ilə kəndlilər arasında anlaşılmazlıqlar yaranırdı. Difaiçilər bundan bacarıqla istifadə edirdilər.

[1] Документы по русской политике в Закавказье, с. 35.
[2] Документы по русской политике в Закавказье, с.36; ГИААР: ф.524,оп.1, д.15, л.37-40.

“Qarabağ Birlik Məclisi”nin kəndlərdəki fəaliyyəti yerli hakimiyyət orqanlarını o qədər vahiməyə salmışdı ki, onlar aqrar iğtişaşların baş verməməsi üçün məhsul yığımına dair vahid qaydaların təmin edilməsi üzrə xüsusi komissiya yaratmağa məcbur olmuşdular, çünki köhnə adətlərin mövcud olması Qarabağ təşviqatçılarının iğtişaşlar yarada bilməsi üçün yeganə vasitədir”.[1] Komissiyanın müzakirə mövzuları aşağıdakılar idi: 1. Darğaların töycü yığdığı bir ümumi ölçü – çanaq müəyyən edilməli; özü də çanaqların tutumu eyni olmalıdır; 2. Töycünün məhz hansı şəkildə - dərzlər, yoxsa dən şəklində yığılmalı olması məsələsini həll etməli; 3. Məhsulun əkinçilər tərəfindən torpaq sahibinə çatdırılması üsulları haqqında məsələni müzakirə etməli; 4. Ustav fərmanlarına gətirilmiş və zamanın ruhuna uyğun olmayan bütün keçmiş qalıqlarını ləğv etməli və ya onların şəklini dəyişdirməli; 5. Darğaların tamahkarlığını və onların məhsul yığımı və torpağın paylanması üzrə vasitəçilər kimi kəndlilərə tətbiq etdiyi bütün sıxışdırmaları azaltmalı, çünki tərəflər arasında bütün anlaşılmazlıqları yaradan onlardır, bu isə təşviqatçıların xeyrinədir.[2] Nəticədə hakimiyyət orqanlarının məsələyə müdaxilə etməsi difaiçilər başda olmaqla kəndlilərin açıq çıxışlar etməsinə imkan verməmiş, lakin qəzada iğtişaşlar 1908-ci ilə qədər davam etmişdi. Məşədi Mehdi kimi mübariz təşviqatçılarla qanunun bütün ciddiliyi nəzərə alınmaqla rəftar etmək və onları uzaq yerlərə sürgün edərək ciddi cəzalandırmaq qərara alınmışdı. Komitənin qalan üzvləri də müxtəlif repressiyalara məruz qalmışdı.

---

[1] Документы по русской политике в Закавказье, с.37.

[2] Документы по русской политике в Закавказье, с.37.

Difaiçilərin təbliğat fəaliyyəti əhalinin siyasi mədəniyyətinin də artmasına şərait yaradırdı. Məsələn, 7/8 avqust 1908-ci il tarixli raportda deyilir: “İndi hətta ucqar kəndlərdəki müsəlmanlar da nümayəndəli və mütləq monarxiya prinsipləri ilə tanış edilmişlər, onlar İranda vəziyyətlə maraqlanır və inanırlar ki, İran Parlamenti xanlarla mübarizədə qalib gələcəkdir; avam camaat indi artıq sünnilərlə şiələr arasında fərq qoymur, onların arasında əvvəlki ayrı-seçkilik yoxdur; indi sadə camaat məktəbə, onun zəruri olmasına inanmağa başlamışdır, son bir-iki ildə yerli tatarlar, xüsusən Qarabağda ictimai işlərə maraq məsələsində xeyli irəli getmişlər”.[1]

Bu yeni vəziyyəti bütünlüklə “Difai”nin fəaliyyətinin mütərəqqi hissəsi ilə, onun xalqı maarifləndirmək sahəsində proqram məqsədlərindən birini həyata keçirməsi ilə izah etmək olar. “Difai” partiyasının iş üslubuna və metodlarına dərindən fikir verdikdə onun intellektual xarakterli, bəzən hətta sosial-demokratiya çalarlarına malik ciddi ictimai-siyasi fəaliyyəti görünür. Partiyanın sırf primitiv terrorçu təşkilat olması haqqında sovet dövründə süni şəkildə yaradılmış təsəvvür dərindən təhlil edildikdə ikinci plana keçir. Digər tərəfdən, partiya öz dövrünün məhsulu idi və məqsədlərinə çatmaq üçün müxtəlif fəaliyyət formalarından istifadə edirdi.

“Difai” partiyası mübarizə vasitələrindən biri kimi “fərdi terror” metodunu seçmişdi. Sovet tarixşünaslığında XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Rusiya

---

[1] Документы по русской политике в Закавказье, с.51; ГИААР: ф.524,оп.1, д.15, л.45-49.

İmperiyasında inqilabi-terror hərəkatının tarixi müəyyən siyasi sifariş əsasında yazılmışdı. Həmin sifarişə görə terrorçu-inqilabçıların obrazları hər vasitə ilə romantikləşdirilirdi.[1] Brokqauz və Yefronun lüğətinin 1907-ci ildə çapdan çıxmış ikinci əlavə cildində Rusiyada terror adlı məqalə yerləşdirilmişdi. Həmin məqalədə terror "ayrı-ayı yüksək vəzifəli şəxslərin və casusların qətlə yetirilməsinin təşkil edilməsindən və axtarışlara, həbslərə qarşı silahlı müdafiədən ibarət olan hökumətə qarşı mübarizə sistemi" adlandırılmışdı. Rusiya İmperiyası polis departamentinin direktoru, sonralar imperiyanın daxili işlər naziri olmuş P.N.Durnovo etiraf edir ki, "terrorizm gücsüzlükdən güc yaratmış çox zəhərli, çox qorxulu ideyadır".[2] Çar Rusiyasında terrorun kökləri "Narodnaya volya" partiyasının ideologiyası ilə bağlıdır. Bu partiya terrorizmi təbliğ edir, mütləqiyyətə qarşı mübarizədə onu özünün əsas silahına çevirirdi. Lakin XX əsrin əvvəlində Rusiyada terror "Narodnaya volya" partiyasının terrorundan əhəmiyyətli dərəcədə fərqlənirdi. XX əsrin əvvəlində Rusiya İmperiyası ərazisində terrorçuluq metodları ilə fəaliyyət göstərən partiya və təşkilatları bir neçə qrupa bölmək olar. İlk növbədə hakimiyyətin ələ keçirilməsi ilə əlaqədar siyasi məsələləri yalnız inqilabi-terror yolu ilə həll etməyə çalışan siyasi partiyalar qeyd edilməlidir. Rusiya tarixində bu qəbildən iki əsas siyasi partiya məşhurdur: Rusiya Sosial-

---

[1] Литвинов Н., Литвинова А. Антигосударственный террор в Российской империи. Исторический очерк. Журнал «Новый мир»,2003,№ 11 http: //magazines.russ.ru/novyi_mi/2003/11/litvin.html

[2] Будницкий О.В. Терроризм глазами историка. Идеология терроризма. «Вопросы философии» № 5 2004 httm www.logic.ru/taxonomy/term/541

Demokrat Fəhlə Partiyası və Sosialist İnqilabçılar Partiyası (eser). Hər iki partiya siyasi təcavüzün yüksək səviyyədə olması ilə fərqlənirdi və əhalinin ən müxtəlif sosial təbəqələrinə yönəlmişdi. Partiyaların daha bir növü etnik-millətçi partiyalar idi. Bəzi müəlliflərin fikrincə, bu milli və dini partiyaları Rusiya İmperiyası şəraitində "həqiqi olmayan" partiyalar sırasına aid etmək olardı, çünki "hər bir həqiqi partiyanın müəyyən geniş dövlət siyasəti proqramı olmalıdır, bu isə müəyyən millətin və ya dinin nümayəndələrinin nəzərincə, qeyri-mümkündür".[1] Bu partiyalar dövlət hakimiyyətinin ayrı-ayrı nümayəndələrinə və başqa millətlərdən olan insanlara qarşı əsl terror fəaliyyəti ilə məşğul idi. Eyni zamanda etnik-millətçi partiyaları dövlətə zidd məsələlərin həll edilməsi üçün yaradılmış sırf kriminal dəstələr hesab etmək olmaz. Milli partiyaların həyata keçirdiyi terrorun əsasını birləşdirici və məqsədyönlü ideyalar təşkil edirdi. Mövcud siyasi rejim şəraitində həmin ideyaların həyata keçirilməsi real deyildi. Bu partiyalar praktikada öz məqsədlərinə nail olmaq üçün istifadə etdikləri vasitələrin yararlı olmasını sübut etməyə çalışırdılar. Onlar azadlığa qarşı hər hansı zorakılığa görə hakimiyyət nümayəndələrini qəddarcasına cəzalandıran ardıcıl terror sisteminin köməyi ilə bu hökuməti tamamilə zəifləməyə çalışır və istəyirdilər ki, hökumət terror aktları-na repressiyalarla cavab verməyə məcbur olsun, beləliklə də, kütləvi narazılıqlar, hakimiyyət əleyhinə geniş miqyaslı sosial partlayışa gətirib çıxara biləcək çıxışlar başlansın. Eyni zamanda terror hökumətlə "dialoqun" özünəməxsus

[1] Литвинов Н., Литвинова А. Антигосударственный террор в Российской империи. Исторический очерк. Журнал «Новый мир»,2003, № 11 http: /magazines.russ.ru/novyi_mi/2003/11/litvin .html

bir forması idi – yeni qəsdlər barədə hədələr hökuməti öz siyasətini dəyişməyə məcbur etməli idi.[1] Bu partiyalar terror metodunu seçməklə əslində əhalinin müəyyən hissəsini öz üzvlərini və tərəfdarlarını dövlətin hüquq məkanından təcrid edir və onlardan tələb edirdilər ki, dövlət normalarına deyil, partiyanın vəzifələrinə müvafiq şəkildə hərəkət etsinlər. Bu partiyalar mürəkkəb təşkilati tipə malik idi: terror ideyalarını işləyib hazırlayan generator strukturları və terrorçu dəstələrin – konspirasiya şəraitində fəaliyyət göstərən döyüş qruplarının və təşkilatlarının daxil olduğu icra strukturları. Məxfilik terrorçuların salamat qalmasını və qüdrətli dövlət maşınının acizliyini təmin etməli idi. Siyasi qətllər vasitəsilə ədalət uğrunda mübarizə müəyyən mənəvi bəraət tələb etdiyinə görə bu cür partiyaların demək olar ki, hamısı dərhal çap məhsulları buraxmağa başlayırdı. Həmin məhsullarda xeyirxah ümumxalq məqsədlərinin ifadə edilməsi ilə yanaşı bu məqsədlərə dinc yolla nail olmağa maneçilik törədənlər də göstərilirdi. Beləliklə, partiyaların buraxdığı intibahnamələrdə və proklamasiyalarda terror aktı törədiləndən əvvəl və sonra "düşmən obrazı", yəni məhv edilməli olan terror obyekti formalaşdırılır, bu hərəkətin özünə isə mənəvi və etik arqumentlərin köməyi ilə bəraət qazandırılır, nəticə etibarilə terrorun icraçıları təqsir hissindən azad olurdu.[2]

---

[1] Литвинов Н., Литвинова А. Антигосударственный террор в Российской империи. Исторический очерк. Журнал «Новый мир», 2003, № 11 http: //magazines.russ.ru/novyi_mi/2003/11/litvin.html

[2] Литвинов Н., Литвинова А. Антигосударственный террор в Российской империи. Исторический очерк. Журнал «Новый мир», 2003, № 11 http: //magazines.russ.ru/novyi_mi/2003/11/litvin.html

Ermənilərin “Daşnaksutyun”, “Qnçak” qəbilindən olan partiyalarını millətçi partiyaların məhz bu ikinci tipinə aid etmək olar. Həmin partiyaların proqramında təcavüzkar terror demək olar ki, ən mühüm yer tutmaqla onların universal fəaliyyət metodu idi. Ümumiyyətlə, erməni partiyalarının terrordan mübarizə metodu kimi istifadə etməsinə haqq qazandıran məqsədlərdə bir sıra oxşar məqamlar vardı. Məsələn, “Qnçak” partiyasının proqramında deyilir: “Terrorun məqsədi xalqı sıxıntılardan qorumaq, onun inqilabi əhval-ruhiyyəsini yüksəltmək, onu hökumət əleyhinə mübarizəyə yönəltmək, bununla da öz işinin uğur qazanacağına inam təlqin etmək, hökumətin qüdrətini və nüfuzunu zəiflətmək, onu vahiməyə salmaqdır”.[1] “Daşnaksutyun” partiyasının 1907-ci ilin əvvəlində Vyanada çağırılmış IV qurultayında partiyanın “İnqilabi və sosialist erməni “Daşnaksutyun” partiyası haqqında minimum proqramı” adlanan sənəd qəbul edilmişdir. Proqramın preambulunda deyilirdi: “Erməni inqilabi federasiyası inqilabi və sosialist partiya olmaqla erməni zəhmətkeş kütlələrinin iqtisadi, siyasi və milli mənafelərini qorumağı öz qarşısına məqsəd qoyur, monarxiyanı xalq hakimiyyəti ilə, kapitalizmi isə istehsal alətlərinin və istehsal vasitələrinin sosialistləşdirilməsi ilə əvəz etməyi nəzərdə tutur”.[2] “Terror” bölməsində deyilirdi ki, terrorun: siyasi; təşkilati növləri ola bilər (silahın və pulun ələ keçirilməsi, satqınlıq, xəyanət və öz yoldaşının öldürülməsi).[3] Təşkilati terrordan fərqli olaraq, bu bölmədə siyasi terrora tərif verilmirdi. Lakin praktikada daşnaklar hökumətə, başqa

[1] Наджафов Б. Лицо врага, ч.1, с.50-51.
[2] Дашнаки (Из материалов департамента полиции), с.27.
[3] Дашнаки (Из материалов департамента полиции), с.38.

millətlərin nümayəndələrinə münasibətdə, “Daşnaksutyun”a kifayət qədər loyallıq göstərməmiş şəxslərə münasibətdə qətlləri, talanları və qəsbkarlığı siyasi terrora aid edirdilər. “Difai”yə gəldikdə isə, onun əsas məqsədi xalqı maarifləndirmək və onu müdafiə etmək idi. Bu sonuncunun təmin edilməsi üçün terrordan müdafiə olunmaq məqsədilə terrordan istifadə edilməsinə yol verilirdi. “Difai” partiyasının müraciətlərindən birində deyilirdi: “Erməni bombalarından qorxuya düşmüş hökumət məmurlarının törətdiyi qanunsuzluqları aradan qaldırmaq üçün “Difai” partiyası onlara qarşı bombalardan və xəncərlərdən istifadə edəcəkdir”. [1] Partiyanın möhüründə partiyanın simvolikası kimi, iki çarpaz qılınc, aypara və onların üstündə ulduz şəklində təsvir edilməsi bu fıkri bir növ təsdiq edirdi (Bəzi məlumatlara görə həmin simvolika Rəfibəyovlar nəslinin gerbi olmuşdur. – **Müəllif**).

Bununla bərabər, proqramda vurğulanırdı ki, “Difai” hər hansı xalqın hüquqlarına qəsd edən təşkilat deyildir. “Daşnaksutyun” haqqında isə bunu demək olmaz. Çar hökumətinin polis raportlarından və müxtəlif vəzifəli şəxslərin məruzələrindən göründüyü kimi, difaiçilərin ermənilərə qarşı çoxsaylı bəyanatlarına baxmayaraq bu partiyanın erməni əhalisi üzərində kütləvi zorakılıqlarda iştirakı ilə bağlı heç bir hal qeydə alınmamışdır (halbuki minlərlə azərbaycanlı “Daşnaksutyun” partiyasının üzvlərinin əli ilə qanına qəltan edilmişdir. – **Müəllif**). “Difai”nin məqsədi müsəlmanların milli bənzərsizliyini ruslaşdırılmadan və ermənilərin təcavüzündən qorumaq, Qafqaz xalqlarının

[1] ГИААР: ф.524, оп.1, д.18, л.44.

rifahına nail olmaq və onların arasında həqiqi qardaşlıq münasibətləri yaratmaq idi. “Difai” hətta “Daşnaksutyun”la birgə işləməyin mümkün olmasını da etiraf edirdi, əgər “Daşnaksutyun” səmimiyyətlə öz proqramını elan edərsə, və o, Qafqaz xalqlarının rifahına razı olarsa, biz ona həmrəylik əlimizi uzatmağa hazırıq. Lakin əgər daşnaklar köhnə qaydada fəaliyyəti davam etdirərsə, müsəlmanlara xaincəsinə hücum edərsə, onlar amansız cavab zərbəsinə məruz qalacaq və bütün Qafqaz sonu görünməyən qanlı meydana çevriləcəkdir, çünki “Difai” partiyası buna yol verməyəcəkdir ki, ermənilər bizim millətin yerlə yeksan edilmiş, yandırılıb xaraba qoyulmuş yurdunda özlərinə rifah yaratsınlar.[1] T.Sventoxovski qeyd edir ki, “Difai” partiyasının həyasızlaşmış bandaların başları üzərindən ermənilərə əl uzatması Azərbaycan ziyalılarının yüksək humanizm təzahüründən başqa bir şey deyildi. Təəssüf ki, “Daşnaksutyun” liderləri bu çağırışı eşitmədilər.[2]

Difaiçilər belə hesab edirdilər ki, baş verən hadisələrin əsas təqsirkarı hökumət orqanlarıdır. Terror aktlarının həyata keçirilməsi üçün “Difai”nin döyüş təşkilatlarından xüsusi döyüşçülər qrupu seçilir, onlar partiyanın bu və ya digər qərarının icrasını təşkil edir və həyata keçirirdi. Bu qrupun üzvləri əvvəlcə and içirdilər. Cavanşir qəzasının rəisinin raportunda deyilirdi: “Ümumi anddan əlavə, partiyanın agentləri hər bir kənddə 2-3 şəxs seçir və onları

---

[1] ГИААР: ф.524, оп.1, д.18,л.37,42.

[2] Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http: //www.kitabxana.org/site/sventoch.htm;

xüsusi and içməyə məcbur edirlər. Güman etmək olar ki, həmin şəxslər partiya üzvlüyünə qəbul edilir və yaşadıqları yerlərdə həm terror aktlarının həm də partiyanın başqa sərəncamlarının icraçıları olacaqlar”.[1]

1906-1908-ci illərdə difaiçilər tərəfindən törədilmiş və böyük əks-səda doğurmuş ən iri siyasi terror aktları general-qubernator Qoloşşapova sui-qəsd və Şuşa hadisələri zamanı onun dəftərxana müdiri Kleşşinskinin öldürülməsi olmuşdur. Tiflis Quberniya Jandarm İdarəsinin rəisi Başinskinin 21 oktyabr 1909-cu il tarixli məruzəsindən göründüyü kimi Qoloşşapovdan narazılığa səbəb 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişələri dövründə onun müsəlmanlara zidd hərəkətləri ilə əlaqədar olmuşdur. Başinski yazır: “1906-cı il avqust ayında Bakıdan Şuşaya gələn Əhməd bəy Ağayevin orada çağırdığı yığıncağın iştirakçıları siyasi xarakterli, odlu-alovlu nitqlər söyləmiş, müsəlmanları hökumətə və hakimiyyət orqanlarına qarşı çıxmağa çağırmışdılar. Ağayev, doktor Kərim bəy Mehmandarov və başqaları deyirdilər ki, müsəlmanlar rus hökumətinə hələ də sadiqdirlər, hökumətin həmin sədaqətə cavabı isə bu olmuşdur ki, general Qoloşşapov erməni hampaları ilə əlbir olaraq tatarlara qarşı çıxmış, onların evlərini dağıtmış, minlərlə müsəlman ac-yalavac qalmışdır və s. Yığıncaqda general Qoloşşapovun hərəkətlərindən narazılıq və tam anlaşılmazlıq ifadə edilməsi və canişindən onun geri çağırılması barədə xahiş olunması məsələsi qoyulmuşdur. Bundan az sonra Şuşada Qoloşşapova qarşı

[1] Документы по русской политике в Закавказье, с.8.

çağırışlar səsləndi”.[1] Beləliklə, müsəlmanların V.N. Qoloş-şapovdan narazı olması barədə çar hökumətinə əvvəlcədən xəbərdarlıq edilmişdi, lakin zəruri tədbirlər görülməmişdi. Bu vaxtdan etibarən general-qubernatora sui-qəsd üçün səylə hazırlıq görülürdü. Terror aktının hazırlanması və həyata keçirilməsi barədə bu aktın təşkilatçılarından biri, sonralar həbs edilərək Şuşa qəza həbsxanasında saxlanılan Səməd Məşədi Həsən oğlunun ifadəsindən məlumat almaq olar. Bu ifadə 1909-cu il avqustun 19-da istintaq zamanı verilmiş və ştabs-rotmistr Rudenkonun Tiflis Quberniya Jandarm İdarəsinin rəisinə məruzəsində öz əksini tapmış-dır. Səməd Məşədi Həsən oğlunun ifadəsindən görünür ki, terror aktı keçirilməsi barədə qərar 1906-cı ilin payızında “Difai” partiyasının Şuşa şəhər sakini Muxtar Qaytaranın evində keçirilmiş iclasında qəbul edilmişdi. Həmin iclasda Məşədi Səlim Ağa oğlu, Şahzadə Keyqubad Mirzə, Həsən Qara Şərif oğlu, Cahangir xan, Şuşa şəhərinin tatar məhəlləsinin pristavının köməkçisi Paşa bəy və Məşədi Şamil Həfniyyə Rəhim oğlu iştirak edirdi. Yığıncaqda Gülablı kəndinin sakini Mürsəl Rza oğlunun köməyi ilə Qoloşşapova qarşı terror aktının icrasını öz üzərinə götürə biləcək bir nəfər tapmaq qərara alınmışdır. Belə bir adam tapıldı. Bu, Gülablı kəndinin sakini Hüsü Əli oğlu idi. Ona izah etdilər ki, general Qoloşşapov tatarlara çox pislik etmişdir və hər bir həmvətənimizin borcu qardaşlarımızın ölümünün qisasını almaqdır.[2] Ona silah - “Smit Veson” tipli pistolet və Tiflisə getmək üçün 300 rubl xərclik verilmişdi. Hüsü Əli oğlu Tiflisə gələndən sonra Şeytan-bazardakı “Bakinskiye nomera” mehmanxanasında yer

[1] ГИААР: ф.62, оп.1, д.59, л.164.
[2] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с 280.

almış və iki ay müddətində general Qoloşşapovu müşahidə etmişdi. 1906-cı il noyabrın 8-də V.N. Qoloşşapov faytonda gedərkən ona iki atəş açılmış və o, ölümcül yaralanmışdı. Hüsü Əli oğlu terror aktını həyata keçirəndən sonra gizlənməyə məcbur olmuşdu.[1] Bundan az sonra "Difai" bir neçə qəzet redaksiyasına özünün möhürü ilə proklamasiyalar göndərmiş və bu sui-qəsdə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[2]

Qafqaz müsəlmanlarına ünvanlanmış proklamasiyada deyilirdi: "İki güllə yarası almış general Qoloşşapovun mənfur və sizin üçün rəzil həyatı başa çatmışdır. Qarabağda törətdiyi mənfur əməllərinə görə "Difai" partiyası tərəfindən ölüm cəzasına məhkum edilmiş general, axır ki, haqlı cəzasını aldı. Bu, Qafqaz müsəlmanlarının şərəf və ləyaqətinin müdafiəsi yolunda "Difai"nin ilk çıxışı və üst-üstə yığılmış xalq qəzəbinə görə ilk qisas aktıdır. İndi minlərlə dərdli ana və bacıların göz yaşı quruyacaqdır. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının minlərlə müflisləşmiş, evsiz-eşiksiz sərgərdan gəzib dolaşan minlərlə sakini az da olsa rahat nəfəs alacaqdır". Proklamasiya "yaşasın Difai" sözləri ilə bitirdi. Həmin proklamasiyada "Difai" partiyasının müsəlman əhalisi qarşısında cinayətlərinə görə ölüm cəzasına məhkum etdiyi başqa şəxslərin əhatə dairəsi də göstərilirdi.[3] Bu siyahıda birinci yeri V.N.Qoloşşapovun sabiq dəftərxana müdiri Kleşşinski tuturdu. Onu ölüm cəzasına Şuşa komitəsi məhkum etmiş, terror aktının icrası isə A.M.Pişnamazzadənin başçılıq

---

[1] ГИААР: ф.524, оп.1, д.19, л.43-44.
[2] «Баку», 1906., 21 ноября, 22 ноября.
[3] ГИААР: ф.524, оп.1, д.18, л.43.

etdiyi Yelizavetpol komitəsinə həvalə edilmişdi. Bu barədə Cavanşir qəzasının 2-ci sahəsinin pristavı İsmayıl bəy Qəhrəmanbəyov Tiflis Quberniya Jandarm İdarəsi rəisinin Yelizavetpol quberniyasındakı köməkçisi rotmistr Kornilova izahatında məlumat vermişdi.[1] O vaxt Kleşşinski kəndlilərin işləri üzrə Yelizavetpol quberniya idarəsinin üzvü idi. 1907-ci il aprelin 25-də hökm partiyanın üzvü Q.M. Həmzəyevin qohumu olan Seyid Miri adlı bir şəxs tərəfindən icra edilmişdir[2]. H. Şeyxzamanlının (H.Keykuranın) xatirələrində göstərilir ki, bu iki qətl hadisəsi Rusiya hökumətini sarsıtmış və “onu daha ağıllı olmağa məcbur etmişdi”. Çoxsaylı axtarışlara və hətta “Difai” partiyasının üzvlərindən heç olmasa bir nəfərini hökumətə təslim edəcək şəxsə 50000 manat qızıl pul məbləğində mükafat ayrılmasına baxmayaraq o vaxt “Difai” partiyasının üzvlərini tapmaq mümkün olmamışdı. Lakin “Difai”nin üzvləri arasında çar hakimiyyəti orqanlarında işləyənlər də vardı. Onlardan biri polisdə katib və tərcüməçi vəzifəsində işləmiş Sədrəddin adlı şəxs idi. Məhz onun sayəsində məlumat alınmışdı ki, Molla Hadı oğlu adlı bir şəxs tez-tez polisə gəlir. Aparılmış təhqiqat nəticəsində müəyyən edilmişdir ki, Molla Hadı polisin xəbərçisi olmuşdur. Bundan sonra partiya bir müddət öz fəaliyyətini dayandırmağa məcbur olmuş, Molla Hadı isə ölüm cəzasına məhkum edilmişdi.[3]

---

[1] ГИААР: ф.62, оп.1, д.59, л.155-162; Ахмедов А.Азербайджанские тюрки в революции 1905 г., с. 282.
[2] ГИААР: ф.62, оп.1, д.59, л.156.
[3] Şeyxzamanlı N. Azerbaycan istiklal mucadelesinin hatiralari, s.31.

1906-cı ilin dekabr ayında Naxçıvan qəzasının keçmiş rəisi podpolkovnik Engel difaiçilər tərəfindən öldürülmüşdü. 1906-cı ildə Naxçıvanda erməni-azərbaycanlı münaqişələri zamanı Engel qoşunların köməyi ilə Azərbaycan kəndlərinin talan olunmasında açıq aşkar iştirak etmişdi. Ordubadi yazır ki, polismeyster Angil (Engel. – **Müəllif**) könüllü döyüşən cavanları qan tökməyə və quldurluqa təşviq edirdi.[1] Engelin Naxçıvanda törədiyi cinayətlər nəticəsində bir ailə tamamilə məhv edilmiş Cəhri kəndi ermənilər və kazaklar tərəfindən yandırılmışdı. 1907-ci il iyulun 11-də Yevlax stansiyasında jandarm Jukov öldürülmüşdü. O, həmin dövrdə sanballı mükafat müqabilində silah daşınmasına və silah alverinə şərait yaradır, silah daşıyanların şəxsiyyətini müəyyən edir və onların barəsində müdiriyyətə məlumat verirdi. Bu aksiyaların məqsədi Azərbaycanın şəhər və kəndlərinə təcavüzkar hücumları dəstəkləmək, yerli etnosu öz tarixi torpaqlarından sıxışdırıb çıxarmaq idi. Bundan əlavə, “Difai”nin öz xalqına xəyanətdə, müsəlmanlara zərər vuran hərəkətlərdə ittiham etdiyi şəxslər də onun qurbanları olurdu. Partiyanın proqramına uyğun olaraq, özlərini müsəlmanların rəhbərləri hesab edən, əslində isə xalqın məhvi üçün çalışan ağaların aqibəti ağır olacaqdır. Partiyanın qılıncı daim onların cinayətkar başları üzərində asılacaq və onların bütün əməllərinə görə amansızcasına qisas alınacaqdır”.[2] “Difai”nin Şuşa komitəsinin qərarı ilə 1907-ci il mayın 1-dən 2-nə keçən gecə Şuşa şəhər sakinləri Muxtar Kərbəlayı Cabbar oğlu və onun oğlu Rəhim Muxtar oğlu qətlə yetirilmişdir. Onlar ermənilərin

---

[1] Ordubadi M.S. Qanlı illər, s.20.
[2] ГИААР: ф.524, оп.1, д.18, л.42.

xeyrinə casusluqda ittiham edilirdi. Tiflis Quberniya Jandarm İdarəsinin rəisinin Yelizavetpol quberniyasındakı köməkçisinin 14 dekabr 1903-cü il tarixli məlumatında bildirilir: "Muxtar Cabbar oğlu çox pis ad çıxarmışdı və həm Şuşa şəhərinin, həm də qəzanın bütün xadimləri onu "əclaf Muxtar" kimi tanıyırlar".[1]

Kiçik zabit S.Kaçenovskinin birinci polis sahə pristavı Qrişinin məlumatlarına və şahid ifadələrinə əsaslanan məruzəsindən məlum olmuşdur ki, 1906-cı ildə "Difai"nin Malıbəyli kəndindəki komitəsinin rəhbəri Əşrəf Məşədi Molla İmran oğlunun sərəncamı ilə Xankəndi postunun strajniki Şahmərdanov ermənilərin xeyrinə satqınlıq etdiyinə görə öldürülmüşdür.[2] "Difai"nin hər bir terror aktından sonra çağırışlar buraxılır, difaiçiləri həmin şəxslərə münasibətdə bu aktı törətməyə sövq etmiş səbəblər izah edilir və bu çağırışların hər biri belə xəbərdarlıqla bitirdi ki, müsəlmançılığın bütün düşmənlərini və müsəlmanların öz aralarındakı xəyanətkarları da bu cür aqibət gözləyir.

"Difai"nin fəaliyyətinin genişlənməsi nəticəsində partiya dünyada baş verən hadisələrlə, proseslərlə fəal maraqlanmağa başlamışdı və heç də həmişə passiv müşahidəçi rolunda qalmırdı. Hüquq-mühafizə orqanlarının sənədlərindən məlum olur ki, partiya İranda Səttarxan hərəkatını, eləcə də Türkiyədə gənc türkləri dəstəkləyirdi. Məsələn, 1908-ci ilin martın 3-də Yelizavetpol şəhərinin fəxri şəxsləri adından Yelizavetpol qubernatorunun adına

[1] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г.,с. 284: ГИААР: ф.524, оп.1, д.16, л.46-46 (об).
[2] ГИААР: ф.524 оп.1, д. 35, л.16-17.

daxil olmuş anonim məlumatda deyilirdi: "Difai" adlı komitə göstərir ki, tezliklə Türkiyə ilə müharibə olacaqdır və biz silah və patron almaq üçün pul yığırıq. Bu məqsədlə onlar Rəfibəyovun evində toplaşır, orada kimin nə qədər pul verməli olması barədə siyahılar tərtib edilirdi. Bizə 50000 rubl məbləğində pul toplamaq təyin edilmişdi, biz isə bunu edə bilmədik və sizdən kömək istəməyə başladıq". Məktubun müəllifləri başda Ələkbər bəy Rəfibəyov olmaqla "Difai"nin Yelizavetpol mərkəzi komitəsinin bütün üzvlərinin adlarını da göstərirlər.[1] Elə həmin gün Yelizavetpol qubernatorunun işlər müdiri Q.Kovalyov Yelizavetpol Quberniya polis rəisinə tam məxfi sirkulyar məktub göndərmişdi. Məktubda xəbərdarlıq edilirdi: "Məndə olan məlumatlara görə, "Difai" müsəlman partiyasının üzvləri hazırda aşkar türkpərəst yönümlü güclü təşviqat aparır və öz cinayətkar fəaliyyəti ilə yerli əhali arasında son dərəcə narahat əhval yaradırlar. Son vaxtlarda bu təşviqat xüsusi ilə geniş miqyas almışdır. Mən bunu qəza polis məmurlarının tamamilə fəaliyyətsizliyi kimi qiymətləndirirəm. Onlar bu partiya barəsində mənim dəfələrlə göndərdiyim təlimatlara məhəl qoymadan partiya təbliğatçılarının fəaliyyətinin bu qədər güclü inkişaf etməsinə və onların əhaliyə təsirinin artmasına imkan vermişlər. Deyilənləri nəzərə alaraq, mənə etibar edilmiş quberniyanın polis rəislərinə təklif edirəm ki, yuxarıda göstərilən təşviqatçıların onlara etibar edilmiş qəzalarda görünməsinə yol verməmək üçün bütün tədbirləri görsünlər və bu barədə onların tabeliyində olan polis məmurlarına dərhal müvafiq göstərişlər versinlər və

[1] ГИААР: ф.524, оп.1, д.19, л.2.

təşviqatçılar aşkar edildikdə onları tutub həbs etsinlər”.[1] Lakin 1908-ci il mayın 24-də Yelizavetpol şəhərinin özlərini fəxri şəxslər adlandıran sakinlərindən jandarm rotmistri Qrekova yeni məktub daxil oldu. Məktubda deyilirdi: “silah və patron almaq üçün Komitənin xeyrinə 15 min rubl pul toplanmışdır və komitə bizdən daha 5 min rubl tələb edir. Lakin biz imtina edirik... biz nə vaxta qədər pul ödəyəcəyik... Ümid edirik ki, ali həzrətləriniz bizim xahişimizi cavabsız qoymayacaq və siz bizə rəhm edəcəksiniz... Biz pul ödəməkdən təngə gəlmişik”.[2] Sənədlərdən göründüyü kimi, difaiçilər tərəfindən yığılan pulun bir hissəsi İranda və Türkiyədə qiyamçılara kömək üçün göndərilirdi.[3] Təkcə Şuşa şəhərinin ətrafındakı Çuxurməhlədə difaiçilər Məşədi Ələsgər Abbas oğlu və Bahadur Kərim oğlu yerli sakinlərdən 3000 rubl pul yığmış, bu pula silah, patron, revolverlər alınmış, adamlar hazırlanmış və Cənubi Azərbaycana Səttarxanın köməyinə göndərilmişdi.[4]

Yuxarıda göstərilən polis materiallarından və məmur məruzələrindən götürülmüş, difaiçilərin ayağına yazılan faktlar XX əsrin əvvəlində Rusiya İmperiyasında inqilabi hadisələr dövründə bir sıra partiyaların fəaliyyəti üçün səciyyəvi idi. Rusiya İmperiyasının tarixindən məlum olduğu kimi bolşeviklər bu məsələdə çox irəli getmişdilər. Bəzi hallarda partiyaların maliyyə problemləri bu cür radikal metodlarla həll edilirdisə, başqa hallarda bu, son

---

[1] ГИААР: ф.524, оп.1, д. 17, л.2.
[2] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с.292 - 293.
[3] ГИААР: ф.62. оп.1, д.59, л.165.
[4] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с. 293 - 294.

məqsədləri təkcə partiyanın proqram vəzifələrini yerinə yetirməklə məhdudlaşmayıb özlərinin merkantil tamahkar məqsədlərindən ibarət olan partiya daxili kriminal qrupların yaranması ilə bağlı idi. Bir qayda olaraq, bu cür qruplar dövlətə və ya dövlət quruluşuna bilərəkdən meydan oxumurdu, partiya mənsubiyyəti isə onların öz məqsədlərini reallaşdırması üçün münasib pərdə idi. Sənədlərdən göründüyü kimi "Difai" partiyasının bəzi üzvləri də bu cür cinayətlərdə ittiham edilmişdir. Bu ittihamlar həmin cinayətlərin qurbanları olmuş şəxslərin şikayət teleqramlarına əsaslanırdı. Lakin belə cinayətlərin çox vaxt tamah məqsədi ilə törədildiyini və ya sadəcə olaraq şəxsi münasibətləri ayırd etmək üsulu olduğunu nəzərə alsaq, onda aydın olur ki, bu cinayətləri bütün partiyaya aid etmək olmazdı. Digər tərəfdən, rəsmi şəxslərin məruzələrindən göründüyü kimi həmin dövrdə partiyanın güclü fəaliyyətini nəzərə alan hakimiyyət orqanları "Difai"ni ləğv etmək üçün həmin cinayətlərə ilk növbədə siyasi xarakter verməyə çalışırdılar.

1908-ci ilə qədər "Difai"nin fəaliyyəti o qədər geniş miqyas almışdı ki, Azərbaycan qəzalarında çar hakimiyyəti orqanlarının mövcudluğuna təhlükə yaranmışdı. Partiya üzvlərinə qarşı repressiyalar başlanmışdı. Qafqaz canişini özünün 4 mart 1908-ci il tarixli fərmanı ilə "Difai" partiyasının ləğv edilməsi barədə tapşırıq vermişdi.[1] Yelizavetpol general-qubernatoru Q.Kovalyov cavab məktubunda yazmışdı ki, cari ilin mart ayında bu partiya tamamilə ləğv ediləcəkdir. Lakin bu planların həyata keçirilməsi üçün qubernator ilk növbədə partiyanın Bakıdakı mərkəzi komitəsinin

[1] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с. 290.

ləğv olunmasını təklif edirdi, çünki təkcə ona etibar edilmiş Yelizavetpol quberniyasında partiya qismən ləğv ediləcəyi halda Bakıdakı mərkəzi komitə partiyanın öz funksiyalarına xitam vermiş bölmələrini bərpa etməyə çalışacaqdır. Buna görə də qubernator "Difai" partiyasının mövcudluğuna birdəfəlik xitam vermək məqsədilə başda mərkəzi komitənin sədri Əhməd bəy Ağayev olmaqla Mərkəzi Komitənin heyətini Zaqafqaziya diyarı hüdudlarından çıxarmaq üçün" icazə istəyirdi.[1] Repressiyalara məruz qalan əsasən Ə.Ağayev oldu. Onun qəzetləri bağlanmış, özünü təqib etməyə başlamışdılar. Moskvadakı artistlər klubunda Ə.Ağayevin həbs edilməsi ilə nəticələnə biləcək növbəti təhrikçi insidentdən sonra o, Türkiyəyə mühacirət etmişdi. O gedəndən sonra partiyanın fəaliyyətində ciddi tənəzzül yarandı.

"Qarabağ Birlik Məclisi"nin üzvləri kütləvi həbslərə məruz qaldı. 1908-ci il martın 23-24-də Q.Münşiyev, A.Əzimov, Məşədi Ş.Hacıyev, Z.Haqverdiyev, X.Quliyev, K.Kazımbəyov, M.D. Muxtarov və başqaları tutularaq, Şuşa həbsxanasına salındı. Onlar hamısı Həştərxan quberniyasına sürgün olunmağa məhkum edildi, Muxtarov isə İran təbəəsi kimi İrana sürgün edildi.[2] Həştərxana sürgün hökmü sonradan Yelizavetpolun yeni müvəqqəti general-qubernatoru Fleyşer tərəfindən başqa yerə getməmək barədə iltizam və adambaşı 3000 rubl girov ödənilməklə əvəz edilmişdi.[3]

---

[1] Документы по русской политике в Закавказье, с.43; ГИААР: Ф.524,оп.1,д.15, л.40-41.
[2] Документы по русской политике в Закавказье, с. 44,46; ГИААР: Ф.524,оп.1,д.15, л.42-43.
[3] Документы по русской политике в Закавказье, с. 45.

1909-cu ilin may ayında "Qarabağ Birlik Məclisi"nin üzvlərinin işi üzrə məhkəmə araşdırması aparılmışdı. İş üzrə müttəhimlər kimi "Difai"nin Şuşa bölməsinin üzvləri Məşədi Şamil Hacıyev, Əfrasiyab Əzimov, Kərbəlayi Usub Mirsiyabov, İrzabəy İrzabəyov və Məmməd İsmayıl oğlu, Ağdam bölməsinin üzvləri Hacı Miriş Mirbağırov, Mirzə Davud Ağamirzəzadə, Baxış bəy Kazımbəyov, Hacı Cümşüd Hacı Cəfərqulu oğlu, Zülfüqar bəy Abdullabəy oğlu Haqverdiyev və Muxtar Kərbəlayi Məmməd oğlu keçirdi. Adları çəkilən şəxslər "fəaliyyətinin məqsədi Zaqafqaziyanın müsəlman əhalisini qanuna və hökumətin sərəncamlarına itaət etməməyə təhrik etməkdən ibarət olan, özünü müsəlman "Difai" partiyası və "Qarabağ Məclisi" adlandıran, üzvləri ətraf kəndləri gəzərək əhalidən partiyanın ehtiyacları və silah üçün pul yığan, partiyanın adından inzibati və məhkəmə vəzifələrini yerinə yetirən, əhali arasında çəkişmə və mübahisələri tənzimləməklə məşğul olan cinayətkar birlikdə iştirak etməkdə" ittiham olunurdu. Araşdırma nəticəsində Yelizavetpol mahal məhkəməsi 1909-cu il mayın 15-də "Qarabağ Birlik Məclisi"nin üzvlərinin işi üzrə hökm çıxarmışdı. Məhkəmənin qərarı ilə həmin şəxslərdən 8 nəfəri 8 aydan 2 ilə qədər həbs cəzasına məhkum edilmiş, 3 nəfərin isə təqsiri sübut edilmədiyinə görə məhkəmə onlara bəraət vermişdi.[1]

Qarabağ məclisinin ardınca partiyanın Yelizavetpol komitəsi də dağıdıldı. Difaiçilərə qarşı repressiya tədbirləri görülməsinin bir qədər ləngiməsi jandarm hakimiyyət dairələrinin xüsusi mülahizələri ilə izah edilirdi. Məsələn, Yelizavetpol qubernatoru Q.Kovalyov 1908-ci il martın 14-

[1] ГАППОДАР: ф. 276, оп. 8, д. 217, л. 22-25.

də Qafqaz canişininin dəftərxanası yanında polis hissəsinin xüsusi bölməsinə təqdim etdiyi məlumatda Yelizavetpolun sabiq general-qubernatoru general-mayor Volskini "Difai"nin Yelizavetpol bölməsinin ləğvini 1907-ci ildə təxirə salmağa sövq etmiş səbəbləri aşağıdakı kimi izah edirdi: "Sonuncu (general Volski. – **Müəllif**) o dövrdə (yəni 1907-ci ildə. - **Müəllif**) "Daşnaksutyun" erməni inqilabçı partiyasını ləğv etməyi nəzərdə tutarkən "Difai" partiyasının üzvlərinin həbsini müəyyən qədər təxirə salmağı zəruri hesab etmişdi. O, ehtiyat edirdi ki, bu iki inqilabi təşkilatın üzvlərinin eyni vaxtda həbs edilməsi onların hökumətə qarşı birgə müxalifətçi fəaliyyətinə səbəb ola bilər".[1]

"Difai"nin Yelizavetpoldakı təşkilatının ləğv edilməsi tədbirləri 1908-ci il iyun ayında başlandı. 1908-ci il iyunun 24-nə keçən gecə Yelizavetpolda kütləvi axtarışlar aparıldı. Axtarışlar zamanı M.M.Pişnamazzadə, Ə.Rəfibəyov, Ə. Xasməmmədov, M.Q. Rəfiyev və Q.Usubbəyovun evlərində rus, fransız və türk dillərində çoxlu miqdarda inqilabi ədəbiyyat aşkar edilmişdi.[2] Ə.Xasməmmədovun evində gənc türklərin tanınmış lideri doktor Abdullah Cövdətin 1905-ci ildə Cenevrədə "Qafqaz müsəlmanlarına müraciət" adlı kitabçası da tapılmışdı. Bu kitabça erməni-azərbaycanlı münaqişəsinə son qoymağa və bütün qüvvələri əsas müstəbidlərə – rus çarına və Türkiyə Sultanına yönəltməyə çağırırdı: "Parçala və hökm et!" prinsipini rəhbər tutan çarın səyləri sayəsində siz gələcəkdə daha çox əziləcəksiniz, xüsusən ona görə ki, bu səylər digər

[1] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с. 289.
[2] ГИААР: ф.62. оп.1, д.59, лл. 79, 87.

müstəbid Əbdülhəmid tərəfindən tam rəğbətlə qarşılanır”.[1] Bu sənədlərdən göründüyü kimi, gənc türklər Sultan hakimiyyətinə qarşı geniş mübarizə cəbhəsi təşkil etməyə, həm ölkə daxilində, həm də Rusiya İmperiyasının milli-inqilabi təşkilatları arasında özünə dayaq yaratmağa çalışırdı. Belə təşkilatlardan ən münasibi “Difai” idi. Maraqlıdır ki, bu kitabçanı Cenevrədən “yaxşı savadlı müsəlmana” göndərən “Daşnaksutyun”un üzvü Leon Mnatsakanov olmuşdu. Bu, belə güman etməyə əsas verir ki, daşnaklar gənc türklərin təbliğat ədəbiyyatının yayılmasında fəal rol oynamışlar. Ə.Xasməmmədovda aşkar edilmiş ədəbiyyat arasında P.Lafarq, Ged, K.Kautski və başqalarının sosial-demokratik yönümlü işləri xeyli yer tutur.[2] Bu, çar məmurlarının fərziyyəsini sübut edir ki, “Difai” partiyası öz siyasi məqsədlərinə görə demokratik yönümlü olmuş, milli zəmində sosial-demokratik ideyaları təbliğ etmiş və əhalinin bütün demokratik təbəqələrini öz bayrağı altında birləşdirməyə çalışmışdır.[3] M.Axundov, H.Usubbəyov, M.İsmayılzadənin evlərində də xeyli miqdarda qeyri-leqal ədəbiyyat və silah aşkar edilmişdi. Bu şəxslər həbs edilmiş, sonra isə 1909-cu il avqustun 4-də polisin aşkar müşahidəsi şərti ilə azad edilmişdilər.[4]

Qeyd etmək lazımdır ki, hökumət orqanları “Difai” partiyasının üzvlərinin həbs edilməsi məsələsinə çox ehtiyatla yanaşırdılar. Məsələn, Yelizavetpol general-quber-

---

[1] ГИААР: ф.62. оп.1, д.59, л.159 об.
[2] ГИААР: ф.62. оп.1, д.59, л.100-104.
[3] Документы по русской политике в Закавказье, с.12,19.
[4] Багирова И.Политические партии и организации Азербайджана в начале XX века, с.187.

natoru vəzifəsini müvəqqəti icra edən polkovnik Klementovun Tiflis Quberniya jandarm İdarəsinin rəis köməkçisinə 10 yanvar 1909-cu il tarixli teleqramında deyilirdi: "Nəticəsiz kütləvi axtarışlar və xüsusən yerli əhali arasında görkəmli mövqe tutan şəxslərin kifayət qədər əsaslandırılmamış həbsləri, mənim inamıma görə əhalini terrora məruz qoyur və nəinki hakimiyyətin nüfuzunun artmasına imkan verməmək və dövlətdə asayişin və təhlükəsizliyin saxlanması vasitəsi olmamaqla yanaşı, həm də əhalinin nəzərində bu hökuməti aciz və vəziyyətdən tamamilə bixəbər kimi göstərir". Həmin teleqramda yerli əhalinin nümayəndələri tərəfindən verilən məlumatlara da münasibət bildirilir, onlar yalnız şəxsi düşmənçilik münasibətlərinin nəticəsi kimi qiymətləndirilirdi.[1] Buna görə də hüquq-mühafizə orqanları partiyanın fəaliyyətinə öz məxfi agentləri vasitəsilə nəzarət edir, onların verdiyi məlumatlar diqqətlə yoxlanılırdı.[2]

Tiflis Quberniya Jandarm İdarəsinin rəisi vəzifəsini icra edən podpolkovnik Başinski öz raportunda Yelizavetpol komitəsinin bütün rəhbər heyətini (10 nəfər) aşkar polis nəzarəti altında inzibati qaydada sürgün etməyi təklif edirdi. Lakin onlardan yalnız iki nəfəri - N.Axundov Səmərqəndə və H.Usubbəyov Baxçasaraya sürgün edildi. Onlar 5 il sürgün həyatından sonra çarın 21 fevral 1913-cü il tarixli fərmanına əsasən Romanovlar evinin hakimiyyətinin üç yüz illiyi münasibətilə amnistiyadan sonra 1914-cü ildə vətənə qayıtdılar.[3] Repressiyalar nəticəsində partiya

---

[1] ГИААР: ф.62, оп.1, д.59, л.91-91 (об).
[2] Документы по русской политике в Закавказье, с.10.
[3] ГИААР: ф.62. оп.1. д.59. л.163 об.

faktiki olaraq başsız qalmışdı. Lakin ayrı-ayrı sənədlər və dəlillər göstərir ki, onun fəaliyyəti passiv formada da olsa davam etmişdir. Bərdəli mülkədar İsmayıl bəy Tağıbəyovun rotmistr Kornilova ünvanlanmış 8 aprel 1910-cu il tarixli məktubunda qeyd edilir ki, polkovnik Qamkrelidzenin səyləri sayəsində bu il hökumətin düşmənləri, "Difai"nin Bərdə komitəsinin üzvləri tutulub saxlanmışdır.[1] 1912-ci ildə "Difai"ni bərpa etməyə, eləcə də partiyanın Qarabağ fəaliyyətinin təbliğat işini dirçəltməyə cəhd göstərilmişdi. Bununla əlaqədar, "Qarabağ məclisi"nin katibi Xuduş Quliyev Şuşada tutulmuşdu.[2] Yelizavetpol sakinləri Musa Bağır oğlu, Baba Allahverdi oğlu, Şuşa sakini İldırım bəy Şərifbəyov bu partiyaya mənsub olmaqda şübhə doğurduğuna görə həbs edilmişdi.[3] Elə həmin vaxt, 1912-ci il mayın 21-də Nuxada Zaqafqaziya şeyxülislamı A.M.Pişnamazzadənin evində Azərbaycan dilində 11 kitabça və 17 vərəqə aşkar edilmişdi.[4] Bundan əlavə, 1912-ci ilin avqust ayında Nuxada yerli polis tərəfindən tapılmış türk dilində proklamasiyaların birində deyilirdi: "İslamın və millətin təmiz adını qoruyub saxlamaq naminə biz bir müddət öz fəaliyyətimizi dayandırmağa məcbur olmuşduq. Lakin indi topladığımız məlumatlar nəticəsində yenidən öz müqəddəs borcumuzu yerinə yetirməyə başlayırıq və əvvəlki proqram üzrə hərəkət edəcəyik. Nuxada və Qafqazın bəzi başqa məntəqələrində yaranmış bəzi fikir ayrılıqlarına səbəb olan şəxslər haqqında şayiələri diqqətlə yoxladıqdan və onların təqsirkar olması yəqin edildikdən

---

[1] Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., с.29 4.
[2] ГИААР: ф.62, оп.1, д.70, л.25.
[3] ГИААР: ф.62, оп.1, д.70, лл.30, 32, 33.
[4] ГИААР: ф.62, оп.1, д.70, л. 162.

sonra biz onlara münasibətdə insan ləyaqəti qaydalarına uyğun hərəkət edəcəyik ki, rəzil insanlar bundan sonra öz arzularını həyata keçirməyə, millətimizin nümayəndələrinin namusuna toxunmağa cəsarət etməsinlər”.[1] 1912-ci il aprel ayında Ərəş qəzasında da Azərbaycan dilində vərəqələr paylanmışdı.[2] Lakin difaiçilər öz fəaliyyətini əvvəlki miqyasda bərpa edə bilmədilər. Bu dəfə polis daha sayıq idi və azacıq şübhə yarananda difaiçiləri həbs edir, onları Qafqaz hüdudlarından kənara sürgün edəcəyi ilə hədələyirdi.[3] “Difai”nin fəaliyyətinə xitam verilməsinin dəqiq tarixi barədə tarixşünaslıqda vahid fikir yoxdur. M.B.Məmmədzadə və H.Baykara qeyd edirlər ki, “Difai” partiyası öz mövcudluğuna 1908-ci ildə xitam vermişdir. X.Məmmədov isə belə hesab edir ki, partiya öz fəaliyyətini 1909-cu ildə dayandırmışdır. Difaiçilərin çoxu sonradan 1911-ci ildə yaradılmış Müsavat partiyasına daxil olmuşlar.

Ayrı-ayrı işlərdə göstərilən faktlar bu qənaətə gəlməyə əsas verir ki, “Difai” I Dünya Müharibəsinə qədər və hətta 1917-ci il fevral inqilabından sonra da mövcud olmuşdur. Məsələn, T.Sventoxovski Türkiyə mənbələrinə əsaslanaraq göstərir ki, Fətəli xan Xoyskinin qardaşı oğlu, keçmiş difaiçilərin səlahiyyətli nümayəndəsi Aslan xan Xoyski Qafqaz cəbhəsində döyüş əməliyyatları zamanı sərhədi keçmiş və 1915-ci il fevral ayında Ərzurumda Ənvər Paşanın qərargahına gəlmişdir. Onun bu səfərinin məqsədi istər Rusiyadan, istərsə də Türkiyədən asılı olmayan müstəqil Respublika yaradılması üçün Türkiyə və Almaniya nüma-

---

[1] ГИААР: Ф.524, оп.1, д.26, л. 26.
[2] ГИААР: Ф.62, оп.1, д.70, л. 179.
[3] ГИААР: ф.62, оп.1, д.70, л.26.

yəndələrindən zəmanət almaq idi. Həmin respublikaya Bakı, Yelizavetpol və İrəvan quberniyaları, habelə Dağıstan və Terek rayonunun daxil olması nəzərdə tutulurdu.[1]

N.Şeyxzamanlı öz xatirələrində yazır: "1917-ci ildə çar hökuməti devriləndən və Rusiya İmperiyası dağılandan sonra başda Kerenski olmaqla müvəqqəti hökumət yaradıldı. Qubernator vəzifəsi ləğv ediləndən sonra vilayət komissarı vəzifəsi tətbiq edildi. O dövrdə həmin vəzifəyə Xəlil bəy Xasməmmədov təyin edilmişdi. İcraiyyə komitəsi yaradılmışdı. Həmin komitəyə ictimai təşkilatların və partiyaların hərəsinin bir nümayəndəsi daxil olmalı idi. İcraiyyə komitəsinin üzvlüyünə "Difai" partiyasından nümayəndə seçilməsi məsələsi qaldırılmışdı. Bu məsələ İcraiyyə Komitəsinin iclasında müzakirə ediləndən sonra iclasın protokolu Kerenskiyə göndərilmişdi. Bir həftədən sonra Kerenskidən cavab teleqramı alındı. O, "Difai" partiyası haqqında məlumat verilməsini tələb edirdi. Tezliklə cavab göndərildi. Biz yenidən fəaliyyətə başlamağın zəruri olduğunu hiss edirdik. Bu yolda ilk addım Gəncə şəhərinin hər bir məhəlləsində gənclərdən ibarət silahlı dəstələr yaradılması oldu. Həmin dəstələrə zabitlər başçılıq edir, hərbi təlimlər keçirirdilər. İki ay ərzində "Difai"nin hərbi hissələrinin köməyi sayəsində Gəncə Milli Komitəsi şəhərdə dislokasiya edilmiş 218-ci və 219-cu rus alaylarını tərksilah etməyə müvəffəq oldu. Tezliklə onlar şəhəri tərk etdilər.[2] "Açıq söz" qəzetinin 13 oktyabr 1917-ci il tarixli nömrəsində belə bir məlumat verilmişdi ki, Azərbaycan siyasi partiyalarının Gəncədə keçirilmiş müşavirəsində "Nicat" və

---

[1] Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование национального самосознания в мусульманском обществе. http: //www.kitabxana.org/site/sventoch.htm

[2] Şeyxzamanlı N. Azerbaycan istiklal mucadelesinin hatiralari, s.42 -44.

“Difai” partiyalarının üzvləri “Müsavat” sıralarına daxil olmuşlar, çünki bu partiyaların proqramları oxşardır.[1] Nəhayət, M.B.Məmmədzadə qeyd edir ki, “Difai” üzvləri sonradan ADR milli ordusunun əsasını təşkil etmişlər.[2]

## Nəticə

XIX əsrin axırları – XX əsrin əvvəllərində şimali Azərbaycanda milli hərəkat əhəmiyyətli dərəcədə genişlənir. Azərbaycan xalqının milli mənafelərini milli partiyalar ifadə edirdi. Onların milli “xarakteri” onda təzahür edirdi ki, milli dirçəliş ideyası bu partiyaların təşəkkülündə həlledici olmasa da, çox mühüm rol oynayırdı. Cənubi Qafqazda və ilk növbədə Şimali Azərbaycanda milli partiyaların yaranmasının ən mühüm qanunauyğunluğu ondan ibarət idi ki, həmin regionlarda azadlıq hərəkatı qədim ənənələrə malik idi. Azərbaycanda milli partiyaların yaranması üçün ən mühüm katalizator türklərin birliyi və maarifçilik ideyalarının güclü təsiri, cəmiyyətin mütərəqqi elementlərinin öz siyasi mənafelərini dərk etməsi, erməni millətçiləri tərəfindən millətlərarası münaqişələrin qızışdırılması siyasəti idi. XX əsrin əvvəlində Azərbaycanda milli siyasi partiyalar yaradılması təcrübəsi göstərir ki, onlar ziyalıların və burjuaziyanın nümayəndələri, milli hisləri və ideyaları ifadə etməyə qabil olan savadlı insanlar tərəfindən yaradılırdı. XX əsrin əvvəlində Azərbaycanda partiyaların kəmiyyət və keyfiyyət baxımından təhlili göstərir ki, həmin partiyaların heç də hamısı partiya və cərəyan anlayışlarına müvafiq deyildi, yəni onların hər birinin öz proqramı, Şimali Azərbaycan regionlarında

[1] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 clddə. 1 cild. Bakı, 2004, s.307.
[2] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s.94

şaxələnmiş şəbəkəsi, öz qəzetləri və digər mətbu orqanları yox idi. Həmin partiyaların yaradılması prosesində ayrı-ayrı görkəmli siyasi liderlərin rolu çox böyük əhəmiyyət kəsb edirdi. Yaradılmış milli partiya və təşkilatlar Azərbaycan xalqının tələb və istəklərinin aktual spektrini bu və ya digər dərəcədə özündə cəmləşdirmişdi. Nəticədə onlar, bir tərəfdən sosial bazanı genişləndirir, lakin labüd olaraq dövlətlə münaqişəyə girirdilər. İnqilabi hərəkata, o cümlədən milli partiya və təşkilatlara münasibətdə çar hökumətinin cavab kimi həyata keçirdiyi repressiyalar siyasəti yeni münaqişələrə - etnos ilə hakimiyyət arasında və etnoslararası münaqişələrə səbəb olurdu. Lakin cəza ekspedisiyaları və xüsusi fövqəladə idarəetmə tədbirləri hərəkatı bir müddət yatırsa da, problem özü aradan qalxmırdı.

Bu baxımdan "Difai" partiyasının fəaliyyətinin qısamüddətli və qeyri-leqal olmasına baxmayaraq, o, yuxarıda sadaladığımız əlamətlərin hamısını özündə cəmləşdirmişdi. Azərbaycan xalqının milli azadlıq hərəkatında "Difai"nin rolunu və yerini, eləcə də bu partiyanın mübarizə taktikasını və metodlarını müasir dövrün mövqeyindən birmənalı qiymətləndirmək çətindir. Müxtəlif səbəblər üzündən "Difai"nin əsas arxivləri bizə gəlib çatmamışdır. Materialların çoxu, əsasən partiya üzvlərinin həyatını qoruyub saxlamaq məqsədilə məhv edilmişdir. Ona görə də bu mövzuya dair tədqiqatlarda əsasən polis orqanlarında qalmış materiallarla kifayətlənmək lazım gəlir. Həmin orqanlar isə əsas diqqəti yalnız neqativ cəhətlər üzərində cəmləşdirir və hər şeyə qərəzli mövqedən yanaşırlar. Nəticədə "Difai"nin həyata keçirdiyi terror çox vaxt bu partiyanın əsas silahı kimi təqdim edilir. Lakin bu təşkilatın fəaliyyətini hərtərəfli nəzərdən keçirərkən belə bir qənaətə gəlmək olar ki, "Difai"

Qafqazda ilk türk dövləti yaratmaq kimi konkret siyasi məqsədlər güdür, xalqın maarifləndirilməsinə, milli ideyanın inkişafına xüsusi əhəmiyyət verirdi, eyni zamanda sosial-hüquq bərabərliyi, sosial-demokratiya ideyaları ona yad deyildi. Ona görə də bu gün inamla deyə bilərik ki, "Difai" Azərbaycanın ilk milli siyasi partiyasıdır. Lakin öz zəmanəsinin məhsulu olan "Difai" o dövrdə praktikada tətbiq edilən münasib metodlardan istifadə etməklə müdafiə olunmağa və xalqın mənafelərini müdafiə etməyə məcbur idi. Bu baxımdan "Difai" ilə eyniləşdirməyə cəhd göstərilən terror yalnız məcburi antiterror tədbiri kimi mövcud olmuşdur. Bundan əlavə, başqa xarakterli səbəblər də var. Əvvələn, qeyri-leqal fəaliyyət və hakimiyyətdə qanuni iştirak etmək imkanının olmaması; ikincisi, yaxşı təşkil olunmuş və silahlanmış erməni partiyalarına qarşı hakimiyyətin fəaliyyətsizliyi və hətta onlara himayədarlıq etməsi şəraitində azərbaycanlıların qırğından qorunması üçün başqa üsulların olmaması özünü göstərirdi. Digər tərəfdən, "Difai"nin terrorunun daxili səbəbləri də vardı. Bu, müsəlman cəmiyyəti daxilində sosial bərabərsizliyin aradan qaldırılması, maddi nemətlərin ədalətli bölgüsü və aqrar məsələnin həlli üçün bir növ radikal üsul idi. "Difai" partiyası müxtəlif aktların və aksiyaların keçirilməsinə hazırlıq prosesində klassik ssenari üzrə hərəkət edirdi. Bu aktlar və aksiyalardan əvvəl və onlardan sonra müxtəlif təbliğat və nəzəri xarakterli materiallar yaranır və yayılırdı. Həmin materiallar müvafiq aktın "yol verilə bilən", "əsaslı" və "siyasi baxımdan məqsədəuyğun olmasına" haqq qazandırırdı. "Difai"nin fəaliyyəti dövründə bu cür materiallar kimi proklamasiyalardan, vərəqələrdən və müraciətlərdən istifadə edilirdi. Heç şübhəsiz siyasi terrorizmin təzahürü olmayan

bu aksiyalar partiyanın liderlərinin də gözlədikləri kimi cəmiyyətdə özünəməxsus mənəvi-psixoloji fon, ovqat yaradırdı. Son nəticədə bu aktlar yalnız müdafiə xarakteri daşıyırdı və Azərbaycan xalqının maraqlarının müdafiəsinə yönəlmişdi. Bir şeyi tam qətiyyətlə deyə bilərik ki, azğınlaşmış daşnak bandalarına qarşı yaradılmış və özünü "Milli döyüş partiyası" adlandıran "Difai" partiyası tədricən başlanğıcda qarşısına qoyduğu məqsəd və vəzifələrdən yüksələrək daha böyük amallar və məqsədlər uğrunda mübarizə aparırdı. Azərbaycan qəzalarının əhalisinin çox hissəsini öz nüfuz dairəsinə almış "Difai" siyasi vasitələrdən və dindən istifadə etməklə xalq kütlələrini maarifləndirməyə, qanlı hərc-mərcliyin əsl səbəbkarının imperiya siyasəti və erməni millətçi təşkilatlarının terrorçu fəaliyyəti olmasına onların gözünü açmağa çalışır və bəzən buna nail olurdu. Partiya bunlara qarşı özünəməxsus tərzdə, o dövrdə inqilabçıların imtiyazı sayılan parlament vasitələrindən fərqli üsullarla mübarizə aparırdı.

O dövrün yerli hüquq mühafizə orqanlarının rəsmi sənədlərində, eləcə də sovet tarixşünaslığında "Difai" partiyasının fəaliyyəti bir qayda olaraq panislamist fəaliyyət kimi səciyyələndirilirdi. Bu, keçmiş Rusiya İmperiyasında türk-müsəlman xalqlarının milli azadlıq, inqilabi və başqa hərəkatları ilə üzləşdikdə hakimiyyətin tətbiq etdiyi ümumi hazır resept və standart davranış forması idi. Lakin o dövrdə Rusiya şəraitində müsəlmanların birliyi ideyaları aşkar mütərəqqi xarakter daşıyırdı, çünki bu hərəkat yalnız başqa millətlərdən olan vətəndaşlarla müsəlmanların hüquqlarının bərabərləşdirilməsi uğrunda çıxış edirdi. Digər tərəfdən 1905-1911-ci illərdə İranda baş vermiş inqilabi hadisələr, 1908-ci il Türkiyədə gənc türklər

inqilabı Çar Rusiyasının müsəlman əhalisi, o cümlədən azərbaycanlılar arasında onların eyni soykökünə malik olmasının dərk edilməsi, birləşmə ideyalarının inkişafına gətirib çıxarmışdı. Lakin bu birləşmə vahid islam dövləti yaratmaq məqsədi güdmür, ictimai tərəqqi, müsəlmanların mədəni inkişafı və milli azadlığı şüarları ilə çıxış edirdi.

“Difai” partiyasının qısa müddət mövcud olması onun təşkilatlanmasını başa çatdırmağa imkan vermədi. Lakin Azərbaycanda milli hərəkatın təşəkkülünə “Difai”nin böyük töhfə verməsi mübahisəsiz faktdır. Erməni-azərbaycanlı münaqişələri özlüyündə azərbaycanlı əhalinin əhval-ruhiyyəsini o dərəcədə dəyişmişdir ki, əvvəlki laqeydlik və apatiya hissləri ictimai həyat hadisələrinə maraqla əvəz olunmuşdu. “Difai” partiyası zamanın tələbi idi və XX əsrin əvvəlində Azərbaycan tarixində bərqərar olmuş çox spesifik bir şəraitdə yaranmışdı. O dövrdə milli dövlətçilik hətta nominal məhdud formada da mövcud deyildi. Lakin bu gün inamla deyə bilərik ki, “Difai” partiyasının Azərbaycan tarixində yerinə yetirdiyi missiyanı taleyüklü missiya adlandırmaq mübaliğə olmaz. Məhz “Difai” partiyası tərəfindən yaradılmış strukturları müəyyən mənada şərti də olsa Azərbaycan dövlətçiliyinin təməli hesab etmək olardı. Məhz “Difai” partiyası inandırıcı şəkildə nümayiş etdirdi ki, Azərbaycan xalqı özü-öz taleyini həll edə bilər. O, özünü müdafiə etmək və bunun üçün zəruri strukturlar yaratmaq hüququna malikdir: həm mülki, həm nümayəndəli strukturlar və lazım gəldikdə silahlı güc strukturları yarada bilər. Düzdür, “Difai” partiyasının yaratdığı milli strukturlar sovet totalitarizmi illərində qorunub-saxlanmadı və saxlana da bilməzdi. Lakin məhz onun sayəsində insanların kütləvi şüurunda

baş vermiş irəliləyiş hesabına Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və 1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpa edilməsi mümkün oldu. Məhz milli hərəkatda radikal cinahı təmsil edən "Difai" kimi partiyalar öz fəaliyyətləri ilə azərbaycanlıların müstəmləkə üsul-idarəsinə uzun müddət passiv tabe olması ənənəsinə son qoymuş və ən başlıcası gələcəkdə milli partiyalarının yaranması üçün zəmin yaratmışdı. Birmənalı fakt ondan ibarətdir ki, bu partiyanın tarixinin öyrənilməsi Azərbaycan xalqının öz mənafeləri və müstəqilliyi uğrunda mübarizə ənənələrinin nümayiş etdirilməsi baxımından aktualdır.

Bu gün ümummilli lider Heydər Əliyevin səyləri sayəsində sözün həqiqi mənasında özünü müdafiə etməyə və intensiv inkişaf etməyə qadir olan ilk milli, hüquqi dövlət sözdə deyil, əməli işdə yaradılmışdır. Heydər Əliyev əsl vətənpərvər, çox böyük siyasi iradə və tarixi hünər sahibi olan rəhbər kimi, artıq 200 il müddətində xalqımıza qarşı aparılan soyqırım və təcavüz sisteminə ali dövlət səviyyəsində ilk dəfə tarixi qiymət vermişdir. Ümummilli liderin 10 il bundan əvvəl imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" tarixi fərmanı erməni terroruna və zorakılığına qarşı mübarizənin yeni mərhələsinin başlanğıcıdır. Bu gün Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyəti əyani şəkildə göstərir ki, ölkədəki pozitiv proseslər dönməz xarakter almışdır. Şübhə yoxdur ki, yalnız indiki iqtidar dərin tarixi köklərə malik olan Qarabağ məsələsini "ölü nöqtə"dən tərpətməyə nail olacaqdır. Məhz bu iqtidar iqtisadiyyatın, demokratiyanın, plüralizmin hərtərəfli inkişafı və tarixi yaddaşımızın obyektiv bərpası üçün şərait yaratmışdır. Son beş ildə

Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti sayəsində tarixi abidələrin və bütövlükdə tariximizin bərpası istiqamətində böyük işlər görülmüşdür. Obyektiv tarixi yaddaşın bərpası istiqamətində Heydər Əliyev Fondunun rəhbərliyi də çox böyük iş aparır. Bugünkü inkişaf nəticəsində yaranmış şərait və əhval-ruhiyyə tarixçiləri, vətənpərvər insanları tədqiqat işləri aparmağa və tariximizi daha dərindən dərk etməyə sövq edir, bu araşdırmalar müxtəlif konfranslarda, dəyirmi masa yığıncaqlarında və söhbətlərdə öz əksini tapır. Tariximizin bəzi faciəli səhifələrini əhatə edən bu kitabın hazırlanması ideyası da belə yaranmışdır.



Əhməd bəy Ağayev
«Difai» partiyasının rəhbəri
Ахмед бек Агаев
Руководитель партии «Дифаи»



Ələkbər bəy Rəfibəyli
«Difai» partiyasının Gəncə şöbəsinin rəhbərlərindən biri
Алекпер бек Рафибейли
Один из руководителей Гянджиского отделения партии «Дифаи»



Xəlil bəy Xasməmmədov
«Difai» partiyasının Gəncə şöbəsinin üzvlərindən biri
Халил бек Хасмамедов один из членов Гянджинского отделения партии «Дифаи»



Kərim  bəy Mehmandarov
«Difai» partiyasının “Qarabağ Birlik Məclisinin” rəhbəri
Керим бек Мехмандаров
Руководитель «Карабахского Меджлиса Единения» партии «Дифаи»



Kərim  bəy Mehmandarov
tələbəlik illərində
Керим бек Мехмандаров
в студенческие годы



Kərim  bəy Mehmandarov (soldan ikinci)
Sankt-Peterburq Tibb Akademiyasında
Керим бек Мехмандаров (второй слева)
в Медицинской Академии Санкт-Петербурга



